Xalqın qəzeti!

# Xalq qəzeti

№ 283 (30687) 22 dekabr 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycanın inkişaf salnaməsinə 2024-cü ildə yazılan uğur səhifələri

## *Prezident İlham Əliyev ölkəmizi qlobal miqyasda tanınan nüfuzlu dövlətə çevirib*

**Beynəlxalq aləmdə nüfuzlu Lider kimi qəbul olunan Azərbaycan Prezidenti İlham Əliyevin xalqımız qarşısındakı xidmətləri, qlobal səyləri, yenilməz iradəsi, qətiyyəti və digər yüksək şəxsi keyfiyyətləri ölkəmizin əldə olunan nailiyyətlərini təmin edən mühüm amillərdir. Dövlətimizin başçısının beynəlxalq arenadakı fəaliyyəti Azərbaycanı qlobal miqyasda tanınan nüfuzlu dövlətə çevirib.**

Prezident çoxsaylı beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq yaradaraq Azərbaycanın mənafeyini beynəlxalq səviyyədə uğurla müdafiə edir. 2003-cü ildən bəri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər qurumlarda öz mövqeyini daha da gücləndirib. Xüsusən də, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Prezident İlham Əliyevin liderliyi qlobal həmrəyliyin təmin olunmasına mühüm töhfələr verib. Balanslı və çevik xarici siyasət yürüdən Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi enerji diplomatiyası ölkəmizi Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevirib. Xəzər dənizindən Avropaya enerji tədarükü üzrə layihələr, o cümlədən TANAP və TAP boru kəmərləri bu siyasətin uğurlu nəticələridir.

Prezident İlham Əliyevin daxili siyasəti isə xalqa xidmət və rifahın artırılması prinsipinə əsaslanır. Onun rəhbərliyi ilə ölkədə sosial islahatlar, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması və infrastrukturun inkişafı sahələrində çoxsaylı layihələr həyata keçirilib. Hər il olduğu kimi cari ilin ötən dövründə də Azərbaycanın iqtisadiyyatında ciddi artım müşahidə edilib, yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azalıb, işğaldan azad edilmiş ərazilərimizdə bir sıra şəhər və kəndlərimiz yenidən qurulub və bu proses hazırda uğurla davam etdirilir.

*(ardı 6-cı səhifədə)*



# İsveçrə səhvini düzəltdi

*Bununla həm də neytrallığını qoruyub saxlamış oldu*



**Avropanın göbəyində yerləşən bu ölkə iki əsrdir ki, neytrallığını qoruyub saxlayır. Bu statusu ona xüsusi hörmət və etimad gətirib. Amma məlum olur ki, yalançı fəryadları, "əzabkeş" moizələri ilə Fransa başda olmaqla Avropanın bir çox ölkələrini və xalqlarını zinhara gətirmiş haylar sonda bu neytral məmləkətə – İsveçrəyə də yol tapa biliblər. Bəs, dünyada özünü əbədi bitərəf ölkə sayan İsveçrə nədən erməni məsələsində tərəf saxlamaq qərarına gəlmişdi? Sualımızı ona görə keçmiş zamanda veririk ki, ermənilərin bu siyasi avantürası baş tutmadı.**

Əvvəlcə onu deyək ki, bu günlərdə İsveçrə parlamentinin aşağı palatası "Dağlıq Qarabağ"la bağlı qətnamə layihəsinin müzakirəyə çıxarılması barədə qərar qəbul etmişdi. Senatın "Dağlıq Qarabağ: Sülh Konfransı" adlı qətnamə layihəsinin müəllifi deputat Erix Fontobel idi. Ölkənin xarici işlər naziri İqnasio Kassisin də iştirak etdiyi müzakirələrin sonunda qətnamənin lehinə 96, əleyhinə 80 nəfər səs verib, 16 nəfər isə bitərəf qalıb.

Beləliklə, erməni lobbiçilərin Avropanın neytral ölkəsində anti-Azərbaycan təxribatı baş tutmadı. İsveçrənin baş diplomatı İqnazio Kassis parlamentin Aşağı Palatasının "Dağlıq Qarabağ" mövzusunda "beynəlxalq konfrans" çağırmaq təşəbbüsünü rədd edib.

**(ardı 3-cü səhifədə)**




# Oskanyanın Qarabağ və Zəngəzur dəhlizi sancısı

## *Ermənistanın keçmiş XİN rəhbəri niyə sayıqlayır?*

**Prezident İlham Əliyevin dekabrın 17-də "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsinin Ermənistanda geniş ajiotaj doğurduğu məlumdur. O da məlumdur ki, ajiotaj isterik yanaşmalarla müşayiət olunmaqdadır.**

Hayların bəziləri qorxu içərinsindədir, bəziləri revanşa səsləyir, Azərbaycana qarşı tədbirlərin görülməsinin vacibliyindən dəm vurur, bəziləri isə ümumiyyətlə, nə danışdıqlarının fərqinə varmırlar. Əlbəttə, sonuncuların da öz "məqsədləri" var. Sadəcə, məqsədlərinə çatmaq üçün etdikləri sərsəmliklərə təəccüb edirsən. Sərsəmləmək baxımından söhbət Vardan Oskanyan adlı məxluqdan gedirsə, təəccüb ikiqat artır və sual yaranır: Necə olub ki, belə gerizəkalı zat on il Ermənistanın xarici işlər naziri işləyib?

Digər tərəfdən isə təəccüblənmirik. Çünki Ermənistan adlı dövlət quramadırsa, ona xarici işlər naziri ümumiyyətlə lazım deyildi. Axı ölkənin haradan və hansı tərzdə əmrlər aldığı məlum idi, indi də məlumdur. Məsələyə mövcud prizmadan yanaşsaq, V.Oskanyanın XİN rəhbəri postunu tutması hansısa fövqəladəlik sayıla bilməzdi. Yəni, sayıqlamalarından başqa heç bir keyfiyyəti olmayıb ki, adam ona görə irəli çəkilsin. Əlbəttə, sırtıqlığı çıxmaq şərtilə. Görünür, bu xüsusiyyətin özünü tam mənada göstərməsi üçün onu tutduğu postdan uzaqlaşdırmaq yetərli imiş. Necə deyərlər, Vardanın abrını azmaz vəzifəsi örtürmüş.

*(ardı 4-cü səhifədə)*

# Dostluğa xəyanət edən Makron rejimi oldu

**Özünü dünyaya sülh və demokratiya carçısı kimi təqdim edən, milli devizi "azadlıq, bərabərlik, qardaşlıq" olan Fransanın Azərbaycanla bağlı olduqca destruktiv siyasət yürütməsi günümüzün acı reallığıdır. Bir vaxtlar yüksələn xətt üzrə inkişaf edən Fransa–Azərbaycan münasibətlərinin indiki səviyyəyə gəlib düşməsi bilavasitə prezident Emmanuel Makronun "xüsusi xidmətlərinin" nəticəsidir. Məhz onun 2017-ci ildə dövlət başçısı seçilməsindən sonra əlaqələr pisləşməyə doğru getdi. Ancaq, necə deyərlər, qırılma nöqtəsi Azərbaycanın 2020-ci ildə öz ərazi bütövlüyünü bərpa etmək üçün apardığı Vətən müharibəsi oldu. Fransa hakimiyyəti müharibənin ilk günlərindən etibarən maskasını çıxararaq atdı və açıq-aşkar Ermənistanın tərəfini tutdu.**

**(ardı 4-cü səhifədə)**



# Gürcüstan öz yoluna davam edir



Səhifə ⇨ 11

# Mətbuat fədaisi



Səhifə ⇨ 9

# AİB rəqəmsal quruma kredit verib




Səhifə ⇨ 8

# Almaniya Federativ Respublikasının Prezidenti Zati-aliləri cənab Frank-Valter Ştaynmayerə

**Hörmətli cənab Prezident,**

Maqdeburq şəhərindəki Milad yarmarkasında baş vermiş faciəli hadisə nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Almaniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 dekabr 2024-cü il**

# Heydər Əliyev Fondunun vitse-prezidenti Keniyada



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Nayrobi şəhərində Keniya Respublikasının Prezidenti Uilyam Samoei Ruto ilə görüşüb. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Keniya Prezidentinə çatdırıb.**



Görüşdə iki ölkə arasında əlaqələr, o cümlədən, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə müxtəlif sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub. İkitərəfli əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayan Leyla Əliyeva fondun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində həyata keçiriləcək layihələrin əhəmiyyətini qeyd edib. Təhsil, səhiyyə, ətraf mühitin qorunması, iqlim dəyişikliyi ilə mübarizə və mədəniyyət sahələrində layihələrin, habelə təhsil üzrə mübadilə proqramlarının həyata keçiriləcəyini, incəsənət nümunələrinin beynəlxalq layihələrdə birgə təqdimatı üzrə əməkdaşlıq ediləcəyini bildirib.

Keniya Prezidenti ölkəmizin noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurla ev sahibliyi etdiyini deyib. Azərbaycan ilə Keniya arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin dinamik inkişafından məmnunluğunu ifadə edib. O, iqlim fəaliyyəti, enerji, ticarət və sərmayələr, turizm, təhsil və digər sahələr daxil olmaqla, müxtəlif istiqamətlərdə əməkdaşlığı inkişaf etdirmək və tərəfdaşlığı genişləndirmək üçün böyük potensialın olduğunu bildirib. Dövlət səviyyəsində, o cümlədən, Heydər Əliyev Fondunun dəstəyi ilə təhsil, mədəniyyət, səhiyyə və digər humanitar sahələrdə həyata keçirilən layihələrin əlaqələrin inkişafında mühüm rol oynadığını vurğulayıb.



Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Keniya Respublikasının Prezidenti Uilyam Samoei Rutoya ölkəmizə səfərə dəvət məktubu təqdim edilib.

Prezident Ruto dəvətə görə təşəkkür edib, onu məmnuniyyətlə qəbul etdiyini bildirib.

* * *

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva dekabrın 21-də Keniya paytaxtında bu ölkənin qədim təhsil ocağı olan Nayrobi orta məktəbinə baş çəkib.

Məktəbdə fondun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində avadanlıqlarla təchiz edilmiş laboratoriya və kompüter sinfinin açılışı olub.

Sonra Leyla Əliyeva şəhərdəki Kangemi Tibb Mərkəzində yeni doğulan uşaqlar üçün bölmə ilə tanış olub. Mərkəzə və analara Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib.

***XQ***

# Qərbi Azərbaycan İcması hesabat verib

**Dünən Qərbi Azərbaycan İcmasının 2024-cü ilin yekunlarına dair ümumi yığıncağı keçirilib.**

Toplantıda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev siyasi və hüquqi əsası ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Qərbi Azərbaycan məsələsinin Prezident İlham Əliyevin qətiyyəti nəticəsində dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyini qeyd edib. O, 2022-ci il dekabrın 24-də dövlət başçısının Qərbi Azərbaycandan olan ziyalılarla tarixi görüşünün Qərbi azərbaycanlılarda doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtmaq inamını yaratdığını bildirib.





Ə.Vəliyev Qayıdış Konsepsiyasının İcmanın fəaliyyətinin əsasını təşkil etdiyini, bu konsepsiyaya uyğun olaraq ölkə daxilində və xaricdə genişmiqyaslı işlər görüldüyünü deyib. Administrasiya rəsmisi dövlətimizin başçısının tədbir iştirakçılarına müraciət ünvanlamasını və icmanın bir qrup fəal üzvünü təltif etməsini növbəti tarixi hadisə kimi səciyyələndirib, 10 ölkədən 16 nəfərin icmanın fəxri üzvlüyünə qəbul edilməsinin önəmini vurğulayıb.

İcmanın İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov idarə heyətinin və aparatını hesabatını təqdim edib. O bildirib ki, il ərzində icmanın çoxşaxəli fəaliyyətinin əsas məqsədi soydaşlarımızın öz doğma yurdlarına qayıdışı, indiki Ermənistan ərazisində dağıdılan tarixi-mədəni abidələrimizin qorunması, deportasiyalar nəticəsində ciddi zərər görmüş qeyri-maddi mədəni irsimiz üçün ədalətin təmin edilməsi olub. Natiq bundan sonra da soydaşlarımızın təməl hüquqlarının təmin olunması istiqamətində fəaliyyətlərini daha da genişləndirəcəyini deyib, bu işdə İcmanın fəaliyyətinə dəstək olan bütün qurumlara təşəkkürünü bildirib.



İcmanın nəzarət-təftiş komissiyasının sədri, professor Vahid Novruzov, müşahidə şurasının sədri Misir Mərdanov, ağsaqqallar şurasının sədri Əhliman Əmiraslanov, ziyalılar şurasının sədri Elxan Hüseynov, qadınlar şurasının sədri Məlahət İbrahimqızı, gənclər şurasının sədr müavini Kamal Cəfərov hesabatlarını təqdim edib, iştirakçıların suallarını cavablandırıblar.

Daha sonra Ədalət Vəliyev İcma üzvlərindən Prezident İlham Əliyevin sərəncamları ilə "Şöhrət" ordeni ilə təltif olunmuş Fikrət Əliyevə, 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuş İsmət Abbasova, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunmuş Dilarə Seyidzadəyə və Vaqif Şadlinskiyə, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüş Həsən Həsənova mükafatları təqdim edib.

***XQ***

# Ermənistan rəhbəri soydaşlarımızın qayıdış hüququnu tanımalıdır

**Ermənistanın Baş naziri Nikol Paşinyan "Armenpress" mətbuat orqanına bu günlərdə verdiyi müsahibəsində Ermənistan və Azərbaycan arasındakı ikitərəfli münasibətlərə və Qərbi Azərbaycan məsələsinə dair bir sıra zərərli və həqiqətə uyğun olmayan fikirlər səsləndirib.**

Qərbi Azərbaycan İcmasının bununla bağlı bəyanatında deyilir ki, Ermənistan baş nazirinin Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdış məsələsini ərazi iddiası kimi təqdim etməyə çalışması və "Qərbi Azərbaycan" ifadəsinə irad tutması tamamilə əsassızdır: "Vurğulamaq lazımdır ki, azərbaycanlıların əsrlərlə yaşadığı və Ermənistan tərəfindən total etnik təmizləməyə məruz qaldığı keçmiş İrəvan xanlığı, Zəngəzur və digər bölgələri əhatə edən "Qərbi Azərbaycan" ifadəsi həmin məkanda yaşamış azərbaycanlıların özünüidentifikasiya hüququ çərçivəsində istifadə etdikləri və tarixi həqiqətlərə söykənən bir termindir. Qərbi Azərbaycan İcması qayıdış hədəfinə sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət çərçivəsində nail olmaq üçün çalışır. Bu baxımdan, icmanın Ermənistan hökumətinə rəsmi şəkildə müraciət edərək dialoq təklif etməsi xüsusilə qeyd edilməlidir".

Bəyanatın davamında qeyd edilir ki, Ermənistan hökuməti tərəfindən etnik təmizləmə, ayrı-seçkilik, mülkiyyət və digər hüquqlarının pozulmasına məruz qalmış Qərbi azərbaycanlıların ilk addımı ataraq dialoqa təşəbbüs etməsi onların barışıq və sülh yolunu tutduğunu göstərir. Ermənistan hökumətinin icmanın dialoq təklifini cavabsız qoyması isə təəssüf doğurur.

Açıqlamanın sonunda apardığı silahlanma siyasətini suveren seçim kimi izah etməyə çalışan N.Paşinyana xatırladılır ki, revanşist və radikal ideologiyanın dərin kök saldığı Ermənistan hərbi güclə məsuliyyətlə davranmağı bacarmır: "Ermənistanın aqressiv keçmişi nəzərə alınmaqla onun sərbəst şəkildə silahlanmasına yol vermək olmaz. N.Paşinyanın Ermənistan Konstitusiyasında əks olunmuş ərazi iddiasını aradan qaldırmaqdan imtina etməsi, hələ bu azmış kimi, guya, Azərbaycan Konstitusiyasında Ermənistana qarşı ərazi iddiasının yer almasını bildirməsi onun sülh müqaviləsini imzalamaqda maraqlı olmadığını göstərir.

Qərbi Azərbaycan İcması Ermənistan hökumətindən qayıdış hüququna hörmət etməyi, silahlanma siyasətinə dərhal son verməyi və ərazi iddiasını əsas sənədlərindən çıxarmağı tələb edir".

***XQ***

# Diaspor qurumlarının Roma görüşü

**İtaliyanın paytaxtı Romada mədəniyyət naziri Adil Kərimlinin iştirakı ilə Azərbaycanın xaricdə fəaliyyət göstərən mədəniyyət mərkəzlərinin hesabat toplantısı keçirilib.**



Toplantıda Azərbaycanın Avstriyadakı Mədəniyyət Mərkəzinin direktoru Leyla Qasımova, direktor müavini Elgün Niftəliyev, Türkiyədəki mərkəzin direktoru Samir Abbasov, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli, mərkəzin direktor müavini Nadir Əlimirzəyev, Almaniyadakı mərkəzdən direktor müavini İsa Məmmədov və ölkəmizin Fransadakı səfirliyinin müşaviri Nigar Hüseynova iştirak ediblər.

Yığıncağın məqsədi xarici ölkələrdəki Azərbaycan Mədəniyyət mərkəzlərinin fəaliyyətinin əlaqələndirilməsi, 2023–2024-cü illərə dair hesabatların dinlənilməsi və 2025-ci il üzrə fəaliyyət planlarının müzakirəsi olub.

Toplantıda qeyd olunan dövr üzrə hesabatlar dinlənilib, həyata keçirilən layihələr müzakirə edilib. Mərkəzlərin qarşıdakı ilə dair fəaliyyət istiqamətləri, nəzərdə tutulan tədbir və layihələrlə bağlı fikir mübadiləsi aparılıb.

***XQ***

# 49 ailənin də Şuşa həsrəti bitdi



**Dünən növbəti köç karvanı ilə Şuşa şəhərinə çatan 49 ailəyə yeni mənzillərinin açarları təqdim olunub. Bununla 191 nəfər də doğma yurduna qovuşub.**

Şuşaya daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzillər verilib. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Xatırladaq ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, keçmiş məcburi köçkünlərlə yanaşı, bölgədə aparılan layihələrin icrasında çalışan, ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən və xidmət sferasında çalışan 30 minə yaxın insan yaşayır.

***XQ***

# Prezident Baydenin Qafqazda “unutduğu” reallıqlar

## *Qərb Azərbaycanın “sabitlik adası”na çevrilməsini niyə istəmir?*

**Hər şey hamıya gün kimi aydındır. 44 günlük müharibədən sonra regionda reallığı tamamilə fərqli müstəviyə tranformasiya edən Azərbaycanın qlobal proseslərə fəal qoşulması, hətta bu müstəvidə də təşəbbüsü ələ alması “kollektiv Qərb”in, ABŞ-nin siyasi dairələrində əməlli-başlı narahatlıq yaradıb. Onlardan ötrü iki qitənin qovşağında yerləşən Azərbaycanın nüfuzunun artması Qafqazdakı “strateji maraqlarına” zərbə vurur. Hələ də gündəmdən düşməyən transmilli layihə – Zəngəzur dəhlizi kimi perspektiv planı da bu narahatlığın üstünə gəlsək, ermənipərəst düşərgənin radikallaşmasının səbəbləri tam aydınlığa çıxar. Bütün bunlar, eləcə də digər amillər Ağ Evi Azərbaycana qarşı beynəlxalq hüquqa və diplomatik etiketə sığışmayan addımları ilə müşayiət olunmaqdadır.**







### Ağ Ev başqa Azərbaycan görmək istəyirdi

Qarşılıqlı münasibətlərdə qeyri-səmimi davranan tərəfin sevgisinin səmimiliyinə inanmaq çətindir. Xarici siyasətində ən çirkin diplomatik üsullara üstünlük verən rəsmi Vaşinqton son dörd ildə Bakıya qarşı “üzdə mələk, altda kələk” taktikasını var gücü ilə yeritməyə çalışdı. Dünyanın supergücü olması ilə fəxr etmiş, amma indiki çoxqütblü dünyamızda səsi kifayət qədər avazımış, nüfuzu aşağı düşmüş ABŞ-nin Azərbaycanı sevməsi üçün əlində heç bir “əsası” yoxdur. Axı, o, Ermənistandan fərqli olaraq, müstəqil siyasət yürüdən, yalnız milli maraqlarından çıxış edən, bölgəyə öz bayrağını sancmaq istəyən ABŞ-nin məkrli ssenarilərinə boyun əyməyən Azərbaycanı necə sevsin?! Azərbaycan hakimiyyəti 30 il işğal altında qalan torpaqlarını azad edəndə, öz ərazisində separatizmin kökünü kəsəndə, məgər Vaşinqtondan icazə almışdı? Almamışdı. Amma nəzərə almamışdı ki, Bayden adminstrasiyasının sevgi ünvanlarının statusu onun vassalı olmaqdan kənara çıxmamalıdır. İndi Azərbaycan bu “qırmızı xətti” keçmiş, onun oyun qaydalarını qəbul etməmiş “arzuolunmaz” ölkələrin siyahısındadır. ABŞ rəsmi Bakını ram etmək üçün hansı üsullara əl atmadı?! Aşkar hay sevdalısı Fransadan fərqli olaraq, özünün ermənipərəst mövqeyini pərdələməyə çalışan Ağ Ev son dörd ildə Azərbaycana qarşı çoxsaylı çirkin kampaniyaların başında dayandı. Fəqət heç vaxt istəyinə nail ola bilmədi.

Azərbaycan həmişə ABŞ-ni özünə etibarlı tərəfdaş sayıb. Rəsmi Vaşinqton isə yalnız sözdə özünü ölkəmizin yaxın müttəfiqi elan etdi. Bakının tam şəffaf və səmimi münasibətinin qarşılığında Vaşinqton qeyri-səmimi, ikiüzlü davrandı. Qarşısında “sevmək” istədiyi Azərbaycanı görməyəndə ona arxa çevirdi.

### Vaşinqtonun “bağda ərik” söhbəti

ABŞ-nin Qafqaza, xüsusilə də Azərbaycana münasibətdə sərgilədiyi mövqeyi bəzən anlaşılmaz xarakteri ilə diqqəti cəlb edir. Sanki, “supergüc”ün xarici diplomatiya idarəsinin başbilənləri İrəvanın taktiki gedişlərindən bəhrələnirlər. Yəni, onlar Qərbə xas olmayan “saman altından su yeritmək” üsuluna əl atırlar. Üzdə vasitəçi kimi Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında sülh danışıqlarına evsahibliyi edir, neytral aktor kimi bəyanatlar verir, arxada isə Qərbdəki tərəfdaşları ilə birləşib İrəvana təhlükəsizlik məsələləri ilə bağlı yardımlar ayırır. Son iki il ərzində Co Baydenin İlham Əliyevə ünvanladığı tərəflərin sülh təşəbbüslərindən məmnunluğunu ifadə etdiyi məktublarının sayını itirmişik. Ağ Evin Dövlət katibi Antoni Blinkenin cari ilin 7 ayında dövlətimizin başçısına 6 dəfə zəng vurması, telefon danışıqlarında səsləndirdiyi təqdirəlayiq fikirlərdən sonra ABŞ-nin Fransa ilə birləşib BMT-də Azərbaycana qarşı tutduğu mövqe arasında yerlə göy qədər fərq var.

“Biz eyni narahatlığı Fransa hökumətinə və Bayden administrasiyası dövründə Cənubi Qafqaz ölkələrinə balanslı yanaşmasını dəyişərək Ermənistana birtərəfli dəstək yolunu tutan Birləşmiş Ştatların rəhbərliyinə də çatdırırdıq. Təhdidlərin kifayət qədər ciddi olduğunu göstərən çoxlu misallar var”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü il iyulun 20-də II Şuşa Qlobal Media Forumundakı çıxışında bildirib.

Cənab Prezident son 4 il ərzində Antoni Blinkenin rəhbərlik etdiyi ABŞ Dövlət Departamentinin Azərbaycanın daxili işlərinə müdaxilə ilə məşğul olması səbəbindən sözügedən dövrün bir çox dönəmlərdə dostluq və əməkdaşlıq ilə yadda qalan Azərbaycan–ABŞ münasibətləri üçün itirilmiş illər kimi qiymətləndirib. Dövlətimizin başçısı forumda Azərbaycan–ABŞ əlaqələri, onun görünən və görünməyən tərəflərinə toxunaraq deyib: “Donald Trampın prezidentliyi dövründə bizim çox səmərəli əməkdaşlığımız olub. Bu əməkdaşlıq qarşılıqlı hörmət üzərində qurulmuşdu və qarşılıqlı dəstəyin yüksək qiymətləndirilməsindən ibarət idi. Bizim ABŞ ilə münasibətlərimiz demək olar ki, hər zaman sabit olub. Əlbəttə ki, müəyyən enişli-yoxuşlu dövrlər olub və o da bizim günahımız deyildi. Çünki bəzən Azərbaycanla bağlı müəyyən şişirdilmiş gözləntilər olub. Digər tərəfdən, onlar bizim siyasi həyatımıza müdaxilə etməyə çalışıblar, siyasi müxalifəti maliyyələşdirmək cəhdləri ediblər. Bu cəhdlər birbaşa və ya müəyyən QHT-lər vasitəsilə olub”.

Dövlət başçımız çıxışında Əfqanıstan əməliyyatlarında Azərbaycanın ilk qeyri-NATO ölkəsi kimi ABŞ-yə verdiyi dəstəyi də yada salıb: “Ölkəmiz Əfqanıstanda həmin əməliyyatlara qoşuldu və oradan sonuncu çıxdı. ABŞ qoşunları ölkəni tərk edəndə, daha dəqiq desək, oranı qoyub qaçanda biz hələ də orada idik. Biz Türkiyənin Silahlı Qüvvələri ilə birlikdə hava limanını tərk edən sonuncu ölkələr olduq. Bu idi bizim tərəfdaşlığımız. Əfqanıstanla bağlı onların bizə ehtiyacı var idi. Mən xatırlayıram ki, ABŞ-nin yüksəkrütbəli məmurları və nəqliyyat komandanlığı, Müdafiə Nazirliyinin nəqliyyat komandanı Azərbaycana dəfələrlə gəlirdilər və bizə minnətdarlıq bildirirdilər ki, Azərbaycan “Şimal şəbəkə” adlandırılan bir dəhliz idi və biz onun tərkib hissəsi idik. Ancaq Əfqanıstanda missiya başa çatdıqdan sonra onların etdikləri nə oldu? Yenidən bizə qarşı sanksiyanı bərpa etdilər. 907-ci düzəlişdən danışıram. Həm də heç bir məntiqi əsaslandırma və izah təqdim etmədən. Bu da onların bizə təşəkkürü. Uzun illər onlar üçün etdiklərimizin, yaxşı tərəfdaş olduğumuzun müqabilində Azərbaycan xalqı bu administrasiya haqqında nə düşünə bilər?”

Söhbət Bayden administrasiyasından gedir. Azərbaycana qarşı, necə deyərlər, “Bağda ərik var idi, salam-əleyk var idi, bağda ərik qurtardı, salam-əleyk qurtardı” məntiqi ilə hərəkət edən bu administrasiya postsovet məkanındakı bütün respublikalara, o cümlədən, Azərbaycana yuxarıdan aşağı baxırdı.

### İnsan haqlarının saxta ixracatçısı

Ağ Evin “azadlıq və demokratiya ixracı” pərdəsi altında Afrikaya, müsəlman dünyasına gətirdiyi savaşları, məhrumiyyətləri görürük. ABŞ-nin, əslində, müasir müstəmləkəçilik siyasəti yeritdiyini görmək üçün siyasi savada ehtiyac yoxdur. O cümlədən, insan haqları kontekstində, demokratiya şüarı altında sırıdıqları “məhsul” heç də ixraca yaramır. Onlar bir şeyi unudurlar ki, Azərbaycan güclü dövlətdir və özünün suverenlyini qoruyur, onun qayğısını çəkir. Bu isə onların xoşlamadığı presedent yaradır. Vaşinqtonun vaxtaşırı Bakını sıxışdırmaq, ona problem yaratmaq məqsədilə verdiyi bəyanatlar, Dövlət katibi Blinkenin müavini Ceyms O'Braynın məlum canfəşanlığı, onun Azərbaycana səfəri və burada aldığı layiqli cavabı xatırlatmaq yerinə düşər.

Planetin “baş arbitri” roluna iddialı olan ABŞ Dövlət Departamentinin hər il açıqladığı dünyada dini azadlıqların vəziyyətinə dair hesabatlarında Azərbaycanla bağlı həqiqətdən uzaq iddialar öz əksini tapır. Bunun açıq-aşkar qərəzli mövqe olduğu hər kəsə bəllidir. Çünki həmin “məruzələrdə” hayların barbarlığı barədə bir cümləyə deyil, bir sözə də rast gəlmək mümkün deyil. Həmin hesabat və məruzələr ikiüzlü Ağ Evin yalanlarının və məkrli diplomatik gedişlərinin, Bakıya təhdidlərinin göstəricisidir.

Cari il dekabrın 10-da Beynəlxalq İnsan Haqları Günü münasibətilə ABŞ Dövlət Departamentində “tanınmış” insan haqları müdafiəçilərinə mükafatlar təqdim olundu. Azərbaycana qarşı siyasi təzyiqlərin Ağ Ev səviyyəsində koordinasiya edildiyini yaxşı bilirik. Bu qeyri-demokratik, ermənipərəst kampaniyanın başında şəxsən Dövlət katibinin dayandığına da şübhəmiz yoxdur. “Kollektiv Qərb”in, haypərəst səlibçilərin insan haqlarını əllərində bayraq edərək Azərbaycanın üstünə yerimək cəhdləri daha bizi təəccübləndirmir.

Əgər rəsmi Vaşinqton sülh təşəbbüsləri adı altında Bakıya “insan haqları, siyasi məhbuslar” ritorikası ilə siyasi təzyiq göstərmək cəhdlərindən əl çəkməyibsə, bu, artıq Baydenin və onun komandasının problemidir. Bir aydan sonra onlar bu qayğılardan, eləcə də erməni diasporunun şantajından canlarını qurtarıb, “rahat nəfəs alacaqlar”.

### Etibarsız “demokratlar”

“Biz hazırkı ABŞ administrasiyasının fəaliyyətindən, hərəkətlərindən dərindən məyus olmuşuq. Bu, birtərəfli yanaşmadır. Qafqazda ayırıcı xətlərin çəkilməsi olduqca təəccüblüdür. Bildiyiniz kimi, ABŞ Dövlət katibi, Avropa Komissiyasının prezidenti və onların bir növ xarici işlər naziri hesab edilən ali komissarı Brüsseldə görüşdülər. Bu görüşdə onlar Ermənistanın hərbi baxımdan maliyyələşdirilməsi məsələsini müzakirə etdilər. Onlar hərbi sahədə maliyyə ayırmaq məqsədini güdürlər və bu, bizim üçün tamamilə qəbuledilməzdir”.

Prezidentin İlham Əliyev beş ay bundan əvvəl II Şuşa Qlobal Media Forumunda ABŞ-nin Azərbaycanın maraqlarını görməzdən gəlməyə çalışmasını da vurğulayıb: “Biz əlbəttə ki, ABŞ-də prezident seçkilərinin nəticələrindən asılı olmayaraq anti-Azərbaycan fəaliyyətin bir hissəsi prezident seçkiləri ilə bağlıdır. Onlar ermənilərin səslərini qazanmaq istəyirlər. Ona görə də zənnimcə, məqsəd məhz elə bundan ibarət idi. Mən tamamilə obyektiv olmağa çalışıram. Ümid edirəm ki, seçkidən sonra ABŞ-də və Avropada Azərbaycan haqqında, bizim potensialımız, rolumuz haqqında daha yaxşı anlayış olsun. Yəni, biz şou qurmuruq, öyünmürük. Biz bilirik potensialımız nədən ibarətdir və bunu bizimlə əməkdaşlıq edən hər kəs bilir. Bu potensialdan xoş niyyət, xoş məram, konsolidasiya, tərəfdaşlıq üçün istifadə edilməlidir və biz demonizasiya qurbanı olmamalıyıq”.

On üç il əvvəl “Ərəb baharı”nı alovlandıran, amma sonda istəyinə nail ola bilməyən ABŞ Azərbaycanda da “çevriliş” cəhdlərinin ilhamvericisi və sponsoru kimi çıxış edib. Təkcə Yaxın Şərqdə deyil, Latın Amerikasında, Afrikada müstəqil siyasət yürüdən dövlətlərdə milli hakimiyyətlərə qarşı iğtişaşlar təşkil edən, qarşıdurmaya və qanlı toqquşmalara rəvac verən Vaşinqton eyni ssenarini Cənubi Qafqazda da sınaqdan keçirməyi düşünürdü. Amma alınmadı. Bayden administrasiyasının erməni lobbisinin təşkil etdiyi anti–Azərbaycançı şəbəkəyə hər cür dəstək verməsi də eyni məqsədə xidmət edirdi. Ağ Evin ideoloqlarının ölkəmizdə “QHT” çətiri altında fəaliyyət göstərən qeyri-milli, destruktiv qüvvələri davamlı olaraq Azərbaycanın dövlət maraqlarına qarşı çıxmağa, daxildə çaxnaşma salmağa sövq etmələri də sübuta yetirilmiş həqiqətdir.

Bu gün Azərbaycandakı daxili sabitlik, ölkəmizin artan nüfuzu dünya dövlətlərinin, xüsusən də böyük investorların ölkəmizə olan diqqətini daha da artırır. Bütün bu reallıqları şərtləndirən Prezident İlham Əliyevin siyasi iradəyə və humanizm prinsiplərinə əsaslanan siyasətidir. Məhz Azərbaycan Prezidentinin yürütdüyü tam müstəqil siyasət ölkəmizi dünyada etibarlı tərəfdaş kimi tanıdıb. Azərbaycana qarşı təşkil olunan məkrli oyunların, “qara piar” kampaniyalarının səbəbi də məhz budur. Bizim uğurlarımıza sevinməyi bacarmayan qüvvələr çirkin əməllərindən əl çəkmək istəmirlər. Fəqət, onlarınn “siyasi texnologoyaları” daha işə yaramır. Ona görə ki, İlham Əliyevin memarı olduğu qüdrətli Azərbaycan istənilən xarakterli təzyiq və təhdidlərin qarşısını almağa qadirdir. Dövlət başçımızın dediyi kimi, “bu gün dünyada elə bir qüvvə yoxdur ki, hanısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki, mən Prezidentəm, belə qüvvə olmayacaqdır”.

İndi dünyanın Azərbaycanla hesablaşdığı dönəmdə Vaşinqtonun xarici siyasətində korrektələr etmək zəruriliyini anlaması lazımdır. Məsələyə məhz bu bucaq altından yanaşanda əminliklə deyə bilərik ki, son dörd ildə Fransanın “Qara qitə”də üzləşdiyi və haqq etdiyi uğursuzluq zolağını Bayden administrasiyası Qafqazda davam etdirdi. İnanmaq istərdik ki, Ağ Evin yeni sahibi – respublikaçı Donald Tramp supergücün son dörd ildə xarici siyasətdə, xüsusilə Qafqaza münasibətdə yol verdiyi yanlışlıqları təkrarlamayacaq, əksinə, ölkə diplomatiyasını Baydenin saldığı “Bermud üçbucağı”ndan dartıb çıxarmağı bacaracaqdır.

***İmran BƏDİRXANLI***
***XQ***

---

# İsveçrə səhvini düzəltdi

**(əvvəli 1-ci səhifədə)**

Bu məqamda qeyd etmək istərdik ki, İsveçrə ilə Azərbaycan arasında bütün sahələrdə münasibətlər yüksələn xətlə inkişaf edir. Azərbaycanın neytrallığı ilə fəxr edən, rəsmi dörd dildə danışan bu ölkə ilə iqtisadi, siyasi, ticari, diplomatik və mədəni sahələrdə ciddi əməkdaşlıq əlaqələri mövcuddur. Bu gün əgər İsveçrə parlamentinin Aşağı Palatasında “Dağlıq Qarabağ: Sülh Konfransı” adlı qətnamə qəbul edilibsə, deməli, iki ölkə arasında münasibətlərə yenidən baxılmasına ehtiyac yaranıb. Həmin ehtiyacı xarici işlər naziri məlum jesti ilə təsdiqləmiş oldu.

Məsələnin bir qədər geniş izahına ehtiyac duyuruq. Deməli, isveçrəli bəzi parlamentarilər hökumətə Qarabağı könüllü olaraq tərk etmiş ermənilərin geri qaytarılması ilə bağlı müzakirələrin aparılması məqasədilə 2025-ci ildə konfrans keçirmək təklifini irəli sürüblər. Artıq qeyd etdiyimiz kimi, hökumət bu təklifi rədd edib. Bununla bağlı xarici işlər naziri İqnazio Kassis açıqlama yayıb: “Nə Ermənistan, nə də Azərbaycan “sülh forumu” istəyir. Ona görə də belə bir konfransın keçirilməsi münasib sayılmır, hətta onun əks-effekti ola bilər”.

Siyasi məntiq bizə onu deyir ki, demokratik elementləri olan federal məclis – müstəqil direktor respublikası sayılan İsveçrə parlamentinin aşağı palatasında



Azərbaycan əleyhinə qəbul edilmiş qətnamə layihəsində yer almış şər-böhtan xarakterli iddialar, hansısa “sülh forumunun çağırılması” kimi cəfəng çağırışlar ona səs verənlərin neytral mövqedən deyil, fərqli maraqlardan çıxış etdiklərini göstərir. Onların Avropa İttifaqının adlarına mülki müşahidəçilər deyilən, əslində, Ermənistanla Azərbaycanın şərti sərhədində kəşfiyyatla məşğul olan fransız-alman missionerlərdən təlimat aldıqları istisna edilmir. Yəni, bir qisim deputat şərti sərhədin o üzündən Azərbaycan tərəfə binoklla baxan təxribatçı diplomatlarla birlikdə hərəkət etməyə cəhd göstəriblər. Axı, bunlar da onlar kimi fransız və alman dillidirlər. İndi xarici işlər nazirinin onlarla iki dildə izahat işi apardığını güman edirik.

Onu da bildirək ki, qətnamə layihəsini dəstəkləyən, siyasi cəhətdən korəfəhm deputatların ermənilərin Qarabağa qayıdışını qabartdıqları zaman Qərbi azərbaycanlıların hüquqlarını “unutmaları” təəccüb doğurmamalıdır. Çünki onlardan ötrü əzabkeş ermənilərin yalanlarına inanıb onların hallarına yanmaları, təəssüblərini çəkmələri təbii hisslərdir. Məgər onların eynilə “miatsumu” tanıyan Avropanın bəzi haypərəst parlamentariləri kimi 109 il əvvəl Anadoluda nələrin baş verdiyindən xəbərləri var?! Sadəcə, küyə düşüb getmək istədilər, yaxşı ki, yarı yoldan qaytardılar...

***İ.HƏSƏNQALA***
***XQ***

# Dostluğa xəyanət edən Makron rejimi oldu

(əvvəli 1-ci səhifədə)

Sözsüz ki, rəsmi Paris həmin vaxtadək də ermənipərəst siyasət yürüdürdü. Bu ölkənin siyasi isteblişmentində hər zaman azərbaycanofob, türkofob və islamofob düşüncələr hakim idi. Fransa BMT Baş Assambleyasında Azərbaycanın ərazi bütövlüyü ilə bağlı keçirilən səsvermələrdə ölkəmizin əleyhinə səs verirdi. Halbuki, ən azı bitərəf qalması da mümkün idi. Amma Parisin anti-Azərbaycan fəaliyyəti bu səviyyədə deyildi. Digər tərəfdən ATƏT-in keçmiş Minsk qrupunun həmsədr dövlətlərindən biri olması Fransanı müəyyən mənada cilovlayır, onu formal da olsa, bitərəf olmağa sövq edirdi. Fransa hər zaman keçmiş Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı status-kvonun olduğu kimi qalmasına çalışırdı. Ancaq Azərbaycan Ordusunun status-kvonu dağıtması, torpaqlarımızın işğaldan azad olunması üçün Zəfər yürüşünə başlaması Parisin əsl simasını üzə çıxardı.



Vətən müharibəsinin ilk günlərindən etibarən Fransa siyasi, diplomatik və media müstəvisində Azərbaycana qarşı total hücuma başladı. Fransanın dövlət başçısı Minsk qrupunun digər həmsədrləri ilə birgə oktyabrın 1-də hərbi əməliyyatların dayandırılmasına çağırış etdi. Ancaq bu çağırışlar, haqlı olaraq, nəzərə alınmadı. Həmsədrlər bu məsələni iki dəfə BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarmağa çalışdılar. Hər iki halda TŞ-nin qeyri-daimi üzvləri olan Azərbaycanın Qoşulmama Hərəkatındakı müttəfiqləri bədnam təşəbbüslərin qarşısını aldılar.

Makron hərbi əməliyyatları dayandırmaq məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevə dəfələrlə zəng etdi. Dövlətimizin başçısı mövqeyindən geri çəkilməyərək telefon zəngləri zamanı ölkəmizin prinsipial mövqeyini çatdırdı. Məlumdur ki, bu mövqe Ermənistan ordusunun işğal etdiyi ərazilərdən çıxarılması ilə bağlı vaxt cədvəlinin verilməsindən ibarət idi.

Buna paralel olaraq, Fransa mediası 2020-ci il sentyabrın sonlarından etibarən, ölkəmizə qarşı çirkin təbliğata başladı. Azərbaycanın, guya, Suriyadan muzdlu döyüşçülər gətirməsi ilə bağlı məhz Fransa mediası – “Figaro” və “Le Monde” qəzetləri tərəfindən ünvanımıza böhtanlar atıldı. Amma bunlar heç bir nəticə vermədi və bütün maneələrə baxmayaraq, ordumuz başladığı işi uğurla sona çatdırdı.

Müharibədən sonra Azərbaycan qalib ölkə kimi Ermənistana barışıq əli uzadaraq sülh bağlamağı, necə deyərlər, yaranmış boşluğu doldurmağı təklif etdi. Fransa isə səhvlərindən nəticə çıxarmaq, regionda sülhün bərqərar olmasına töhfə vermək əvəzinə əvvəlki siyasətini davam etdirdi. Hətta, daha qızışdırıcı mövqe tutmağa, BMT TŞ-də Qarabağ məsələsini müzakirəyə çıxarmağa dalbadal cəhdlər göstərməyə, Ermənistanı öldürücü silahlarla təchiz etməyə başladı. Ermənistan–Azərbaycan şərti sərhədində Avropa İttifaqının “mülki müşahidəçiləri”nin yerləşdirilməsində Fransanın xüsusi canfəşanlıq etdiyi danılmaz faktdır. Parisin atdığı bir sıra digər təxribatçı addımlar son nəticədə Fransa–Azərbaycan münasibətlərində indiki gərgin vəziyyətə gətirib çıxardı.

Yaranmış durumun məhz Fransanın yürütdüyü destruktiv siyasətdən qaynaqlandığını Prezident İlham Əliyev dekabrın 17-də “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru, “Rossiya-1” televiziya kanalında “Vesti nedeli” proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsində aydın şəkildə əks etdirdi. Dövlətimizin başçısı bildirdi ki, prinsipcə, bizim Fransa ilə heç vaxt problemimiz olmayıb: “Hətta deyərdim ki, Fransa ilə hər hansı Avropa ölkəsindən daha çox əməkdaşlıq edirdik. Bu, Fransada Makronun hakimiyyətə gəlişinə qədər idi. Mənim atam 1993-cü ildə Prezident seçildikdən sonra ilk rəsmi səfərini Fransaya edib. Çünki onlar birinci olaraq onu dəvət edirdilər. Mən Prezident olduqda, 2003-cü ildə, həmçinin ilk ölkə olaraq Fransadan dəvət aldım və birinci səfərim bu ölkəyə oldu. Sonra biz fəal əməkdaşlıq edirdik, burada çoxlu fransız şirkəti işləyirdi. Bizdə Fransanın 13 şəhəri ilə qardaşlaşmış şəhərlər var. Amma bu əndazəsiz iddialar və Makron hökumətinin əsassız olaraq özünü böyük sayması bütün bunları uçuruma yuvarlatdı. Çünki İkinci Qarabağ müharibəsi başlayanda onlar açıq şəkildə işğalçıların tərəfini tutdular...”

Dövlətimizin başçısı Fransanın müstəmləkə ərazilərində törətdiyi əməllərdən faktlarla bəhs etdi. Parisin neokolonial siyasətinin ifşasının daha dərin xarakter daşıdığını bildirdi. Eyni zamanda, Makron rejiminin Fransanı mahiyyət etibarilə uğursuz dövlətə çevirdiyini vurğuladı. Bu istiqamətdə bir neçə misal çəkdi. Prezident Fransanın Afrikada, Sahel regionunda, Nigerdə, Burkino-Fasoda, Malidə iflasa uğradığını qeyd etdi. Bildirdi ki, növbədə Çaddır. Bu ölkə artıq onlardan çıxmağı tələb edir. Seneqalda isə prezident dəyişdi və milli ruha malik insan gəldi. Uğrusuzluq seriyasını Livanda Fransa ilə bağlı cərəyan edən proseslər, Azərbaycanda tam iflas, Gürcüstanda iflas davam etdirir.

**Mövzu üzrə fikirlərini XQ ilə bölüşən Beynəlxalq Avrasiya Mətbuat Fondunun vitse-prezidenti, siyasi şərhçi Oğuz Mirzəyev** bildirdi ki, Fransa bir zamanlar dünyanın güclü və nüfuzlu dövlətlərindən biri kimi siyasi, mədəni və iqtisadi sahələrdə təsirini geniş yaymışdı. Lakin son onilliklərdə ölkənin beynəlxalq nüfuzu azalmağa başlayıb. E.Makronun hakimiyyətə gəlməsi ilə bu proses daha da sürətlənib. Makronun daxili siyasətdə sərt üsullara üstünlük verməsi, beynəlxalq arenada isə yanlış hesablamalara əsaslanan qərarlar qəbul etməsi Fransa dövlətinin nüfuzuna ciddi zərbə vurub: “Fransanın bu tənəzzülü həm daxildə, həm də beynəlxalq miqyasda bir çox aspektdə təzahür edir. Makronun diktatorluğa meyilli idarəetmə tərzi, cəmiyyətdə parçalanma yaratmış siyasəti və dünya səhnəsində səhv xarici siyasət kursu ölkənin təsir dairəsini əhəmiyyətli dərəcədə məhdudlaşdırıb. Makron hakimiyyəti dövründə Fransanın daxili siyasəti ciddi böhranlarla üzləşib. Sosial bərabərsizlik, iqtisadi durğunluq və vətəndaş hüquqlarının pozulması cəmiyyətin böyük hissəsində narazılıqların yaranmasına səbəb olub. Bu vəziyyət xüsusilə “Sarı jiletlilər” hərəkatı zamanı açıq şəkildə müşahidə olundu. On minlərlə insan küçələrə çıxaraq iqtisadi ədalətsizliyə, yüksək vergilərə və sosial təminatların azalmasına etiraz etdi. Hökumətin sərt cavabı, o cümlədən polis zorakılığı və repressiyalar, Makronu demokratik liderdən daha çox avtoritar idarəetmə üslubunu təmsil edən şəxs kimi tanıtdı. Fransa hökumətinin bu hərəkətləri yalnız daxili tənqidlərlə deyil, həm də beynəlxalq insan hüquqları təşkilatlarının qınağı ilə qarşılandı. Fransa hazırda Böyük Fransa inqilabı ilə təməlini qoyulan humanist dəyərlərdən uzaq düşmüş ölkə təəssüratı yaradır. Xalq arasında dərin narazılıq, artan yoxsulluq və sosial bərabərsizlik Fransa cəmiyyətinin tarixi irsi ilə ziddiyyət təşkil edir. Bunun nəticəsində Fransa öz tarixi rolunu və beynəlxalq arenada liderliyini itirmək təhlükəsi ilə üz-üzədir”.



Müsahibimiz qeyd etdi ki, Fransa, tarix boyu müstəmləkəçilik siyasəti ilə tanınıb və bu siyasətinə görə dünyada çox ciddi tənqidlərə məruz qalıb: “Afrika ölkələrindəki müstəmləkə keçmişindən qaynaqlanan etiraz dalğaları, Cənubi Qafqazdakı proseslərə təsir edə bilməməsi və beynəlxalq aləmdə bəzi tərəfdaşlarının digər güclərlə yaxınlaşması Fransanın nüfuzunun azalmasının əsas göstəriciləridir. Bu gün Fransa həm Avropa İttifaqında, həm də daha geniş geosiyasi kontekstdə əvvəlki təsir gücünü saxlamaqda çətinlik çəkir”.

Ekspert bildirdi ki, Fransanın beynəlxalq siyasəti E.Makronun hakimiyyəti dövründə olduqca ziddiyyətli yanaşmaları, haqsız və ədalətsiz mövqeyini qəbul etdirmək istəyi uğursuz cəhdlərlə yadda qaldı. Paris keçmiş müstəmləkə gücü olaraq Afrika ölkələrində təsir dairəsini saxlamaq və yenidən gücləndirmək istəyirdi. Lakin bu cəhdlər çox vaxt nəinki nəticəsiz qaldı, hətta bir sıra ölkələrin Fransa ilə münasibətlərini yenidən köklü şəkildə dəyərləndirməsi ilə nəticələndi. Bu proses, Fransanın tarixi olaraq nəzarət etdiyi bölgələrdə nüfuzunun ciddi şəkildə zəifləməsinə gətirib çıxardı: “Makronun Afrika siyasətində digər ziddiyyətli məqam onun qitənin gənc nəslinə müraciət etməsi və Fransa ilə müsbət əlaqələr qurmağa çağırması oldu. O, bir neçə dəfə Afrikanın gələcəyinin gənclərin əlində olduğunu vurğuladı və bir sıra görüşlərdə yerli gənclərlə dialoq qurmağa çalışdı. Lakin bu səylər Fransanın keçmiş müstəmləkəçi siyasətindən irəli gələn dərin tarixi ədalətsizliklərə dair yetərli hesabatlılıq və ya üzrxahlıqla müşayiət olunmadığı üçün çox vaxt etibarlı hesab edilmədi. Gənc nəsil keçmişin yükünü daşıyan bir ölkənin gələcəkdə etibarlı tərəfdaş ola biləcəyinə şübhə ilə yanaşır”.

O.Mirzəyev bildirdi ki, Fransanın Afrikada itirdiyi nüfuz Makron hökumətinin yanlış və ziddiyyətli xarici siyasətinin bariz nümunəsidir. Afrika qitəsindəki uğursuzluqlar Fransanın beynəlxalq miqyasda təsirinin tənəzzülə uğradığını açıq şəkildə nümayiş etdirir. Bu proses həm Fransanın beynəlxalq rolu, həm də Makronun idarəetmə üslubu barədə daha ciddi suallar doğurur.

Politoloq qeyd etdi ki, “Beşinci respublika”nın Ermənistan–Azərbaycan münasibətlərinə yanaşması Makron rejiminin beynəlxalq hüququn əsas prinsiplərinə uyğun hərəkət etmədiyindən xəbər verir: “Fransa ATƏT-in keçmiş Minsk qrupunun həmsədri kimi 44 günlük müharibə zamanı neytral qalmalı olduğu halda, açıq şəkildə Ermənistanın tərəfini tutdu. Parisin bu yanaşması Fransanın gələcəkdə vasitəçi, yaxud, sadəcə danışıqlar prosesinin iştirakçısı olmaq niyyətinin üstündən xətt çəkdi. Makron rejiminin hazırkı destruktiv addımları Cənubi Qafqazda sülhün əldə edilməsinə mane olur. O, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyinə qarşı çıxaraq, İrəvanın əsassız tələblərini müdafiə edir. Bu yanaşma regional sabitliyi və tərəflər arasında etimadı daha da zəiflədir. Halbuki, beynəlxalq hüquq prinsiplərinə əsaslanan obyektiv yanaşma sülh quruculuğunun yeganə təminatıdır”.

Həmsöhbətimiz Azərbaycanın fransız neomüstəmləkəçiliyi ilə bağlı yürütdüyü siyasətin, bu istiqamətdə beynəlxalq tədbirlərdə iştirak və evsahibliyi etməsinin ölkəmizin insan hüquq və azadlıqlarına bağlılığını nümayiş etdirdiyini vurğuladı. Qeyd etdi ki, rəsmi Bakı mövzunun aktuallığını qlobal gündəmə gətirərək, neomüstəmləkəçilikdən əziyyət çəkən xalqların hüquqlarının müdafiəsini dəstəkləyir.

*Səxavət HƏMİD*
*XQ*

# Oskanyanın Qarabağ və Zəngəzur dəhlizi sancısı




(əvvəli 1-ci səhifədə)

Bəli, hazırda V.Oskanyan Prezident İlham Əliyevin müsahibəsindən bir sıra “nəticələr” çıxarıb. Nə nəticələr çıxarıb, üzərində dayanacağıq. Hələlik isə onu deyək ki, keçmiş XİN rəhbəri Qarabağ münaqişəsinin həllini tapmadığını deyib. Yeri gəlmişkən, son dövrlər Oskanyan eyni fikiri bir neçə dəfə səsləndirib, mövqeyini saxta arqumentlərlə əsaslandırmağa çalışıb.

Oskanyan indi deyir ki, Qarabağ məsələsini gündəmə gətirmək lazımdır, çünki, bu, bütün problemlərin həllinə imkan verəcək. Göründüyü kimi, o, tipik erməni obrazına xas xəstəliyin təzahürlərini növbəti dəfə göstərməkdədir. Amma, Vardanın bildirdiyinə hansısa mənada haqq qazandırmaq mümkündür. Məsələ ondadır ki, 1991-ci ildə Ermənistan müstəqilliyini əldə edəndə, prosesin katalizatoru qismində Qarabağ avantürası çıxış etmişdi. Başqa sözlə desək, müasir erməni dövlətçiliyi özünün mövcudiyyət trayektoriyasını bu avantüradan götürmüşdü.

Uzun illər Oskanyanın da tərkibində yer aldığı erməni iqtidarı Qarabağ məsələsini varlıq amalı kimi ortaya atmışdı. Nəinki ortaya atmış, eyni zamanda, geniş ictimaiyyəti də bu saxtalığa kökləmişdi. Nəzərə alaq ki, belə “yanaşma” Koçaryan-Sarkisyan ikilisinə özünün qanunsuz əməllərini sığortalamaq, onları asan şəkildə reallaşdırmaq imkanı verirdi. Beləliklə, erməni xalqı aldanır, Qarabağı gözündə müqəddəsləşdirərək, elə sanırdı ki, bölgə ona məxsusdur. Oskanyanın təmsil olunduğu komanda, həmçinin ucuz populizmə güc verib erməni xalqının qarnını saxta vətənpərəvərlik ideyaları ilə də “doydurmuşdu.”

Lakin 44 günlük müharibə hər şeyi altüst etdi. “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verən baş nazir Nikol Paşinyan, habelə onun komandasının üzvləri savaşın onlar üçün necə bir acınacaqlı durum formalaşdırdığını gördülər. Erməni xalqının, demək olar, hər nümayəndəsi müharibədə doğmasını, yaxınını itirdi. Paşinyan iqtidarı, hazırda nə qədər sülhdən yayınsa da, necə çeşidli manipulyasiyalara yol versə də, əslində, qorxu içərisindədir. Nikol və tərəfdarları yaxşı anlayırlar ki, obrazlı desək, it otuz ilə yaxın müddətdə arabanın kölgəsini öz kölgəsi hesab edib...

Görünür, bu mənada V.Oskanyanın ya anlamaq istəmədiyi məsələlər var, yaxud da anlayır, sadəcə anti-Paşinyan ritorikasından qalmamaq naminə hər cür cəfəngiyyatı dilə gətirir. O cümlədən, Qarabağla bağlı ümid yaradır. Onun fikrindəki həqiqət payı isə problemlərin həlli məsələsini Qarabağla əlaqələndirməsidir. Axı tipik erməni təfəkkürü başqa cür düşünmək qabiliyyətindən uzaqdır. Bir halda ki, Qarabağ Ermənistan dövlətinin əsas ideoloji tutacaq yeri olub, belə düşünülə bilər ki, bölgə əldən gedibsə, dövlətin də mövcudluğu şübhə altındadır.

Əslində, V.Oskanyanın fikirləri də dolayısı ilə o deməkdir ki, Qarabağ yoxdursa, Ermənistan da yoxdur. Bölgə əldən gedib və hazırda Paşinyan iqtidarı ölkəni məhvə doğru vaxtilə Oskanyanın təmsil olunduğu komandadan daha yaxşı aparır. Yəni, Vardan çox nahaq yerə Nikolla rəqabətə girir. İkinci hər şeyi birincidən daha yaxşı edir, ortada aqoniyanı tezləşdirmək baxımından hansısa problem yoxdur. O zaman daha bir sual ünvanlayaq: Bundan sonra Ermənistan üçün xoşagəlməz durum hansı halda formalaşa bilər? Cavab barədə çox düşünməyə ehtiyac yoxdur. Əlbəttə ki, ölkə Azərbaycanın şərtlərini qəbul etməsə.

V.Oskanyan da bunu gözəl bilir. Məsələn, o bilir ki, Azərbaycan üçün Naxçıvana maneəsiz quru yolu həyati əhəmiyyət daşıyan məsələdir və rəsmi Bakı nəyin bahasına olursa-olsun istəyinə çatacaq. Oskanyan yaxşı dərk edir ki, Naxçıvana yolun Ermənistan ərazisindən keçməsi son dərəcə vacibdir. N.Paşinyan və komandası da bunu anlamamış deyil. Sadəcə, erməni iqtidarı Azərbaycanın maneəsiz yol məntiqini qəbul etmir və Ermənistanı Naxçıvana yol məsələsində yaranacaq qlobal kommunikasiya xəttinin açar fiquruna çevirməyi hədəf seçir. Ölkəmiz belə yanaşma xətti ilə heç vaxt razılaşmayacaq. Elə buna görə də Ermənistan sürətlə silahlanır ki, Azərbaycana qarşı çıxsın, Bakının alternativ yolu üçün təhdid yaratsın. Bu, Qərbin Paşinyan hakimiyyəti qarşısında qoyduğu tələbdir.

Azərbaycanın isə sülh yolundakı tələbləri aydındır. Birincisi, Ermənistan konstitusiyasının avantürist mahiyyəti, yəni ölkənin istiqlaliyyət bəyannaməsinə söykənmiş ərazi iddiası məntiqi aradan qalxsın, ikincisi isə rəsmi İrəvan Bakı ilə birlikdə ATƏT-in Minsk qrupunun ləğvi üçün müvafiq müraciətə imza atsın. V.Oskanyan həm Naxçıvana maneəsiz yolun, həm də göstərdiyimiz, Prezident İlham Əliyevin də müsahibəsində səsləndirdiyi sülh şərtlərinin Qarabağ avantürası üçün tamamilə son olduğunun fərqindədir. Buna görə, guya, diplomatik gediş edilməsinin, Qarabağ problemini yenidən qaldırmağın zəruriliyini vurğulayır. Budur Vardanın problemlərin həlli formulu!

Ancaq Paşinyan iqtidarının təmsilçiləri kimi, V.Oskanyan da qorxur. Elə ona görə də Zəngəzur dəhlizi ilə bağlı fikirlər səsləndirir və bildirir ki, Azərbaycan dəhlizi zor gücünə açacaq. Yəni, onun dövlətimizin başçısının dediklərindən gəldiyi nəticə budur. Halbuki, ölkəmizin lideri Zəngəzur dəhlizi mövzusunda bircə kəlmə belə demədi. Yuxarıda da bildirdik ki, ölkəmiz üçün Naxçıvana yol məsələsində İran variantı aktualdır. Bir halda ki, Ermənistan özünün ərazi bütövlüyü və suverenliyi klişesini əsas tutur, deməli, qlobal kommunikasiya xəttində iştirak məsələsindən məhrum olur və durumdan itirəcəyi şübhəsizdir.

Ancaq hazırda mühüm əhəmiyyət daşıyan məsələ İrəvanın Bakının rəsmi şəkildə səslənmiş sülh şərtlərini qəbul etməməsidir. Hər halda, bu vəziyyətdə Ermənistan ikiqat itirmiş hala düşəcək və nəticə etibarilə nə zamansa, tam fərqli şərtlərlə, daha doğrusu, İran ərazisindən keçməklə fəaliyyət göstərəcək kommunikasiya qovşağında iştirak imkanlarını da əldən verəcək. Görəsən, köhnə dəftərləri açmaq iddiasında olan V.Oskanyan perspektivi nəzərə alırmı?

Sonda onu deyək ki, rasional düşüncə baxımdan qısır vəziyyətdə olan Ermənistanın sabiq XİN başçısının Azərbaycanın Zəngəzur dəhlizini zor gücü ilə ələ keçirəcəyinə dair fikirləri də sayıqlamalardan başqa bir şey deyil. Həm də ona görə ki, Azərbaycan güc tətbiqinə özünə qarşı təhdid hiss edəcəyi təqdirdə əl atacaq. Bunu Prezident İlham Əliyev də vurğuladı, Ermənistana və havadarlarına növbəti dəfə xəbərdarlıq etdi.

V.Oskanyan da tam rahat olsun ki, Azərbaycan güc tətbiqinə yalnız Ermənistanın destruktiv mövqe tutacağı təqdirdə əl atacaq. Görünür, rahat ola bilmir, çünki erməni xislətinə bələddir. Amma Vardan bir məsələdə də yanılır. Axı Azərbaycan güc tətbiqi məcburiyyətində qalsa, məsələ yalnız Zəngəzur dəhlizi ilə məhdudlaşmayacaq.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Qərbi Azərbaycana Qayıdışa intellektual dəstək

**Dünən Heydər Əliyev Mərkəzində Gənclər və İdman Nazirliyinin dəstəyi, “Regional İnkişaf” İctimai Birliyi və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə “Qərbi Azərbaycan: Tarixin izi ilə - intellektual oyunlar çempionatı” layihəsi çərçivəsində 16-29 yaşlı gənclər arasında “Nə? Harada? Nə zaman?” və “Kviz” oyunları keçirilib.**

Yarışın açılışında çıxış edən “Regional İnkişaf” İctimai Birliyinin nümayəndəsi Murad Qasımlı layihənin məqsədi, Qərbi Azərbaycanın tarixi-mədəni irsi, bölgədən zorla çıxarılmış soydaşlarımızın doğma yurdlarına qayıdış hüququ barədə gənclərin biliklərinin artırılmasının önəmi, bu istiqamətdə müxtəlif layihələrin həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

Gənclər və İdman Nazirliyinin ictimai inkişaf sektorunun müdiri Elşən Qəhrəmanov, Qərbi Azərbaycan İcmasının müşahidə şurasının sədri Misir Mərdanov və İcmanın Ağsaqqallar şurasının üzvü Elşad Qurbanov layihənin əhəmiyyəti, Qayıdış konsepsiyasının reallaşdırılmasına gənclərin dəstəyi, bu sahədə dövlət siyasətinin mahiyyəti kimi önəmli mövzulara gənclərin bələdliyini artırmaqda belə oyunların rolunu qeyd ediblər. Azərbaycan gəncliyinin 44 gündə Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı Zəfərdən danışan natiqlər gənclərin bundan sonra da fəallıqlarını davam etdirmələrinin, Qayıdış konsepsiyasının icrasında fəal iştirak etmələrinin vacibliyini vurğulayıblar.

Sonra “Nə? Harada? Nə zaman?” və “Kviz” oyunlarına start verilib. İlkin mərhələdə qeydiyyatdan keçmiş 30 komanda “Nə? Harada? Nə zaman?” intellektual oyununda mübarizə aparıb. 4 turdan ibarət “Nə? Harada? Nə zaman?” intellektual oyununun sonunda münsiflər heyəti komandaların cavablarını qiymətləndirib. “Zəngəzur” komandası I, “Xudafərin” II və “Köhnə qvardiyaçılar” III yerə layiq görülüblər.

Növbəti mərhələdə “Kviz” oyununda 15 mövzu üzrə suallar cavablandırılıb. Bu dəfə “Zəngəzur” I, “Xudafərin” II və “Köhnə qvardiyaçılar” III olublar.

Sonda qalib komandalar müxtəlif mükafatlar və sertifikatlar ilə təltif edilib.



*XQ*

# Azərbaycanın parlaq gələcəyinin təminatçısı



**Azərbaycanın müasir tarixi zəngin və şərəfli hadisələrlə doludur. Bu tarixin hər səhifəsində xalqımızın birliyi, dövlətimizin gücü və inkişafın təməlinə qoyulan əzm və qətiyyət var. Ölkəmizin bu möhtəşəm inkişaf yolunun başında dayanan uzaqgörən, qətiyyətli və müdrik lider – Prezident İlham Əliyevdir. Onun rəhbərliyi ilə Azərbaycan, müstəqilliyini möhkəmləndirən, iqtisadiyyatı güclü, beynəlxalq arenada nüfuzlu və öz xalqına layiq həyat səviyyəsi yaradan bir dövlətə çevrilmişdir.**

## İqtisadi islahatlar və davamlı inkişaf

Prezident İlham Əliyevin liderliyi altında Azərbaycan iqtisadi sahədə böyük uğurlar qazanmış və bu proses 2024-cü ildə də sürətlə davam etmişdir. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, yeni istehsal sahələrinin yaradılması ölkəmizin iqtisadi dayanıqlılığını artırdı. Cari ildə qəbul edilən qərarlar nəticəsində əməkhaqları və pensiyalar əhəmiyyətli dərəcədə artırıldı, əhalinin sosial müdafiəsi gücləndirildi. Dövlətin həyata keçirdiyi islahatlar nəticəsində kiçik və orta sahibkarlığın inkişafına şərait yaradıldı, yeni iş yerləri açıldı və vətəndaşların rifahının səviyyəsi yüksəldi.

İnfrastruktur layihələrinin həyata keçirilməsi də diqqət mərkəzində oldu. Yolların, körpülərin, magistral və kənd yollarının inşası, elektrik, su və qaz təchizatı ilə bağlı mühüm layihələrin icrası ölkənin hər bir bölgəsinin inkişafına təkan verdi. Azərbaycan bu gün regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilib. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və digər layihələr ölkəmizi dünya iqtisadiyyatına daha sıx inteqrasiya etdirir.

## Sosial siyasət

Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin əsasında xalqın rifahı dayanır. 2024-cü ildə də sosial siyasət istiqamətində bir çox mühüm addımlar atıldı. Təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində həyata keçirilən layihələr cəmiyyətin inkişafına mühüm töhfələr verdi. Yeni məktəblərin, xəstəxanaların, idman komplekslərinin açılması, gənclərin və qadınların sosial fəallığının artırılması üçün aparılan tədbirlər davamlı inkişafın təminatıdır.

Xüsusi qayğıya ehtiyacı olan vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində dövlət proqramları icra olundu. Məcburi köçkünlər üçün yeni yaşayış komplekslərinin inşası, onların mənzil şəraitinin yaxşılaşdırılması və doğma yurdlarına qayıdışı dövlətin xalqına göstərdiyi qayğının bariz nümunəsidir.

## Beynəlxalq arenada yüksələn nüfuz və diplomatik qələbələr

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq arenada etibarlı və nüfuzlu tərəfdaş kimi tanındı. Ölkəmizin COP29-a ev sahibliyi etmək hüququnu qazanması dövlətimizin beynəlxalq mövqeyinin gücləndiyini göstərdi. Bu tədbirin Bakıda keçirilməsi Azərbaycanın ekoloji problemlərin həllində, qlobal məsələlərdə fəal və məsuliyyətli ölkə olduğunu nümayiş etdirdi.

Azərbaycanın xarici siyasəti müstəqilliyə, ədalətə və milli maraqlara əsaslanır. Prezident İlham Əliyevin beynəlxalq təşkilatlar qarşısında səsləndirdiyi prinsipial və qətiyyətli tələblər ölkəmizin haqq işinin dünya tərəfindən qəbul edilməsinə və dəstəklənməsinə səbəb oldu. Regional və qlobal layihələrdə Azərbaycanın iştirakı, müxtəlif ölkələrlə iqtisadi və mədəni əlaqələrin inkişafı dövlətimizin nüfuzunu daha da artırdı.

## Qarabağın və Şərqi Zəngəzurun bərpası

Dövlət başçımızın xüsusi diqqət ayırdığı sahələrdən biri də işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasıdır. 2024-cü ildə bu ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri davam etdi. Füzuli, Şuşa, Laçın və digər şəhərlərdə həyata keçirilən layihələr nəticəsində müasir yaşayış kompleksləri, yollar, məktəblər və xəstəxanalar tikildi. Məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı, bu ərazilərdə həyatın bərpa edilməsi dövlətimizin gücünün və xalqımızın qətiyyətinin təcəssümüdür.

Prezidentin şəxsi nəzarəti altında həyata keçirilən bu layihələr, Azərbaycanın hər qarış torpağının inkişafını və gələcək nəsillərə daha gözəl və abad bir Vətən əmanət ediləcəyini göstərir.

## Gələcəyə inam

Prezident İlham Əliyevin doğum günü – 24 dekabr həm də Azərbaycan xalqı üçün hesabat və gələcəyə baxış günüdür. Hər il bu tarixdə həyata keçirilən işlərə nəzər salmaq, qarşıda duran hədəfləri müəyyənləşdirmək və yeni uğurlara doğru irəliləmək üçün bir fürsətdir. Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti, qətiyyəti və xalqına olan sevgisi sayəsində dövlətimiz daha böyük nailiyyətlərə imza atacaqdır.

***Naiq MƏMMƏDHƏSƏNOV,***
***sahibkar***



# Qalib dövlətin müzəffər lideri

**Uzun illər boyu xəritədə kiçik bir məkan kimi diqqətdən kənarda qalan Azərbaycan bu gün beynəlxalq arenada öz sözünü deyən, regional lider kimi qəbul olunan, dünya miqyasında sayılıb-seçilən bir ölkəyə çevrilib. Bu dönüşün arxasında dayanan əsas sima, heç şübhəsiz ki, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Onun rəhbərliyi altında Azərbaycan, yalnız regional çərçivədə deyil, qlobal miqyasda nüfuzlu, qalib bir ölkə kimi dünyaya səs salıb. Bu nailiyyətlərin təməlində isə müdrik siyasətin və dəmir iradənin sahibi olan ulu öndər Heydər Əliyevin əvəzsiz irsi dayanır.**

Heydər Əliyevin təməlini qoyduğu milli dövlətçilik təlimi Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə söykənərək, müasir inkişaf üçün möhkəm bünövrə yaratdı. Onun rəhbərliyi ilə Azərbaycan müstəqilliyini möhkəmləndirdi, iqtisadi yüksəliş və siyasi sabitlik dövrünə qədəm qoydu. Heydər Əliyev hər zaman Azərbaycanın suverenliyini, xalqın rifahını və ölkənin beynəlxalq arenada mövqeyinin güclənməsini əsas prioritet kimi müəyyənləşdirdi. Bu irsi uğurla davam etdirən İlham Əliyev, Ulu öndərin ideyalarını yeni dövrün çağırışlarına uyğunlaşdıraraq, Azərbaycanı dünyanın diqqət mərkəzinə çıxaran güclü bir lider oldu.

Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və uzaqgörənliyi ilə Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi ədaləti bərpa etdi. Bu müharibə, yalnız torpaqların işğaldan azad edilməsi deyildi; bu, həm də Azərbaycanın milli kimliyinin, qürurunun və suverenliyinin dünyaya sübutu idi. Xalq, dövlət və ordu birliyi, Ali Baş Komandanın müdrik qərarları ilə əsl qəhrəmanlıq dastanı yazdı. Bu zəfər Azərbaycan xalqının gücünü, iradəsini və əyilməzliyini bütün dünyaya nümayiş etdirdi. Torpaqlarımızın azad edilməsi ilə xalqımız 30 illik nisgilin və haqsızlığın sona çatdığını gördü. Bu qələbə, dünya xəritəsində kiçik bir ölkə kimi görünən Azərbaycanın artıq qlobal miqyasda öz haqqını qoruyan, prinsipial mövqeyi olan güclü bir dövlət olduğunu təsdiqlədi.

Azərbaycanın bu möhtəşəm zəfəri beynəlxalq siyasi səhnədə yeni bir mərhələnin başlanğıcı oldu. Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət, ölkəmizin beynəlxalq münasibətlərdə fəal rol almasına, qlobal məsələlərdə söz sahibi olmasına şərait yaratdı. Bu gün Azərbaycan, qlobal problemlərin həllində təşəbbüskar mövqeyi ilə diqqət çəkir. Xüsusilə, iqlim dəyişiklikləri və ekoloji təhlükəsizlik məsələlərinin dünya miqyasında həlli istiqamətində atdığı addımlarla Azərbaycan, təkcə regionda deyil, bütün dünyada etimad qazanıb.

Bu etimadın nəticəsi olaraq 2024-cü ildə Azərbaycan dünyanın ən mühüm beynəlxalq tədbirlərindən biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Tərəflər Konfransı – COP29-a ev sahibliyi etdi. Tədbir çox böyük uğurla keçirildi və Azərbaycanın qlobal miqyasda mühüm rol oynayan, məsuliyyətli və nüfuzlu bir ölkə olduğunu bir daha sübuta yetirdi. Bəli, həqiqətən də Azərbaycan ekoloji dayanıqlılığa verdiyi töhfələrlə, gerçəkləşdirdiyi genişmiqyaslı layihələrlə böyük işlər görən qüdrətli bir dövlətdir. Bakı, dünya liderlərini bir araya gətirərək iqlim problemlərinin həll yollarını tapmaq üçün qlobal platformaya çevrildi, Azərbaycanın diplomatik, təşkilati və strateji potensialını bir daha nümayiş etdirdi.

Bu şərəfli yolun mühüm iştirakçılarından biri də Birinci vitse-prezident Mehriban xanım Əliyevadır. Onun fəaliyyəti, ölkənin sosial, mədəni və humanitar sahələrinin inkişafına əvəzsiz töhfələr verir. Mehriban xanım Əliyeva, Heydər Əliyev Fondunun rəhbəri kimi təhsil, səhiyyə və mədəniyyət sahələrində həyata keçirdiyi layihələrlə xalqın rifahını yüksəldir, Azərbaycanın dünya miqyasında tanınmasına xidmət edir. Onun təşəbbüsləri sayəsində Azərbaycanın tarixi abidələri bərpa edilir, milli mədəniyyətimiz qorunur və beynəlxalq səviyyədə təbliğ olunur. Onun apardığı bu işlər, Azərbaycanın tolerantlıq və humanizm dəyərlərini dünyaya nümayiş etdirir.

Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində ölkəmiz işğaldan azad edilmiş torpaqlarımızda böyük quruculuq və bərpa işləri aparır. Qarabağ və Şərqi Zəngəzurda müasir şəhərlər salınır, yeni infrastruktur qurulur, tariximizin və mədəniyyətimizin izləri yenidən dirçəlir. Bu quruculuq, həm də Azərbaycanın güclü, qüdrətli və yenilməz bir dövlət olduğunu sübut edir.

Prezident İlham Əliyev humanist dəyərlər, demokratik prinsiplərlə idarə etdiyi ölkəsini tarixi zəfərlərə, qlobal uğurlara və dayanıqlı inkişafa aparan bir dövlət xadimidir. 44 günlük Vətən müharibəsindən sonra dünya Azərbaycanın qələbəsinə, onun gücünə və qətiyyətinə şahid oldu. COP29 kimi qlobal tədbirin Bakıda uğurla keçirilməsi isə bir daha təsdiq etdi ki, dünya artıq Azərbaycanı yalnız qalib bir ölkə kimi deyil, həm də qlobal problemlərin həllində fəal iştirak edən bir lider dövlət kimi tanıyır.

Prezident İlham Əliyev uzaqgörən siyasəti, xalqına, dövlətinə olan sədaqəti ilə Azərbaycanı dünyada güc mərkəzinə çevirdi. Beynəlxalq gücləri onun iradəsi ilə hesablaşmağa vadar etdi. Bu gün Azərbaycan xalqı öz Prezidentinin ətrafında bir yumruq kimi birləşərək yeni hədəflərə doğru inamla addımlayır. Tarixi torpaqlarımıza, o cümlədən Qərbi Azərbaycana qayıdışın tezləşməsi üçün əlindən gələni əsirgəmir. Əminik ki, Azərbaycan xalqı onun iradəsi və cəsarəti ilə bu zirvəni də fəth edəcək.

***Pərvanə ƏLİYEVA,***
***Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının müşavir-katibi***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 529** **Bakı şəhəri, 19 dekabr 2024-cü il**

**“Təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair təqdim etdikləri maliyyə hesabatlarının forması və təqdim edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.10-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair təqdim etdikləri maliyyə hesabatlarının forması” təsdiq edilsin (əlavə olunur).

**2.** “Təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair maliyyə hesabatlarının təqdim edilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**3.** Bu Qərar 2024-cü il iyulun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 530** **Bakı şəhəri, 20 dekabr 2024-cü il**

**“Maliyyə institutlarının hökmran mövqeyinin müəyyən edilməsi şərtləri (bazar payının hədləri və müəyyən edilməsi meyarları)”nin təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.5.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Maliyyə institutlarının hökmran mövqeyinin müəyyən edilməsi şərtləri (bazar payının hədləri və müəyyən edilməsi meyarları)” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycanın inkişaf salnaməsinə 2024-cü ildə yazılan uğur səhifələri

(əvvəli 1-ci səhifədə)




Dövlətimizin başçısının əsas prioritetlərindən biri şəhid ailələrinə və qazilərə qayğının təmin edilməsidir. Şanlı 44 günlük Vətən müharibəsindən sonra bu kateqoriya üzrə ailələr üçün çoxsaylı mənzillər, evlər verilib və sosial proqramlar həyata keçirilib. Bununla yanaşı, təhsil, səhiyyə və mədəniyyət sahələrində əldə olunan nailiyyətlər dövlətin xalqın rifahına olan diqqət və qayğısını əks etdirir.

Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq aləmdə cərəyan edən prosesləri dərindən anlayan, strateji düşüncəyə malik bir liderdir. Onun irəli sürdüyü qlobal təşəbbüs və proqramlar Azərbaycanı beynəlxalq münasibətlər sistemində mühüm aktorlardan birinə çevirib. Dövlətimizin başçısı təkcə regional deyil, həm də qlobal problemlərin həlli üçün səmərəli təkliflərlə çıxış edir. Cari ildə Azərbaycanın dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün atılan addımlar və beynəlxalq platformalarda liderlik təşəbbüsləri onun qlobal siyasətdəki fəallığını bir daha təsdiqləyir. Eyni zamanda, Prezident İlham Əliyev Azərbaycanın tarixi və mədəni irsini dünyaya tanıdır. Dövlətimizin başçısı Azərbaycanın mədəniyyətlərarası dialoqda aparıcı rol oynadığını vurğulayaraq, "Bakı Prosesi" kimi qlobal təşəbbüslərə liderlik edir.

Prezident İlham Əliyevin uğurlarında onun şəxsi keyfiyyətləri böyük rol oynayır. Dövlətimizin başçısının prinsipiallığı, qərarların qəbulu zamanı çevikliyi və gələcəyi dəqiq planlaşdırma məharəti ona xalqımızın və beynəlxalq ictimaiyyətin dərin hörmətini qazandırıb. Onun şəxsi nümunəsi, əzmkarlığı və yeniliklərə açıq bir lider olması Azərbaycanın inkişaf yolunda daha böyük zirvələrə çatmasına imkan yaradır.

Bir sözlə, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan həm daxildə, həm də beynəlxalq arenada əhəmiyyətli nailiyyətlər əldə edib. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada həm siyasi, həm iqtisadi, həm də mədəniyyət sahələrində daha güclü mövqe tutur. Bu amillər dövlətimizin başçısının xalq tərəfindən geniş dəstəklənməsini təmin edir.

## COP29-a yüksək səviyyədə hazırlıq və əldə olunan qlobal nəticələr

Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) nəinki ölkəmizdə, ümumiyyətlə, dünyada 2024-cü ildə baş tutan ən mötəbər tədbirlərdən biri idi. Ötən ilin dekabrında təxminən 200 dövlətin yekdil qərarı ilə bu tədbirə ev sahibliyinin Azərbaycana həvalə olunması Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətin və ölkəmizə çox böyük etimadın, yüksək inamın göstəricisi idi. Ölkəmizdə elan olunmuş "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçirilən COP29 Azərbaycanın indiyədək ev sahibliyi etdiyi ən irimiqyaslı tədbir olub. Onun təşkili və keçirilməsi üçün cəmi 10 ay vaxt sərf edildi ki, bu müddət zaman baxımından rekord göstərici sayıla bilər. Bu qısa müddətdə Bakı Olimpiya Stadionunun ərazisi COP29-un keçirilməsi üçün hazır vəziyyətə gətirildi. Stadionun 49 hektarlıq perimetrində Mavi Zona üzrə tikinti işləri aparıldı, həmçinin 8 hektar ərazidə Yaşıl Zona quruldu. Sammitin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görüldü, lazımi infrastruktur yaradıldı.

Qonaqlar üçün müxtəlif xidmətlərin təşkili, onların yerləşdirilməsi prosesi, paytaxtda nəqliyyat əməliyyatlarının hazırlığı, həmçinin digər işlər operativ və yüksək səviyyədə görüldü. Ümumiyyətlə, COP29-a start verilənə, yəni, noyabrın 11-dək hazırlıq mərhələsində 100-dən çox tədbir keçirildi. COP29-un ən mühüm tədbiri iki gün davam edən Liderlər Sammiti idi. Azərbaycan Prezidenti İlham Əliyevin Liderlər Sammitinin açılış mərasimində çıxışı iştirakçılarda böyük maraq doğurdu.

COP29-da iştirak etmək üçün 196 ölkədən 72 min iştirakçının qeydiyyatdan keçməsi, qonaqların arasında 80 prezidentin, vitse-prezidentin və Baş nazirin olması isə həm dövlətimizə etimadın, həm də onun beynəlxalq arenada oynadığı fəal rolun növbəti dəfə sübutu idi. Azərbaycan COP29-a ləyaqətli şəkildə ev sahibliyi etməklə bu mötəbər tədbirlə bağlı göstərilən etimadı layiqincə doğrultdu. İstər qonaqların tədbirin yüksək səviyyədə təşkil olunması barədə fikirləri, istərsə də Bakıda qəbul olunan mühüm qərarlar bunun sübutudur.

COP29-un yekununda qəbul edilən qərarlar bəşəriyyətin gələcəyi üçün müstəsna önəm daşımaqla bərabər, Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha nümayiş etdirdi. Rəsmi Bakı iki həftə davam edən qlobal iqlim dəyişmələri ilə bağlı müzakirələrin aparıldığı toplantının dünya ölkələrinin, xüsusilə də inkişaf etməkdə olan dövlətlərin gözlədikləri qərarların qəbulu ilə başa çatması üçün bütün qüvvəsini səfərbər etdi. Azərbaycan tədbirin öhdəsindən uğurla gəldi, bu sahədə yüksəksəviyyəli təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirdi. Tədbir iştirakçılarının yekdilliklə COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan olunması barədə qərar qəbul etməsi bunun bariz göstəricisidir. Məsələn, BMT-nin Baş katibi Antonio Quterreş tədbirlə bağlı bəyanatında deyib ki, COP29-da əldə olunmuş razılaşma iqlim dəyişikliyi ilə mübarizədə gələcək addımların əsasını qoymaqla bərabər, qlobal istiləşməni 1,5°C-də saxlamaq məqsədini qorumaq üçün həyati əhəmiyyət daşıyır.

COP29-da qəbul olunan ən önəmli qərarlardan biri inkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan yeni öhdəliyin – Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunmasıdır. Bakı Maliyyə Məqsədi inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunmasını nəzərdə tutan əsas hədəfləri müəyyənləşdirir. COP29 Sədrliyinin əsas prioriteti üzrə əldə olunan bu uğur əvvəlki 100 milyard dollarlıq iqlim maliyyəsi məqsədindən əhəmiyyətli dərəcədə yüksəkdir və qlobal investisiyaların yeni dalğasını təmin edəcək.

Bundan başqa, 2015-ci ildən bəri ilk dəfə olaraq COP29-da Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirilib. Bununla bağlı razılığın əldə olunması COP29 Sədrliyinin önəm verdiyi əsas prioritet məsələlərdən biri idi.

COP29-da əldə olunan mühüm nailiyyətlərdən biri də 2022-ci ildə təşəbbüs kimi irəli sürülmüş və iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalan ölkələrə maliyyə yardımını nəzərdə tutan İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılması oldu. Fondun 2025-ci ildən əməli fəaliyyətə başlaması nəzərdə tutulur. İtki və Zərər Fonduna ölkələr tərəfindən vəd edilən maliyyə vəsaitinin həcmi 730 milyon dollardan çoxdur. İqlim dəyişmələrinin fəsadlarının kiçik ada dövlətlərinə təsirlərinin yaratdığı çətinliklərin həlli Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən COP29 Sədrliyinin prioritetlərindən biri kimi müəyyən olunub. Bu baxımdan, İtki və Zərər Fondunun fəaliyyətə başlaması COP29 Sədrliyinin çox böyük uğurudur. COP29-un yekununda qəbul olunan digər qərarla Qlobal Adaptasiya Hədəfi sənədi ilə Bakı Adaptasiya Yol Xəritəsi yaradıldı. Bundan başqa, COP29-un qərarı ilə 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edildi. Bütün bunlar onu göstərir ki, Azərbaycan gələcək COP-ların da uğurlu olması üçün müsbət presedent yaradıb. Bir sözlə, Bakıda qəbul olunan qərarlar qlobal iqlim dəyişmələri ilə mübarizədə dönüş nöqtəsi hesab edilir. Bütün bunlar dövlətimizin başçısının həyata keçirdiyi məqsədyönlü siyasətin çox böyük nailiyyətidir.

## Azərbaycanın xarici siyasətinin uğurları

Başa çatmaqda olan 2024-cü ildə də Azərbaycan çoxvektorlu xarici siyasətini uğurla davam etdirib. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, irəli sürdüyü təşəbbüsləri və strateji addımları nəticəsində ölkəmizin beynəlxalq arenada mövqeyi daha da güclənib. Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığını dərinləşdirərək regional və qlobal məkanda önəmli tərəfdaşa çevrilib.

Bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri, görüşləri və bu çərçivədə imzalanan sənədlər mühüm rol oynayıb. Belə ki, enerji, nəqliyyat və investisiya sahələrindəki razılaşmalar Azərbaycanın qlobal tərəfdaşlıq potensialını daha da artırıb.

Dövlətimizin başçısı cari ildə xarici ölkəyə ilk səfərini Münxen Təhlükəsizlik Konfransında iştirak məqsədilə fevralın 16-18-də Almaniyaya edib. Üç gün davam edən səfər çərçivəsində Azərbaycan Prezidenti 24 görüş keçirib. Bu görüşlərin məhz qarşı tərəflərin müraciətlərinə əsasən keçirilməsi Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan nüfuzunun və təşəbbüslərinin qlobal miqyasda qəbul edilməsinin göstəricisidir. Görüşlərdə Azərbaycanın sülh təşəbbüsləri, enerji təhlükəsizliyindəki rolu və beynəlxalq əməkdaşlıq məsələləri müzakirə edilib. Həmin görüşlərdən biri də Ermənistanın baş naziri ilə ikitərəfli görüşdür ki, burada iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqlar, münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası məsələləri müzakirə olunub. Prezident İlham Əliyevin Münxen səfəri Azərbaycan diplomatiyasının qlobal səviyyədə mövqeyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib.

Almaniya səfərinin ardından Azərbaycan Prezidenti fevralın 18-19-da qardaş Türkiyədə səfərdə olub. Prezident İlham Əliyevin səfər çərçivəsində türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla görüşləri strateji müttəfiqlik və qardaşlıq əlaqələrinin daha da gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyıb. Səfər zamanı imzalanan sənədlər Azərbaycan–Türkiyə əməkdaşlığının strateji xarakterini daha da gücləndirib. Türkiyə–Azərbaycan Universitetinin yaradılması isə təhsil sahəsində əlaqələri yeni mərhələyə qaldıraraq gənc kadrların yetişdirilməsinə töhfə verir. Baytarlıq sahəsində əməkdaşlıq və ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər isə iqtisadi və kənd təsərrüfatı sektorlarında əməkdaşlığın genişlənməsinə, ticarət əlaqələrinin asanlaşdırılmasına imkan yaradıb.

Azərbaycan Prezidentinin Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə aprelin 22-də bu ölkəyə işgüzar səfəri zamanı Rusiya dövlətinin başçısı ilə görüşündə iki ölkə arasındakı iqtisadi əməkdaşlıq, nəqliyyat dəhlizləri, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər strateji məsələlər müzakirə edilib. Bir sözlə, Rusiya səfərinin nəticələri iki ölkə arasında mövcud əməkdaşlığa yeni impuls verilməsi baxımından önəmli olub.

Azərbaycan Prezidenti İlham Əliyev, ümumiyyətlə, il ərzində iki dəfə Almaniyada, iki dəfə Türkiyədə, iki dəfə Qazaxıstanda, üç dəfə Rusiyada, Misirdə, Pakistanda, Böyük Britaniyada, Özbəkistanda, İtaliyada və Qırğızıstanda səfərdə olub.

Bu səfərlər zamanı Azərbaycan ilə müvafiq dövlətlər arasında siyasi, iqtisadi-ticari, kommunikasiyalar, mədəniyyət, elm-təhsil və digər sahələrə aid mühüm sənədlər imzalanıb, Cənubi Qafqazda sülhün təmin edilməsi istiqamətində dövlətimiz tərəfindən atılan addımlar və ölkəmizin geosiyasi rolu məsələləri müzakirə olunub. Azərbaycan Prezidentinə Kazan şəhərində Tatarıstanın ali dövlət mükafatı olan "Dostluq" ordeni, Bişkekdə isə "Çingiz Aytmatov" ordeni təqdim olunub. Bu mükafatlar dövlətimizin başçısının beynəlxalq əlaqələrdəki uğurlarının və regionlararası əməkdaşlığa, mədəniyyətlərarası dialoqun inkişafına, humanist dəyərlərin təbliğinə verdiyi töhfələrin əyani təsdiqi, beynəlxalq səviyyədə böyük hörmətin və ehtiramın ifadəsidir.

## Prezident və parlament seçkiləri: Xalqın yüksək etimadının növbəti nümayişi

Cari ilin ən yaddaqalan hadisələri sırasında, heç şübhəsiz ki, prezident və parlament seçkiləri mühüm yer tutur. Azərbaycan Prezidenti İlham Əliyevin seçkilərdə inamlı qələbəsi xalqımızın öz liderinə etimadını, sevgi və məhəbbətini növbəti dəfə nümayiş etdirdi. Bu seçkilərin nəticələri təkcə xalqımızın deyil, beynəlxalq ictimaiyyətin də dövlətimizin başçısına inam və etimadını, onun qlobal miqyasda nüfuzunu, yalnız ölkə daxilində deyil, dünya miqyasında da sülhə və təhlükəsizliyə töhfə verən Lider olduğunu bir daha təsdiqlədi. Bunu seçkilərdən dərhal sonra dünyanın aparıcı ölkələrinin liderləri tərəfindən dövlətimizin başçısına ünvanlanan təbrik məktublarındakı fikirlər də sübut edir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına ünvanlandığı təbrik məktubunda qeyd edib: "Qardaş Azərbaycan xalqı tərəfindən yenidən lider seçilməyinizin təkcə ölkələrimiz arasındakı bənzərsiz münasibətlər baxımından deyil, bölgəmizin uzun illərdir ehtiyac duyduğu sülh və sabitliyin bərqərar olması baxımından da böyük bir nailiyyət olduğunu düşünürəm".

Rusiya Prezidenti Vladimir Putin məktubunda vurğulayıb: "Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və onun mövqelərinin dünya arenasında möhkəmləndirilməsi üzrə həyata keçirdiyiniz kursa ümumxalq dəstəyini tam təsdiq edir".

Çin Xalq Respublikasının Sədri Si Cinpin isə təbrik məktubunda Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün dövlət quruculuğu təşəbbüslərində yeni nailiyyətlər əldə edəcəyinə əminliyini bildirib. Qeyd edib ki, son illər Çin-Azərbaycan münasibətləri öz inkişafının nümunəvi və sabit olması ilə fərqlənir. Yüksəksəviyyəli siyasi etimad mühiti yaranır, "Bir kəmər, bir yol" təşəbbüsünün birlikdə həyata keçirilməsində irəliləyiş, beynəlxalq münasibətlərdə sıx qarşılıqlı fəaliyyət müşahidə olunur.

Digər dövlət və hökumət başçıları – Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Belarus Prezidenti Aleksandr Lukaşenko, İtaliya Prezidenti Sercio Mattarella və Nazirlər Şurasının Sədri Ciorcia Meloni, İordaniya Kralı II Abdullah ibn Al Hüseyn, İsrail Prezidenti İsxak Hersoq, Rumıniya Prezidenti Klaus Verner İohannis, Misir Prezidenti Əbdülfəttah əs-Sisi, Koreya Respublikasının Prezidenti Yun Sok Yol, Serbiya Prezidenti Aleksandar Vuçiç, Yaponiyanın Baş naziri Fumio Kişida, Bolqarıstan Prezidenti Rumen Radev, Qırğızıstan Prezidenti Sadır Japarov, Macarıstanın Baş naziri Viktor Orban, Nikaraqua Prezidenti Daniel Orteqa Saavedra, Bosniya və Herseqovinanın Serb Respublikasının Prezidenti Milorad Dodik, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü Jelka Tsviyanoviç, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Slovakiyanın Baş naziri Robert Fitso, Cibuti Prezidenti İsmail Ömər Qelle, Banqladeş Prezidenti Məhəmməd Şahabuddin, Malayziyanın Kralı Əlahəzrət Sultan İbrahim, Venesuela Prezidenti Nikolas Maduro, İndoneziya Prezidenti Coko Vidodo, Tailandın Kralı Maha Vaçiralonqkorn, Mozambik Prezidenti Filipe Jasinto Nyusi, İraq Prezidenti Əbdüllətif Camal Rəşid, Cənubi Afrika Respublikasının Prezidenti Matamela Siril Ramafoza və başqaları təbrik məktublarında əmin olduqlarını bildiriblər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti və xalqı dünyada mövcud olan çağırışların dialoq və konsensus yolu ilə həllinə bundan sonra da öz töhfəsini verəcək.

Beynəlxalq təşkilatların rəhbərlərinin təbrik məktublarında da dövlətimizin başçısının seçkilərdə inamlı qələbəsi yüksək qiymətləndirilib. Bu təbrik məktublarında vurğulanan fikirlərdən də aydın olur ki, dünyanın aparıcı dövlətlərinin və təşkilatlarının rəhbərləri Prezident İlham Əliyevin qətiyyətli, uzaqgörən, xalqının maraqlarını hər şeydən üstün tutan, ölkəsinin rifahı üçün daim çalışan lider olmaqla yanaşı, həmçinin beynəlxalq arenada baş verən proseslərə təsir göstərən dövlət xadimi kimi fəaliyyətini yüksək qiymətləndirir, onunla bundan sonra da işləmək arzusundadırlar.

İlin əlamətdar siyasi hadisələrindən biri də VII çağırış Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi olub. Bu seçkilər Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsindən sonra ilk parlament seçkiləri idi. Beləliklə, Azərbaycanda ilk dəfə parlament seçkiləri işğaldan azad edilmiş bölgələrimiz daxil olmaqla ölkəmizin bütün ərazisində baş tutub. Azərbaycanın müstəqilik tarixində bütün ərazilərimizi əhatə edən seçkilərin keçirilməsi yaddaşlara əbədi həkk olunan tarixi hadisədir. Bu seçkilər də azad və şəffaflığına, demokratikliyinə və mütəşəkkilliyinə görə beynəlxalq aləmin diqqət mərkəzində olub.

## İqtisadi və sosial sahələrdə əldə edilmiş uğurlar

Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasını şərtləndirən əsas amillərdən biri də ölkənin güclü iqtisadiyyata malik olmasıdır. Obrazlı desək, güclü iqtisadiyyat Azərbaycanın milli maraqlara uyğun siyasət aparmasının təminatçısı, ölkəmizin regionda və dünyada söz sahibi, bütün qlobal əhəmiyyətli nəqliyyat və enerji layihələrinin təşəbbüskarı və iştirakçısı olmasının açarıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyat və sosial həyat sahələrində əldə olunmuş uğurlar Azərbaycanın 2024-cü ildə inkişaf salnaməsinin parlaq səhifələrindən biridir.

Cari ildə iqtisadi və sosial inkişafı təmin edən addımlardan biri dövlətimizin başçısının yanvar ayında Lənkəran və Neftçala rayonlarına səfəri olub. Səfər zamanı dövlətimizin başçısı bir neçə müəssisənin fəaliyyəti ilə tanış olub, əhalinin əsas sosial qayğılarından olan su təchizatı sistemlərinin istismara verilməsi tədbirində iştirak edib.

Bu il ölkəmizdə önəmli sosial-iqtisadi hadisələrdən biri də Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlinin qoyulması olub. Faktiki olaraq kanal yenidən inşa ediləcək. Beləliklə, 120 kilometrlik kanalın uzunluğu təxminən iki dəfə artırılacaq və 200 kilometrdən çox olacaq. İcra edilən yeni layihə 230 min hektar əkin sahəsini əhatə edəcək. Bunun böyük hissəsi yeni suvarılacaq əkin sahələridir. Əgər əvvəlki dövrlərdə bu kanal 8 rayonu əhatə edirdisə, indi 10 rayonu əhatə edəcək və kanalın son nöqtəsi Hacıqabul gölü olacaq. Hacıqabul gölü də 10 ildən çoxdur ki, tamamilə quruyub. Kanal istifadəyə veriləndən sonra göl dolacaq və bunun da təbiətə çox müsbət təsiri olacaq. Bu, bir daha onu göstərir ki, Azərbaycanda həyata keçirilən infrastruktur layihələrinin əsas məqsədi ölkəmizin sürətli inkişafını təmin etmək, insanların rifah halını yaxşılaşdırmaq, xüsusilə bölgələrdə yaşayanların məşğulluğu üçün şərait yaratmaqdır.

Bu il Azərbaycan iqtisadiyyatı üçün gözləntilər, əldə edilmiş nəticələr və iqtisadi göstəricilər dövlətimizin başçısının proqnozlarını doğruldub. Prezident İlham Əliyev iqtisadi məsələlərə həsr olunmuş müşavirədə çıxışı zamanı bu məsələyə toxunaraq il ərzində Azərbaycanın iqtisadi artım templərinin inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələdiyini vurğulayıb. Dövlətimizin başçısının həyata keçirdiyi siyasət nəticəsində 2024-cü ilin 11 ayında iqtisadi artım 4,1 faiz təşkil edib, o cümlədən qeyri-neft sektoru 6,4 faiz artıb. Ölkənin strateji valyuta ehtiyatları 72 milyard ABŞ dollarını ötüb. Azərbaycanın birbaşa xarici dövlət borcu ümumi daxili məhsulun (ÜDM) cəmi 7,3 faizini təşkil edir. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir.

Xarici sərmayələrin ölkəmizə, xüsusilə qeyri-neft sektoruna cəlb edilməsi üçün bir çox təşviq layihələri həyata keçirilir. Ənənəvi sənaye mərkəzlərimizdə, sənaye parklarımızda yeni müəssisələr açılır. Eyni zamanda, azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parkları yaradılır.

(ardı 7-ci səhifədə)

# Azərbaycanın inkişaf salnaməsinə 2024-cü ildə yazılan uğur səhifələri

(əvvəli 6-cı səhifədə)

Əsas hədəfin Azərbaycan iqtisadiyyatını daim şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirmək olduğunu vurğulayan Prezident İlham Əliyev deyib ki, biz vətəndaşlarımızın rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik və edəcəyik.

Bütün bunlar sübut edir ki, artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Azərbaycan öz resurslarına arxalanaraq güclü və müstəqil iqtisadiyyat qurub, heç kimdən asılı deyil. İqtisadi müstəqillik təbii olaraq ölkəmizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırıb və bundan sonra da qazandıracaq.



## Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası istiqamətində görülən işlər

İşğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, şəhərlərin, kəndlərin yenidən tikilməsi, əhalinin Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən məskunlaşdırılması, həmin bölgələrdə sosial-iqtisadi infrastrukturun yaradılması Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdəndir. Bu istiqamətdə işlər cari ildə də yüksək sürətlə və keyfiyyətlə davam etdirilib. Prezident İlham Əliyev Qarabağa və Şərqi Zəngəzura müntəzəm səfərləri zamanı bərpa-quruculuq işləri ilə tanış olub, yaşayış məntəqələrinin, vacib infrastruktur obyektlərinin açılışlarında, təməlqoyma mərasimlərində iştirak edib.

Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərə 2024-cü ildə ilk səfərini fevralın 26-da Xocalı şəhərinə edib. Prezident İlham Əliyev burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, sonra Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyub, sakinlərlə birlikdə şəhərdə aparılan tikinti işlərinin gedişi ilə tanış olub.

Prezident İlham Əliyev və Azərbaycana səfərə gələn Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev martın 12-də Füzuli rayonunda olublar. Füzuli şəhərinin Baş planı ilə tanış olan dövlət başçılarına məlumat verilib ki, 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Azərbaycan və Qazaxıstan prezidentləri Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər. Həmçinin prezidentlərə Füzulidə inşa olunacaq Mərkəzi Rayon Xəstəxanası barədə məlumat verilib. Bildirilib ki, 180 çarpayılıq yeni xəstəxananın inşasında Qazaxıstanın "BI Group" şirkəti də iştirak edəcək.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin yenidən qurulması işinə Özbəkistan və Qazaxıstanla bərabər Qırğızıstan da fəal şəkildə qoşulub. Belə ki, aprelin 25-də Prezident İlham Əliyev və Prezident Sadır Japarov Ağdamın Xıdırlı kənd tam orta məktəbin təməlini qoyublar. Bu məktəb Qırğızıstan Prezidentinin təşəbbüsü ilə inşa olunur.

Mayın 10-da – ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günündə də Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqlarımıza səfər edib. Dövlətimizin başçısı bu səfərdə Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunda inşa edilmiş birinci tunelin, Şuşada "Şirin su" hamamının, Mamayı məscidinin açılışlarında iştirak edib, şəhərdə inşa olunacaq üçüncü yaşayış kompleksinin və Turşsu qəsəbəsinin təməllərini qoyub.

Bu səfəri daha əlamətdar edən hadisə isə Şuşada birinci yaşayış kompleksinin açılışı və şəhərə köçmüş ilk sakinlərlə görüş olub. Görüşdə diqqətə çatdırılıb ki, ilkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən 20 ailə olmaqla 88 nəfər köçürülüb. İyirmi üç binadan ibarət yaşayış kompleksində 450 mənzil var. Şuşaya ilk köç edən ailələrlə görüşən dövlətimizin başçısı mənzillərin açarlarını sakinlərə təqdim edərək deyib: "Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq – ən müasir, ən rahat, ən gözəl. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar müasir və eyni zamanda, ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək".

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Laçın rayonunun Sus kəndində görülmüş işlərlə tanış olub, kəndə köçmüş sakinlərlə görüşüb. Sus kəndində 60-a yaxın fərdi ev tikilib, 132 şagird yerlik orta məktəb, 50 yerlik uşaq bağçası da inşa olunub. Dövlətimizin başçısı Laçın rayonunda "Zabux" və "Qarıqışlaq" Kiçik Su Elektrik stansiyalarının açılışlarını edib.

Qeyd edək ki, Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq indiyədək Laçın şəhərində 552 ailə məskunlaşıb və 2031 laçınlının yurd həsrəti sona çatıb. Həmçinin Dövlət Proqramına əsasən rayonun Sus kəndinə 59 ailənin (214 sakin), Zabux kəndinə isə 217 ailənin (823 sakin) köçürülməsi təmin olunub.

Mayın 18-də Şərqi Zəngəzura səfər edən Prezident İlham Əliyev Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı və Maşanlı kəndlərinin, Zəngilan rayonunun Mincivan qəsəbəsinin təməllərini qoyub, "Zəngilan" və "Şayıflı" Su Elektrik stansiyalarının açılışlarını edib. Qeyd edək ki, 2040-cı ilədək Mincivan qəsəbəsində 9088 nəfər üçün 630 fərdi ev və yaşayış binalarının tikilməsi nəzərdə tutulub. Azərbaycan ilə İranın dövlət sərhədində – Araz çayı üzərində inşa edilən "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları elektrik enerjisi istehsalı və suvarma məqsədilə tikilib. Bu hidroqovşaqlar həm yaşayış məntəqələrinin elektrik enerjisi ilə təmin edilməsində, həm də əkin torpaqlarının suvarılmasında xüsusi rol oynayacaq.

On gün sonra dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərimizə yenidən səfər edib, Ağdam rayonunun Tağıbəyli, Güllücə, Nəmirli və Şotlanlı kəndlərinin təməllərini qoyub. Sonra Prezident İlham Əliyev Xocalıda 180 mənzildən ibarət 15 binada yaradılan şəraitlə tanış olub, şəhərə köçən sakinlərlə görüşüb, evlərin açarlarını onlara təqdim edib.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə növbəti səfəri sentyabrın 2-də Kəlbəcər rayonuna olub. Dövlətimizin başçısı Tərtər çayı üzərində yerləşən 22,5 MVt gücündə "Yuxarı Vəng" Su Elektrik Stansiyasının (SES) açılışını edib. İşğaldan azad edilən ərazilərin yaşıl enerji zonasına çevrilməsi istiqamətində strategiyaya uyğun olaraq tikilən bu stansiya Vətən müharibəsində Qələbəmizdən sonra regionda yaradılan ən böyük yaşıl enerji mənbəyidir.

Dövlətimizin başçısı bu səfər çərçivəsində Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin və inzibati binanın, həmçinin İstisu qəsəbəsinin təməllərini qoyub, 524 ailəlik yaşayış kompleksində tikinti işlərinin gedişi ilə tanış olub, "İstisu" mineral su zavodunun, 110/35 kV-luq "İstisu" yarımstansiyasının, 4,3 MVt gücündə "Zar" Kiçik Su Elektrik Stansiyasının (KSES-in) və 4,1 MVt gücündə "Toğanalı" KSES-in açılışlarında iştirak edib və rayon sakinləri ilə görüşüb.

Azərbaycan Prezidentinin Qarabağa və Şərqi Zəngəzura hər səfəri zamanı yeni müəssisələrin təməli qoyulur, hazır olanların açılışları edilir. Dövlətimizin başçısının sentyabrın 19–20-də Qarabağa növbəti səfəri də bu baxımdan yaddaqalan olub. Prezident İlham Əliyev Ağdam rayonunun Eyvazxanbəyli kəndinin təməlini qoyub, Kəngərli kəndində və Ağdam Sənaye Parkında görülən işlərlə tanış olub, yeni zavodların açılış mərasimlərində iştirak edib. Bu parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin məşğulluğunun artırılmasıdır.

Sentyabrın 20-də – Dövlət Suverenliyi Günündə Prezident İlham Əliyev Xankəndi şəhərində Qarabağ Universitetinin və bu ali məktəbin tələbə yataqxanasının təmirdən sonra açılış mərasimində iştirak edib, Universitetin müəllim və tələbə heyəti ilə görüşüb.

Oktyabrın 3-də Cəbrayıl rayonuna səfər edən Prezident İlham Əliyev Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olub, Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak edib. Dövlətimizin başçısı, həmçinin Cəbrayıl şəhərində "Azərsun Holdinq" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin, rayonda "Hicaz quşçuluq" müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməllərini qoyub.

Bu səfər çərçivəsində Zəngilan rayonunda da olan Prezident İlham Əliyev Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin, "Sarıqışlaq" Su Elektrik Stansiyasının açılışlarında iştirak edib, Zəngilan şəhərində beşinci və altıncı yaşayış komplekslərinin təməllərini qoyub, 104 mənzilli yaşayış və istirahət komplekslərində aparılan tikinti işlərinin gedişi ilə tanış olub.

4 Oktyabr – Cəbrayıl Şəhəri Günündə Prezidenti İlham Əliyev rayon mərkəzində inşa olunmuş yaşayış kompleksinin açılışında iştirak edib, yeni evlərə köçən sakinlərə mənzillərin açarlarını təqdim edib. Qeyd edək ki, ümumi sahəsi 7,9 hektar olan bu kompleksdə tikilmiş beşmərtəbəli və dördmərtəbəli 33 yaşayış binasında 712 mənzil var.

Göründüyü kimi, işğaldan azad edilmiş ərazilərdə şəhərlərin və kəndlərin bərpası sürətlə davam etdirilir. Nəhəng vəsait və qüvvə tələb edən bu işləri Azərbaycan öz imkanları hesabına həyata keçirir. Yaxın üç ildə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağa və Şərqi Zəngəzura 140 min insanın köçürülməsi planlaşdırılır. Bu fakt ölkəmizin ildən-ilə artan iqtisadi gücünün daha bir əyani göstəricisidir. Hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgələrdə reallaşdırılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

## Beynəlxalq aktorların Azərbaycana marağını artıran görüşlər

Cari il, eyni zamanda, Azərbaycana gələn yüksəksəviyyəli qonaqların sayı və təmsil etdikləri ölkələrin müxtəlifliyi ilə də zəngin olub. Belə ki, ilin əvvəlindən indiyədək Azərbaycan Prezidenti İlham Əliyev təqribən 200-ə yaxın xarici qonaq qəbul edib ki, onlardan da 50-dən çoxu Prezident, Baş nazir və beynəlxalq təşkilat rəhbəridir. Bu rəqəmlər özlüyündə Azərbaycana beynəlxalq aləmdə marağın nə dərəcədə yüksək olduğunu nümayiş etdirir. Keçirilən görüşlərdə müzakirə olunan məsələlər həyatın demək olar bütün sahələrini əhatə edir. Onların arasında ölkəmizlə tərəfdaşlıq əlaqələri qurmaq istəyən, yaxud hazırkı əməkdaşlığı dərinləşdirmək niyyətində olan dövlətlərin nümayəndələri də yer alıblar. Bu, eyni zamanda, Azərbaycanın beynəlxalq əlaqələrinin nə dərəcədə şaxələnmiş olduğunun göstəricisidir. Məhz buna görədir ki, xarici ölkə təmsilçiləri Azərbaycanla münasibətləri daha da inkişaf etdirməkdə maraqlıdırlar.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq miqyasda rolunun güclənməsi, müstəmləkəçilikdən əziyyət çəkən ölkələrə və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək göstərməsi, həmçinin türk dövlətləri arasında əlaqələrin inkişafına verdiyi töhfələr respublikamızın dünya arenasında yerini əhəmiyyətli dərəcədə artırıb. Bu gün ölkəmizin malik olduğu bərpaolunan enerji potensialı, Şərqdən Qərbə gedən nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşməsi, özünü etibarlı tərəfdaş kimi təsdiqləməsi, eyni zamanda, Prezident İlham Əliyevin sözünün imzası qədər dəyərli olması beynəlxalq aktorları Azərbaycanla əməkdaşlığı genişləndirməyə sövq edir. Təbii ki, burada ölkəmizin regionda sülhün və sabitliyin təmin olunması istiqamətində atdığı addımlar da mühüm rol oynayır. Azərbaycan Prezidenti ilə görüşən qonaqlar arasında beynəlxalq biznes korporasiyalarının nümayəndələrinin, iş adamlarının da yer almaları Azərbaycandakı iqtisadi artımdan, sağlam investisiya mühitinin mövcudluğundan xəbər verir.

## Azərbaycanda keçirilən mühüm beynəlxalq tədbirlər

Bu il Azərbaycanda 130 beynəlxalq tədbir keçirilib. Həmin mühüm tədbirlər mövzular üzrə təsnifatlandırılsa belə bir nəticə alınar: Siyasi mövzuda 27, iqtisadiyyata dair 24, elm-təhsil və mədəniyyət sahələri üzrə 41, ekologiya ilə bağlı 19, idman üzrə 12, səhiyyəyə aid 7 beynəlxalq tədbir təşkil olunub. Bu tədbirlərin əksəriyyətində Azərbaycan Prezidenti İlham Əliyev bilavasitə iştirak edib.

Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat, 44 şirkət təmsil olunub. Tədbirdə çıxış edən dövlətimizin başçısı, yaşıl enerji üzrə qarşıda duran mühüm vəzifələrdən danışıb. Tədbir çərçivəsində yaşıl enerji sahəsində mühüm sənədlər imzalanıb.

Qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran Nizami Gəncəvi Beynəlxalq Mərkəzi artıq mühüm qlobal platformaya çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. Belə tədbirlərdən biri də Azərbaycan Prezidentinin himayəsi və Mərkəzin təşkilatçılığı ilə bu il keçirilən "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumudur. Açılış mərasimində dövlətimizin başçısının iştirak etdiyi foruma 70-dən artıq ölkədən 350-dən çox qonaq qatılıb. Forumda yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və parçalanmış dünyada sülhün təmin olunması ilə bağlı perspektivlərə nəzər salınıb, qarşıda duran çağırışların həlli yolları müzakirə olunub, dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi problemlərinə toxunulub.

Dövlətimizin başçısı ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda, Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda, Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında və "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində dərinməzmunlu çıxışlarında Azərbaycanın yaşıl dünya naminə həmrəyliyə, dünyadakı mövcud çağırışların dialoq yolu ilə həllinə verdiyi töhfələrdən, milli multikulturalizm modelinin dünyaya nümunə olmasından bəhs edib.

Azərbaycanın uğurlarının geniş coğrafiyada təbliği baxımından mühüm əhəmiyyətə malik beynəlxalq sərgilər cari ildə də davam etdirilib. Prezident İlham Əliyev və ölkəmizə səfərə gələn Belarus Prezidenti Aleksandr Lukaşenko Bakı Ekspo Mərkəzində XVII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – "Caspian Agro" və XXIX Azərbaycan Beynəlxalq Qida Sənayesi – "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar.

İlin mühüm tədbirlərindən biri isə Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz – "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – "Caspian Power" sərgiləri idi. Prezident İlham Əliyev sərgilərin rəsmi açılış mərasimində çıxış edərək Azərbaycanın yaşıl enerji gündəliyinin prioritetləri ilə bağlı fikirlərini bildirib.

Çox önəmli beynəlxalq tədbirlərdən biri də Türk Dövlətləri Təşkilatının (TDT) Xarici İşlər Nazirləri Şurasının Şuşada keçirilən qeyri-rəsmi iclası idi. Bu, TDT-nin Azərbaycanın işğaldan azad edilmiş Qarabağ torpağında baş tutan ilk yüksəksəviyyəli toplantısı olub. Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğızıstan Prezidenti Sadır Japarov, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kiprin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev iştirak ediblər. Tədbir çərçivəsində "Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi" imzalanıb.

Şuşada keçirilən daha bir beynəlxalq tədbir – 2-ci Qlobal Media Forumu xüsusi qeyd olunmalıdır. "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusuna həsr olunan Forumda iştirak edən Prezident İlham Əliyev sualları cavablandırıb. 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyinin, 3 beynəlxalq təşkilatın və 82 media qurumunun nümayəndələrinin qatıldığı Forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayıb.

Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdən biri də Prezident İlham Əliyevin tanış olduğu "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları sərgiləri idi.

Bu tədbirlər sübut edir ki, artıq beynəlxalq aləmdə əsas aktorlardan birinə çevrilən Azərbaycan bu istiqamətdə qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir.

## Nailiyyətlərin qazanılmasının əsas amilləri – cəmiyyətdə birlik və harmoniya

Azərbaycanda həyatın bütün sahələrində nailiyyətlərin əldə olunmasının əsas amilləri xalq-iqtidar birliyi, cəmiyyətin ictimai şüurunda formalaşmış azərbaycançılıq təfəkkürünün möhkəmlənməsi və harmoniyadır. Bu baxımdan, 2024-cü ili Azərbaycan cəmiyyətinin həyatında yeni dövrün başlanğıcı hesab etmək olar. Xalqımız yeni dövrə alnıaçıq, üzüağ daxil olub, ona görə ki, hər kəs üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlib. Cəmiyyətimizdə hökm sürən müsbət ab-hava dövləti gücləndirən əsas amillərdən biridir. Prezident İlham Əliyev bu amili yüksək qiymətləndirərək deyib: "Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik". Buna görədir ki, Azərbaycan bu gün sabitlik, təhlükəsizlik adası, əmin-amanlıq, iqtisadi inkişaf ölkəsidir. Bütün bunların təməlində xalqın öz dövlətini dəstəkləməsi və dövlətin də milli mənafelərə uyğun siyasət həyata keçirməsi dayanır. Dövlətimizin başçısı çıxışlarında da bildirir ki, ölkəmizdə sabitliyin təminatçısı Azərbaycan xalqıdır və dövlətin siyasətidir.

Beynəlxalq aləmdə güclü və nüfuzlu dövlət kimi tanınan müstəqil Azərbaycanda bu gün mövcud olan tolerantlıq mühiti də dünya ölkələrinə nümunədir. Azərbaycançılıq ideologiyası və prinsipləri ölkəmizdə çoxdan bərqərar olub. Bu ideologiya respublikamızda müxtəlif xalqların, konfessiyaların nümayəndələrinin qarşılıqlı anlaşma və harmoniya şəraitində yaşamalarına və ölkənin gələcəyi naminə birgə çalışmalarına zəmin yaradıb. Azərbaycanda bütün xalqlar vahid, mehriban ailə kimi yaşayır. Prezidentin qeyd etdiyi kimi, Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir.

Ölkəmizdəki bugünkü sabitliyin, cəmiyyətin daxilində və dövlət-cəmiyyət münasibətlərindəki harmoniyanın təməlində milli və mənəvi birlik dayanır. Bu birlik vətəndaşlıq, dünyəvilik, tolerantlıq, çoxmədəniyyətlilik, vətənpərvərlik, ədalət kimi dəyərlərə söykənir. Təbii ki, bu birliyi və harmoniyanı Qarabağ Zəfəri daha da möhkəmləndirib. Azərbaycan Prezidenti bu barədə deyib: "Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik".

Bu gün əminliklə deyə bilərik ki, ölkəmizdə möhkəm ictimai-siyasi birliyə, həmrəyliyə, harmoniyaya əsaslanan Azərbaycan modeli formalaşıb. Bu model Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə, demokratik və iqtisadi cəhətdən tərəqqisinə böyük töhfələr verir.

Qeyd edək ki, 2024-cü il Azərbaycan üçün Prezident İlham Əliyevin liderliyi ilə hərtərəfli tərəqqi və uğur ili kimi tarixə yazılacaq. Ölkə daxilində sosial-iqtisadi sahələrdə əldə olunan nailiyyətlər, beynəlxalq arenada artan nüfuz və işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa işləri Azərbaycanın inkişaf modelinin səmərəliliyini bir daha nümayiş etdirib.

# AİB rəqəmsal quruma kredit verib

**Avropa İnvestisiya Bankı (AİB) ölkəmizdə ilk dəfə olaraq dövlət sektorunda rəqəmsal infrastrukturun inkişafı üçün kredit ayırıb. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki “AzInTelecom” MMC-dən məlumat verilib.**




Bildirilib ki, “AzInTelecom”un iki yeni data mərkəzinin tikintisi üçün sərf olunacaq kreditin məbləği 43 milyon avrodur. Layihənin məqsədi dövlət şirkəti tərəfindən təqdim olunan “bulud” xidmətlərini daha da genişləndirmək və əlçatanlığını təmin etməkdir.

Kredit sazişinin təsdiqlənməsi ilə bağlı keçirilən imzalanma mərasimində çıxış edən AİB-nin vitse-prezidenti Teresa Çervinska Azərbaycanın dövlət sektoruna ilk kredit dəstəyini rəsmiləşdirməkdən məmnun olduqlarını bildirib: “Məlumat əlçatanlığının təkmilləşdirilməsi və davamlı rəqəmsal transformasiyanın təşviqi Avropa İnvestisiya Bankının əsas prioritetləri sırasındadır. İnnovasiya və şəffaflığa yönəlmiş bu sərmayə təkcə dövlət idarəçiliyinin müasirləşdirilməsinə deyil, həm də davamlı iqtisadi artıma və sosial tərəqqiyə töhfə verəcəkdir”.

Azərbaycan tərəfdən müqaviləni imzalayan “AzInTelecom” MMC-nin İdarə Heyətinin sədri vəzifəsini icra edən Elxan Əzizov isə bildirib ki, bu layihə ölkədə gedən rəqəmsal transformasiyaya mühüm təkan verəcək. Layihənin reallaşması ilə istər kiçik, istərsə də böyük qurumlar üçün “bulud” xidmətlərinin daha da əlçatan olacağını bildirən E. Əzizov bu addımın ölkəmizdə rəqəmsal ekosistemin inkişafına birbaşa müsbət təsirini göstərəcəyini vurğulayıb. Onun sözlərinə görə, Abşeron və Hacıqabul rayonlarında tikilməsi nəzərdə tutulan hər iki data mərkəzinin inşası “yaşıl” texnologiyalar əsasında aparılacaq.

Bu təşəbbüs Avropa İttifaqının Şərq Tərəfdaşlığı üçün İqtisadi və İnvestisiya Planına, eləcə də “Global Gateway” strategiyasına uyğun olaraq həyata keçirilir. Eyni zamanda, Avropa İttifaqının regionda dayanıqlı inkişafı və rəqəmsal transformasiyanı təşviq etmək öhdəliyini vurğulayır.

Xatırladaq ki, “AzInTelecom” MMC Azərbaycanın ən böyük “bulud” provayderi, Cənubi Qafqazda isə data mərkəzləri ilə bağlı beynəlxalq nüfuzlu “TIER 3” sertifikatını alan ilk qurumdur. Şirkət hazırda Bakı və Yevlax şəhərlərində yerləşən data mərkəzləri üzərindən dövlət və özəl sektorda 200-dən çox quruma “bulud” xidmətləri göstərir.

Yeri gəlmişkən, Avropa İnvestisiya Bankı 2024-cü ildə Azərbaycana 53 milyon avro məbləğində kredit verib. Xatırladaq ki, bank bu ilin mart ayında Qafqaz ölkələrində kiçik və orta sahibkarlıq subyektləri ilə əməkdaşlıq təşəbbüsü çərçivəsində ölkəmizə 10 milyon avro həcmində kredit xətti ayırıb. Layihə kiçik maliyyə vasitəçilərinə hazırda maliyyəyə çıxışda çətinlik çəkən mikro, kiçik və orta müəssisələrə bu resursu təmin etmək məqsədi daşıyır. Bankın 2013–2023-cü illər ərzində Azərbaycana 5 layihə üzrə ayırdığı kreditin həcmi 110 milyon avro təşkil edib. Avropa İnvestisiya Bankı dövlət sektorunda rəqəmsal infrastrukturun inkişafı üçün ayırdığı kreditlə isə ölkəmizdə investisiya portfelini 7 layihə üzrə 160,5 milyon avroya çatdırıb. Bu da cari ilin əvvəli ilə müqayisədə 45,5 faiz çoxdur.

# Türkiyə şirkəti Sumqayıtda

**Türkiyənin “Eurotec Group” şirkətinə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib, bununla da sənaye parkının rezidentlərinin sayı 42-yə yüksəlib.**

Nazirlikdən qəzetimizə verilən məlumata görə, yeni rezident sənaye parkının 2 hektar ərazisində ildə 200 min ədəd metal çəllək istehsal etmək gücündə olan zavod quracaq. İnvestisiya həcmi 9 milyon manat olan müəssisədə 120 nəfərlik daimi iş yeri yaradılacaq. Belçikanın qabaqcıl texnologiyası əsasında fəaliyyət göstərəcək zavodda buraxılacaq məhsullar daxili bazarın tələbatını ödəməklə bərabər, xarici ölkələrə də ixrac ediləcək.

Xatırladaq ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkında indiyədək 12,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, bunun da 4,37 milyard manatlıq hissəsi ixracın payına düşüb.

İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, Cənubi Qafqazın ən böyük istehsalat zonası sayılan bu parka rezidentlər tərəfindən ötən müddətdə 5,5 milyard manat sərmayə yatırılıb, 6600-dən çox daimi iş yeri yaradılıb. Gələcəkdə isə mövcud layihələr üzrə parka əlavə olaraq 546 milyon manat investisiyanın yatırılması, bunun da hesabına 2500-dən artıq iş yerinin yaradılması nəzərdə tutulub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən vacib istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. İqtisadiyyatın inkişaf vektorlarının dayanıqlı mənbələr hesabına qlobal çağırışlara uyğunlaşdırılması qeyri-neft sənayesinin gücləndirilməsinin önəmini artırır. Buna görə də mövcud təbii və iqtisadi resurslardan səmərəli istifadə olunması, innovativ metodların cəlb edilməsi ilə sənaye istehsalının artırılması, yeni sənaye sahələrinin yaradılması, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli məhsul istehsalı, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli layihələr gerçəkləşdirilir.




Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədilə uğurlu sənayeləşmə siyasəti həyata keçirilir. Bu məqsədlə ölkənin müxtəlif bölgələrində sənaye parkları və məhəllələri yaradılır. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsalında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir.

Hazırda ölkədə 8 sənaye parkı fəaliyyət göstərir. Bunlar Sumqayıt kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarıdır. Bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərurda 4 sənaye məhəlləsi də fəaliyyət göstərir.

Sənaye zonalarında sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlər təbiqi diqqətdə saxlanılıb. Belə ki, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastruktura – qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilir. Onlar qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunur.

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma aiddir.

# Bakıda Aqrar Forum

**Kənd Təsərrüfatı Nazirliyi Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı, Azərbaycan Dövlət Aqrar və Texnologiya universitetlərinin birgə tərəfdaşlığı ilə Bakıda “3-cü Aqrar İnnovasiya və Startaplar Forumu” keçirilib.**



Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, forum aqrar startapçıların innovativ həll və texnologiyalarının nümayişindən ibarət sərgi bölməsindən və rəsmi hissədən ibarət olub. Tədbirdə Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Forumu giriş nitqi ilə açan kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən aqrar sektorun inkişafının prioritet elan edilməsi, çoxşaxəli dövlət dəstəyi sisteminin yaradılması və ardıcıl olaraq genişləndirilməsi aqrar sahənin uzunmüddətli dinamik inkişafını təmin edir. Qeyd olunub ki, iqtisadiyyatın digər sahələrində olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların tətbiqi, mütərəqqi həllər və texnologiyalardan daha geniş istifadənin təmin olunması istiqamətində zəruri tədbirlər həyata keçirilir. Nazirin sözlərinə görə, innovasiyaların tətbiqi aqrar sahədə torpaq və su resurslarını qorumağa və onlardan səmərəli istifadə etməyə əlverişli imkan yaradır, məhsuldarlığı artırır, ətraf mühitin mühafizəsi işinə mühüm töhfələr verir.

Diqqətə çatdırılıb ki, ölkədə aqrar sahənin inkişafı ilə bağlı aparılmış ardıcıl və sistemli islahatların davamı olaraq Kənd Təsərrüfatı Nazirliyinin təşəbbüsü və Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə startapların xarici bazarlara çıxışını asanlaşdırmaq üçün müxtəlif layihələr icra olunur, aqrar startapçıların iqlim dəyişikliyinə adaptasiya edən torpaq və resursqoruyucu yeni texnologiyalar, nəmlikqoruyucu innovativ yeniliklər ağıllı həllərin beynəlxalq və yerli şirkətlərə, sahibkarlara və geniş kütləyə nümayiş etdirilməsinə şərait yaradılır. Bununla yanaşı, aqrar innovasiyaların gənclər arasında təbliği və təşviqi məqsədilə müsabiqə, yarışma və hakatonlar təşkil olunur.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov isə bildirib ki, aqrar startaplar kənd təsərrüfatında rəqabət qabiliyyətini artırmaq üçün böyük potensiala malikdir. Onun sözlərinə görə, startaplar texnologiyaları və kreativ həlləri ilə aqrar sektorun inkişafına töhfə verirlər. O, KOBİA-nın aqrobiznesi prioritet sahə kimi diqqətdə saxladığını, bu sahənin nümayəndələri üçün müasir çağırışlara uyğun təlimlərin təşkil olunduğunu, məsləhət xidmətləri göstərildiyini, agentlik tərəfindən onlara “Startap” şəhadətnaməsinin verildiyini və qrant dəstəyi göstərildiyini diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov, Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov ölkəmizdə aqrar startap ekosisteminin inkişafı ilə bağlı fikirlərini bölüşüblər. Natiqlər aqrar startapçılar və inkubasiya, akselerasiya mərkəzləri arasında əlaqələndirici rol oynayan forumun startapların əhatə dairəsinin və xarici bazarlara çıxış imkanlarının artırılmasına birbaşa təsirinin olacağını vurğulayıblar.

Aqrar startaplar haqqında videoçarxlar nümayişindən sonra forum öz işini panel müzakirələrlə davam etdirib. Panellərdə “Aqrar startaplar ekosisteminin inkişafı”, “Aqrar sektorda tətbiq olunan mütərəqqi texnologiyalar”, “Ağıllı əkinçilik və gələcəyin dəqiq kənd təsərrüfatı uğur qazanmış startaplar” mövzularında fikir mübadiləsi aparılıb.

Forumun sərgi hissəsində müxtəlif müsabiqə və yarışların qalibləri olan startapçılar tərəfindən plastik tullantıların təkrar emalından hazırlanmış səki daşları, alternativ enerji mənbələrindən alınan bioqaz, hidrogen qazı, ağıllı istixanalar üçün idarəetmə sistemi, lazer sistemi vasitəsilə sahələri alaq otlarından təmizləyən aqrorobot, iqlim stansiyaları, süni intellekt tətbiq olunmuş suvarmanı idarəetmə sensorları, heyvandarlıq təsərrüfatları üçün ağıllı tasma, cərgəarası aqrorobot, eləcə də ziyanvericiləri zərəsizləşdirən və qəza mərhələsini müəyyən edən cihazlar sərgilənib. Bununla yanaşı, yerli şirkət nümayəndələri tərəfindən kənd təsərrüfatı təyinatlı pilotsuz uçuş aparatları, zərərvericilərin populyasiyasını müəyyən edən iqlim stansiyaları şirkətlərin innovativ fəaliyyətləri barədə təqdimatlar keçirilib.

# Azərbaycanın qeyri-neft ixracı artıb



**Ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər qeyri-neft sektorunda məhsul istehsalının artmasına səbəb olub. Bu da ixracın strukturunun genişləndirilməsinə imkan yaradıb.**

İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) məlumatına görə, 2024-cü ilin yanvar-noyabr aylarında Azərbaycanın qeyri-neft ixracının dəyəri 3 milyard 90,6 milyon ABŞ dolları təşkil edib. Nəticədə, Azərbaycanın qeyri-neft ixracının dəyərində rekord göstərici qeydə alınıb.

Yeri gəlmişkən, cari ilin yanvar-noyabr aylarında qeyri-neft məhsullarının ixracında qeydə alınmış göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz çox olub. Xatırladaq ki, 2023-cü ildə Azərbaycandan 3 milyard 348 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac edilib.

# 11 ayda 2,5 ton qızıl

**2024-cü ilin yanvar–noyabr ayları ərzində Azərbaycanda 2,5 tondan çox qızıl, 3 tondan çox gümüş istehsal edilib.**



Dövlət Statistika Komitəsinin məlumatında daha sonra bildiriliur ki, ölkədə qızıl istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz artıb, gümüş istehsalı isə 19,6 faiz azalıb.

# “Kənddən şəhərə” bayram yarmarkası

**Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Aqrar Tədarük və Təchizat” Açıq Səhmdar Cəmiyyətinin təşkilatçılığı ilə Bakıda sayca 7-ci “Kənddən şəhərə” yeni il yarmarkası fəaliyyətə başlayıb. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təşkil olunan yarmarka dekabrın 30-dək davam edəcək.**




Yarmarkanın əsas məqsədi kiçik və orta fermer təsərrüfatlarında istehsal olunan məhsulların bazara çıxışını dəstəkləmək, fermerlərə alternativ satış kanalları təqdim etmək və bayram ərəfəsində şəhər sakinlərini yerli, keyfiyyətli və münasib qiymətə məhsullarla təmin etməkdir.

Yarmarkada ölkənin 30 şəhər və rayonundan gələn 100-ə yaxın fermer təsərrüfatlarında yetişdirdikləri 100-dən artıq məhsul çeşidini satışa çıxarıb. Alıcılara təqdim olunan məhsulların keyfiyyətinə isə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edir. Məhsulların keyfiyyəti ilə bağlı sualı yaranan vətəndaşlar yarmarkada fəaliyyət göstərən səyyar qida laboratoriyasına müraciət edə edə bilərlər.

Qeyd edək ki, paytaxtın Nərimanov rayonu Fətəli xan Xoyski küçəsi, 5 (metronun “Gənclik” stansiyasının çıxışı, Atatürk parkının qarşısı) ünvanında yerləşən yarmarkada fermerlər satış üçün yer, piştaxta, tərəzi və digər lazımi avadanlıqlarla ödənişsiz şəkildə təmin olunurlar.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

Təqvim yada salır

# Mətbuat fədaisi



**Hansı quruluşda yaşamasından asılı olmayaraq, insan öz dövrünün övladıdır. Onun çərçivəsində yaşayıb yaratmaq, millətə, məmləkətə xidmət etmək hər kəsə nəsib olmur. Yalnız vaxtı, zamanı həqiqətə kökləyən az-az insanlar olur ki, onların ağlı, iradəsi, fəhmi ilə zamanın, quruluşun siyasi mənzərəsi dəyişir. Adı mətbuat tariximizə əbədi düşən görkəmli jurnalist, ictimai xadim, pedaqoq, "Bakı" və "Baku" axşam qəzetlərinin yaradıcısı və 30 ilədək redaktoru olmuş Nəsir İmanquliyev belə şəxsiyyətlərdəndir.**

Müəllimliyi, alimliyi, publisistikası, peşəkar jurnalistlik, təşkilatçılıq, redaktorluq məharəti ilə məşhur olan Nəsir müəllimin həyat və yaradıcılığını mərhələlərə böləndə, onu 20-30-cu, 40-50-ci, 60-90-cı illər jurnalistikasının, ictimai-siyasi proseslərin, elmi-pedaqoji yeniliklərin, maarifçilik hərəkatının önündə görürük. Onun "Gənc işçi", "Yeni yol", "Kommunist", "Döyüşən Krım", "Radio proqramı", "Bakı" və "Baku", "Vətənin səsi" qəzetlərini, Bakı Dövlət Universiteti, Bakı Şəhər Soveti, Azərbaycan KP Mərkəzi Komitəsi, Radioinformasiya Baş İdarəsi, Radio və Televiziya Komitəsi, Jurnalistlər İttifaqı, Veteranlar Şurasını əhatə edən çoxşaxəli fəaliyyəti, siyasi rejimlərdən asılı olmayaraq, milli-mənəvi dəyərlərimizin qorunmasına, inkişafına, yaddaşa qayıdış ideologiyasının formalaşmasına təkan verdiyinin şahidi oluruq. Quruluşundan, zamanından asılı olmayaraq professor Nəsir İmanquliyev peşəkarlığına, müəllim, alim, jurnalist ucalığına söykənib, ictimai-siyasi proseslərin önündə gedib, hadisələri qabaqlayıb, xalqı səfərbər edib. Dövlətə, dövlətçiliyə sədaqət hissi nümayiş etdirib. Haqqın, ədalətin, haqlının yanında olub. Hadisələrə dəqiq, qərəzsiz, vicdanlı münasibət sərgiləyib. Sözün dəyərini, əyarını artırmaq üçün düzü düz, əyrini əyri yazıb. Hansı vəzifədə işləməsinə, hansı quruma rəhbərlik etməsinə baxmayaraq, simasını, şəxsiyyətini qoruyub. Şəxsiyyəti ilə sənəti arasında vəhdət yaradıb. Mənəvi saflıq rəmzinə, peşəkarlıq nümunəsinə çevrildiyindən ölkəyə rəhbərlik edən müxtəlif dövlət başçılarının zamanında ehtiramla qəbul edilib, vəzifə pillələrində irəliyə çəkilib.

Xeyirxahlığı, nəcibliyi ilə insanlara örnək olan Nəsir müəllim hansı vəzifəni icra etməsindən asılı olmayaraq, pedaqoq Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli, Nəriman Nərimanov kimi insanlara nur, işıq bəxş edib. Auditoriyalarda payladığı nuru mətbuat səhifələrinə gətirib. Hər bir pedaqoq ruhunun davamçılarını auditoriyalarda tapır. Onların inkişafına nail olmaqla xalqına, dövlətinə xidmətdə bulunur.

Nəsir müəllimin xoşbəxtliyi onda idi ki, onun iki böyük auditoriyası var idi. Biri Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi, digəri də "Bakı" və "Baku" axşam qəzetlərinin redaksiyası. O, hər iki auditoriyada əzəmətli, məğrur, müdrik müəllim, işıq, nur paylayan ziyalı idi. Hər iki auditoriyada onu səbirsizliklə, hörmətlə gözləyirdilər. Çünki o, düz olanı, dəqiq olanı, cəmiyyətə, xalqa faydalı, gərəkli olanı yazırdı və yazdırırdı. İnsanı, oxucunu səfərbər edirdi...

Çox az-az insanlar olur ki, dünyasını dəyişdikdən sonra xoş xatirələri qalır, doğmaları, yetirmələri onun əməllərini, işıqlı, nurlu yolunu ləyaqətlə davam etdirir, yaşadırlar.

Bugünkü qəzet bolluğunda imzası ilə seçilən jurnalistlər var ki, onlar da məhz: "yazmazdan öncə özünüzü o adamın yerinə qoyun, görün sizin haqqınızda belə bir yazı çıxsaydı, sizə necə təsir edərdi, siz hansı hissləri keçirərdiniz" – deyib klassikləşən müasirimizə çevrilən professor Nəsir İmanquliyevin bulağından su içiblər.

Alimin, ustadın ömrü onun əsərlərinin, şagirdlərinin qüdrəti ilə ölçülür. Ruhunu yetirmələrinin ruhuna, kitablarına köçürən Nəsir müəllim Tanrının xoş saatında xəlq etdiklərindən idi. Tanrı ona üzünün nurundan, işığından, könlünün mehr-məhəbbətindən, qəlbinin sevgisindən pay vermişdi.

Qılıncın qələmlə əvəz olunduğu XX yüzildə dünyaya gələn Nəsir müəllim ömrünün yarısından çoxunu "Qələm və Kəlam" müqəddəsliyinə bağışladı. Özünü, ruhunu sözə köçürdü. Haqdan, ədalətdən, ağlının, istedadının hökmündən dastan bağladı, əməlləri, sevgiləri ilə yaddaşlara yazıldı.

1941-1945-ci illər müharibəsi başlananda Nəsir müəllim o dövrkü Azərbaycanın baş mətbu orqanında – "Kommunist" qəzetində məsul katib vəzifəsində işləyirdi. 1942-ci ilin yanvarında isə hər şey dəyişdi. Qarlı bir qış günündə çağırış vərəqini cibinə qoyan Nəsir İmanquliyev döyüşən ordu sıralarına yola düşdü.

Tale onu öncə Şimali Qafqaza – Mozdoka, sonra isə Ukrayna–Krım cəbhəsinə gətirdi. Qələmini süngüyə, yazı masasını barıt qoxulu səngərlərə dəyişən Nəsir müəllim üzünü süngüyə söykəyərək hər gün yazılan yeni qəhrəmanlıq dastanının altına öz imzasını qoyurdu...

Bir gün onu səngərdən hərbi hissəyə çağırıb şəxsi işi ilə tanış olduqlarını bildirdilər. Yazı-pozu adamı, ədəbi işçi və tərcüməçi kimi daha çox lazım olduğunu söylədilər. Və beləcə, onun "söz də səngərdir" hikməti yarandı. Öncə mütərcimlik edən əsgər Nəsir İmanquliyev çox keçmir ki, cəbhə yoldaşlarının hərbi-vətənpərvərlik ruhunu formalaşdırmaq üçün hərbi hissə komandirinin siyasi işlər üzrə müavini təyin olunur. Təbliğat-təşviqat işləri ilə məşğul olduğu ilk günlərdən qələmindən ayrılmayan Nəsir müəllimi qarşıda daha məsuliyyətli iş gözləyirdi.

Hərbi hissənin komandiri Baş Qərargahın tapşırığı ilə onu "Döyüşən Krım" qəzetinə məsul katib və köşə yazarı təyin edir. "Döyüşən Krım"da dərc etdirdiyi publisistik yazıları, Bakıya "Kommunist" qəzetinə göndərdiyi barıt qoxulu məqalələri ilə ön cəbhədən arxa cəbhəyə körpü salan Nəsir müəllimin müharibənin odu içində yazdığı yazıların hər birində milli vətənpərvərlik, azərbaycançılıq ruhu var idi. Azərbaycanlılardan təşkil olunan məşhur 416-cı diviziyanın əsgərlərinin həyatından, döyüş yolundan bəhs edən, maraqlı, oxunaqlı oçerkləri, reportajları, müsahibələri ilə əsl azərbaycanlı obrazını yaradan Nəsir müəllimin o vaxtlar 31 yaşı olsa da, tale onu çox sınaqlara çəkmişdi. Bərkə-boşa salmışdı. Qələmini süngüyə çevirən bu vətənpərvər jurnalist bir ömürdə yüzlərlə döyüşçünün ömrünü yaşamışdı.

Artıq tarixə, arxiv sənədlərinə qovuşan "Kommunist" qəzetinin 10 oktyabr 1943-cü il tarixli sayını vərəqləyəndə, cənub cəbhəsindən göndərilən "Cəsur döyüşçü" oçerkini oxuyanda içindən, ruhundan kədər qarışıq bir qürur, sevinc boylanır. Çünki onun qəhrəmanları da, yazarı da bu gün bizimlə olmasalar da, başı bəlalar çəkən millətimizin igid oğulları idi. Qəzetçiliyin bütün meyarlarından çıxış edilərək yazılan məqalədə, ədəbi-bədii nümunədə bir yığcamlıq, tarixilik və operativlik var.

Müharibənin od-alovuna, dəhşətlərinə baxmayaraq, bu gün çoxlarının etinasız münasibət bəslədiyi sovet hökuməti öz istedadına sahib çıxmağı bacarırdı. Dövlətçilik, təbliğat-təşviqat və sabahkı quruculuq işləri üçün daha əhəmiyyətli olan əsgəri – Nəsir İmanquliyevi arxa cəbhəyə göndərmək məqsədi ilə qərar çıxarılır. 1943-cü ilin sonunda qələmini süngüyə çevirən jurnalist ön cəbhənin vuran ürəyi, döyüş texnikasını hərəkətə gətirən, qara qızılın məskəni Bakıya, köhnə iş yerinə qayıdır. Arxa cəbhədə daha ağır yükün altına çiyin vermək üçün.

Ordudan tərxis olunduqdan sonra yenidən keçmiş iş yerinə – "Kommunist" qəzetinin redaksiyasına qayıdan Nəsir müəllim artıq məsul katib deyil, redaktor müavini vəzifəsində fəaliyyətini davam etdirir. Yenə də "müsəlləh əsgər" kimi ona tapşırılan məsuliyyətli işin öhdəsindən ləyaqətlə gəlir. Qəzetdə "Cəbhə məktubları", "Cəbhədən şeirlər" rubrikasını yaradır. Səngərdən gələn barıt qoxulu məktubların, şeirlərin dili ilə ön cəbhədən arxa cəbhəyə körpü salır. Bu məktubları oxuyan hər bir oxucu ilə yanaşı, əsgər ailələri də sevinc hissi yaşayırlar.

Nəsir müəllimin "Kommunist" qəzetindəki fəaliyyəti barədə Xalq şairi Bəxtiyar Vahabzadə xatirələrində yazır: "İkinci cahan müharibəsinin ən qızğın dövründə, yəni 1944-cü ildə "Kommunist" qəzetinin redaktoru Əli Vəliyev, redaktorun müavini Nəsir İmanquliyev idi. Nəsir müəllimi o zamandan tanıyıram. Çünki onun rəhbərliyi ilə "Kommunist" qəzetinin nəzdində ədəbiyyat dərnəyi təşkil olunmuşdu. Dərnəyi Əli Vəliyevlə, Nəsir müəllim aparırdı. Və bunların ikisində də gənclərə bir məhəbbət, qayğı hissi var idi. Gənclərin püxtələşməsində çox böyük zəhməti olan bu böyük ziyalılar bizim ilk şeirlərimizi dinləyir, qulaq asır, bəyəndikləri, məsləhət bildikləri qəzetin gələn nömrəsində çap olunurdu..."

Müharibənin odunun, alovunun yeri-göyü yandırdığı, üçkünc məktubların məmləkətin göz yaşına çevrildiyi, faşist ordusunun gəncliyi ot kimi biçdiyi bir zamanda gəncliyin qayğısına qalan, doğru yolu göstərən bir mayak, müqəddəs ruh kimi onların himayədarına çevrilən Nəsir müəllim, əslində, "Yaşıl qələm"lərdə, "Çığatay gürüngü"ndə qan gölündə boğulan, 37-ci ilin dəhşətli repressiyalarında budanan ulu, azman türkün söz sərraflarından idi. Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Balaş Azəroğlu, Mədinə Gülgün, Ənvər Məmmədxanlı kimi onlarca istedadlı şair, söz adamı da Nəsir İmanquliyevin "Ədəbiyyat dərnəyində" himayə olunur, təbliğ edilir, önündə yaşıl işıq yandırılır, geniş oxucu auditoriyasına təqdim edilirdi. Bu bir-birindən qiymətli, dəyərli ziyalılar "qonorar" kimi çoxdan leksikonumuza daxil olan ilk qələm haqqını da bu qəzetin redaksiyasında alır, az da olsa maddi sıxıntıdan qurtulurdular.

Professor Nəsir İmanquliyevin "Kommunist" qəzetindəki fəaliyyəti, dövlət, xalq üçün gördüyü böyük işlər redaktor müavininin tez bir zamanda, sözün yaxşı mənasında, Mərkəzi Komitədə hədəfə çevirir. 1946-cı ildə Mərkəzi Komitənin rəhbəri Mircəfər Bağırovun sərəncamı ilə Moskvaya Mərkəzi Qəzet kursuna göndərilən Nəsir müəllim, 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti) filologiya fakültəsinin yenicə təməli qoyulan jurnalistika bölümünə müəllim təyin olunur. 1948-ci ildə isə yenə də Mircəfər Bağırovun sərəncamı ilə Moskva Ali Partiya məktəbinə göndərilir. Peşəkar mətbuat işçisi, sədaqətli kadr, təmiz ziyalı, yüksək əxlaq və ləyaqət nümunəsi kimi yenidən Mərkəzi Komitə rəhbərinin diqqətini çəkir. 1952-ci ilin fevralında Bakı Şəhər Komitəsinin Təbliğat-təşviqat şöbəsinə öncə müdir müavini, sonra müdir təyin olunan professor Nəsir İmanquliyev bu məsuliyyətli vəzifənin öhdəsindən ustalıqla gəlir.

Elə həmin ilin iyulunda Azərbaycan KPMK-nın birinci katibi İmam Mustafayevin təqdimatı ilə Mərkəzi Komitənin Təbliğat-təşviqat şöbəsinə öncə müavin, sonra isə müdir təyin olunan Nəsir müəllim 1956-cı ilə qədər mətbuatın və mətbuat işçilərinin ideya müəllifi və himayədarı kimi dövrünün tanınmış, eyni zamanda, müdrik qərarlar verən dövlət məmurlarından, partiya-sovet maşının başında dayananlardan, fəqət vicdanını, milli mənsubiyyətini qoruyan qüdrətli ziyalılardan, unudulmaz tarixi şəxsiyyətlərdən biri olur. Mətbuatın kuratoru vəzifəsini vicdanla icra edən bu böyük şəxsiyyətin xidmətləri sayəsində onlarla mətbuat işçisi zamanın, quruluşun sərt sınaqlarından, bürokrat, "mənəm-mənəm" deyən katiblərin, partiya işçilərinin ağ ləkələrindən, qara damğalarından xilas olunur.

Ömrünü milli mətbuatımızın inkişafına, ilk mükəmməl şəhər axşam qəzetinin yaranmasına həsr edən Nəsir İmanquliyev xalqın yaddaşına təkcə jurnalist, mühərrir, pedaqoq kimi yazılmadı. Cəsarəti, fədakarlığı ilə əsl vətəndaşlıq, vətənpərvərlik, milli təəssübkeşlik nümunəsi oldu.

***Şərəf CƏLİLLİ,***
***yazıçı-publisist***

# MSK-nın növbəti iclası



**Dekabrın 21-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın 18 dekabr 2024-cü il tarixli iclasının protokolu təsdiq edilib.

Sonra 2025-ci il yanvarın 29-na təyin olunmuş bələdiyyə seçkilərində seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydası komissiya üzvləri tərəfindən müzakirə edilərək təsdiq olunub. Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin tələblərini əsas götürərək, 6 052 721 (altı milyon əlli iki min yeddi yüz iyirmi bir) seçki bülleteninin komissiyanın təmsilçiliyə uyğun 3 üzvünün müşahidəsi altında hazırlanmasına qərar verib.

İclasda daha sonra qarşıdan gələn bələdiyyə seçkilərində Respublikaçı Alternativ (REAL) Partiyası, Ağ Partiyası, Gələcək Azərbaycan Partiyası, Ədalət Partiyası, Vəhdət Partiyası, Haqq Ədalət Partiyası, Azərbaycan Demokrat Partiyası, Azad Vətən Partiyası, Müasir Musavat Partiyası və Yeni Zaman Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Komissiya üzvlərinə hər bir siyasi partiyanın MSK-ya müvafiq müraciəti barədə ayrı-ayrılıqda məlumat verilib və sözügedən siyasi partiyalar tərəfindən təqdim olunan şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

Media subyektləri təmsilçilərinin də iştirak etdiyi iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib və cari məsələlərə baxılıb.

***XQ***

# İsrail qəzeti Azərbaycanın dostudur

**İsrailin ərəb dünyası və İran üzrə tanınmış eksperti, İsrail Müdafiə Qüvvələrinin Kəşfiyyat Korpusunun sabiq polkovnik-leytenantı, bu ölkənin nüfuzlu Bar-İlan Universitetinin şərqşünaslıq elmləri üzrə professoru və universitetin Yaxın Şərq və İslam Tədqiqatları Mərkəzinin direktoru, Begin-Sadat Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçısı doktor Mordexay Kedar dünyanın ən nüfuzlu nəşrlərindən "The Jerusalem Post"da dərc olunmuş "Dinc yanaşı yaşama ölkəsi olan Azərbaycan yəhudilərə nə üçün lazımdır?" sərlövhəli məqaləsi dərc edilib. Bu barədə məlumat Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib.**




Yəhudilərin Azərbaycanda həyatına həsr olunan yazıda ilk dəfə eramızdan əvvəl VIII əsrdə Azərbaycana gəlmiş bu xalqın həmin vaxtdan antisemitizmlə qarşılaşmadan sülh və harmoniya içində yaşadığı göstərilir. Xüsusilə ötən il Azərbaycan İsraildə səfirlik açdıqdan sonra onların həyatı çiçəklənir. Müəllif qeyd edir ki, antisemit köklü nifrət və dözümsüzlüyün tüğyan etdiyi dünyada multikultural Azərbaycan əsil nümunədir. Yəhudilərin və müsəlmanların bir-birinin bayramlarını qeyd edərək dinc yanaşı yaşamağına və dostluğuna aşkar misaldır. Bakı, Quba, Oğuz, Gəncə və Azərbaycanın digər şəhərlərində məktəbdən evə qayıdan yəhudi uşaqlar təqib edilmirlər. Onlar öz mədəniyyətlərini və həyat tərzlərini Azərbaycanda yaşayan digər xalqlar və dini qruplarla bölüşməyə təşviq olunurlar.

Azərbaycanın İsrail ilə münasibətlərinə toxunan professor sonuncunun neftə olan tələbatının 40 faizdən çoxunun Bakı tərəfindən təmin edildiyini, burada 120-dən çox İsrail şirkətinin fəaliyyət göstərdiyini və digərlərinin də iş qurmaq niyyətində olduğunu diqqətə çatdırıb.

Müəllif sonda qeyd edib ki, yəhudilərin Azərbaycan kimi ən çətin anlarda yanında olan dostlara hər zaman ehtiyacı var.

***P.ƏMİRCANOV***
***XQ***

# DİN-in məlumatı

## *Yüksək sürət 344 nəfəri həyatdan aparıb*

**Cari ilin 11 ayı ərzində qeydə alınan göstəricilərə əsasən, yolda müəyyən edilmiş sürət həddinin aşılması, yenə də sürücülər tərəfindən ən çox yol verilən qayda pozuntusudur.**

Bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, bu səbəbdən baxılan dövrdə 505 yol-nəqliyyat hadisəsi qeydə alınıb ki, nəticədə 344 nəfər həyatını itirib, 335 nəfər isə yaralanıb.

Qarşıdan gələn bayram günlərində şəxsi avtomobillə səfərə çıxanların sayının əhəmiyyətli dərəcədə artacağı gözlənilir. Bununla yanaşı, qeyri-qanuni sərnişin daşıyan şəxslərin bayram öncəsi sərnişin axınının artmasını fürsət bilərək, məhz sürət rejiminin pozulması hesabına gün ərzində bir neçə dəfə səfərlər təşkil edəcəkləri ehtimal olunur.

Hərəkət intensivliyinin artması fonunda yolda müəyyən edilmiş sürət həddinin aşılması, yaxud sürət həddinin yol və hava şəraitinə uyğun seçilməməsi kimi kobud qayda pozuntuları isə sözsüz ki, sonda ağırlıq dərəcəsi yüksək olan yol qəzaların baş verməsinə real zəmin yarada bilər.

Baş Dövlət Yol Polisi İdarəsi bir daha yüksək sürətin ağır faciələrə səbəb olduğunu xatırladır və qarşıdan gələn bayram günlərinin xoş əhvali-ruhiyyədə qeyd olunması üçün hər bir hərəkət iştirakçısını yol hərəkəti qaydalarına qeyd-şərtsiz əməl etməyə çağırır!

## *Bank kartlarının məxfiliyini qoruyun!*

**Bank işçiləri heç vaxt bankın göndərdiyi SMS-də kart kodu, PİN kodu və ya digər kod, məlumatlar tələb etmirlər. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin rəisi Elşad Hacıyev bildirib. O qeyd edib ki, yalnız fırıldaqçılar gizli kodlarla maraqlanırlar. Məhz bu üsulla, xarici nömrələrdən zəng olunmaqla, "bankdandır, bank kartınıza müdaxilə var" adı ilə talama halları var və geniş vüsət alıb.**



Həmin metodlarla dekabrın 19-20 tarixlərində ayrı-ayrı vətəndaşlara məxsus bank kartlarından 50000, 13000, 10000, 8650, 8400, 4715, 4700, 7250, 4000, 3900, 3572, 3500, 2360, 2340, 2396, 2397, 2300, 2200, 1960, 1886, 1500, 1480, 1480, 1300, 1150, 900, 850, 750, 740, 570, 410, 400, 378, 200, 170, 130, 100, 97, 51, 50 manat oğurlanıb.

"Elə zərərçəkmişlər var ki, özündə olan digər kartların da məlumatlarını verib ki, xahiş edirəm, buna da baxın, karta müdaxilə varsa, aradan qaldırın. Nəticədə həmin kartlarda olan vəsaitlər də oğurlanıb.

Heç bir halda şəxsi olan, məxfilik daşıyan bank kartı məlumatlar qarşı tərəfə - naməlum şəxsə verilə bilməz, çünki bu məlumatlarla maraqlanan şəxsin məqsədi pullarınızı talamaqdır", – deyə Elşad Hacıyev bildirib.

***XQ***

İstedadlı gənclər

# “Yüksəliş” 25 nəfəri də yüksəltdi

**Məlum olduğu kimi, 5 il əvvəl Prezident İlham Əliyevin sərəncamı ilə ölkəmizdə “Yüksəliş” müsabiqəsi təsis edilib və bundan məqsəd istedadlı gəncləri seçmək, kadr ehtiyatının inkişafı proqramına kömək etməkdən ibarətdir. Mötəbər təşkilat komitəsi hər il Azərbaycanın gələcəyini quracaq qabiliyyətli gənclərin uğurlarını dəyərləndirir. Başa çatmaqda olan 2024-cü ildə də bu ənənə davam etdirilib.**

Müsabiqənin 2024-cü il üzrə qalibləri iyul ayında final mərhələsində iştirak ediblər və 118 namizəddən ən yüksək bal toplayan 25 nəfər fərqləndirilib. Əslində, 20 qalibin seçilməsi planlaşdırılsa da, 9 nəfər eyni nəticəni göstərdiyi üçün, onların hər birinin səriştə və bacarıqları ədalətli qiymətləndirilsin deyə, qalib sayı artırılıb. Ən gənc qalibin 24, ən yaşlı qalibin isə 38 yaşı var. Onların yarıya qədəri dövlət, təxminən bir o qədəri özəl, az bir qismi isə QHT-lərdə çalışır və aldıqları 20 min manat pul mükafatı hər biri üçün maddi və mənəvi stimul olub.



Son həftələr ərzində “Yüksəliş”in seçkinləri ilə çalışdıqları sahələrdə, o cümlədən də ADA Universitetində görüşlər olub. ADA-nın rektoru, professor Hafiz Paşayev çıxışı zamanı gəncləri təbrik edib və bildirib ki, bu müsabiqə ölkənin gələcək liderlərini müəyyənləşdirmək və onların şəxsi inkişafına töhfə vermək baxımından mühüm əhəmiyyətə malikdir.

İlayrıcında qaliblərdən bəzilərinin uğur yoluna nəzər saldıq. Onlardan biri – Orxan İsgəndərov Mədəniyyət nazirliyinin tabeliyindəki Kino Agentliyinin şöbə müdiridir.

– Fəxr edirəm ki, 4-cü “Yüksəliş” müsabiqəsinin qaliblərindənəm, – deyə o bildirdi. – Bu yaxınlarda AzTV-nin “2x2” verilişində gənclərlə görüşümdə də qeyd etdim ki, addım atarkən cəsarətli olmaq, özünə güvənmək lazımdır. Şadam ki, mən fərqlənməyi bacara bilmişəm.

Müsabiqədə qalib gələnlərdən biri də Fərid İsayevdir. O dedi:

– Mən 2-ci müsabiqədə qələbə qazananlardanam. Bakalavr təhsilimi Sumqayıt Dövlət Universitetində, magistratura təhsilimi isə İqtisadiyyat Universitetində almışam. Xaricdə müasir idarəetmə proqramlarını öyrənmişəm. Hazırda çalışdığım sahədə yüksəliş səylərimi davam etdirirəm. Ölkəmizdə çəkilən zəhmətin gələcəkdə bir neçə mislində qarşılığının olduğunu öz təcrübəmdə görmüşəm.Arzu edirəm ki, qarşıdan gələn 2025-ci il də hər kəs üçün uğurlu olsun!

Salman Babazadə:

– Azərbaycan Dövlət Neft və Sənaye Universiteti neft-qaz qurğuları mühəndisliyi ixtisası üzrə bakalavriat, ADA Universitetində biznesin təşkili və idarəedilməsi ixtisası üzrə magistratura təhsili almışam. Azərkosmosda aparıcı satış meneceri vəzifəsində çalışıram. Həmçinin, Xəzər Universitetində sahibkarlıq, innovasiyaların, satışın və strategiyanın idarəolunması fənləri üzrə müəllim kimi fəaliyyət göstərirəm.

Daha bir qalib – Ayaz Məmmədov dedi:

– Ötən həftə İctimai Radioda yayımlanan “İdarəetmənin Əsasları” verilişində qonaq olarkən də bildirdim ki, bu müsabiqəyə qoşulmağın əsas üstünlüklərindən biri təcrübə mübadiləsi, müxtəlif komandalarda işləmək, peşəkar və həmfikir insanlarla əlaqə yaratmaq imkanıdır. Yarışma həm də idarəetmə bacarıqlarını gücləndirmək, məqsədə çatmaq üçün ədalətli mübarizədə özünü sınamaq fürsətidir. Qoy, gənclər belə sınaqlara qoşulsunlar, fərqlənsinlər. Çünki bu, sabahımızın daha etibarlı əllərdə olmasını təmin edəcək.

Bu isə Almaniyanın Berlin Texniki Universitetində təhsil aldıqdan sonra karyerasına SOCAR-da başlayan Orxan Quliyevin fikirləridir:

–Sənaye mühəndisliyi və idarəetmə (İstehsalatın və proseslərin avtomatlaşdırılması) ixtisası üzrə bakalavriat və Sənayə mühəndisliyi və idarəetmə ixtisası üzrə magistratura təhsili almışam. Yüksəlişim asan olmayıb. “Caspian Innovation Center”-də baş əməliyyat direktoru vəzifəsində çalışıram. Eyni zamanda, Bakı Ali Neft Məktəbində dərs deyirəm. Hər bir insan çalışqan olmalıdır. Mənə görə, uğurlu karyeranın təməlində güclü təhsil dayanır. Biz qarşımıza hədəflər qoyduqca yaranan imkanları, qarşıya çıxan sualların cavablarını görürük.

Gənc kadrların uğur hekayələri sevindiricidir. Sonda onu da deyək ki, Prezident İlham Əliyev 18 dekabrda 2025-ci ildə növbəti “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Deməli, istedadlı gənclərimizin yüksəlişi davam edəcək.

***Ə.DOSTƏLİ***
***XQ***

Akif Rüstəmov – 85

# Jurnalistlərin sevimli müəllimi



**Bakı Dövlət Universiteti jurnalistika fakültəsində professor Akif Rüstəmovun 85 illik yubileyinə həsr olunmuş “Çağdaş media təhsili: nəzəriyyədən təcrübəyə” adlı dəyirmi masa keçirilib.**

Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, dosent Xatirə Hüseynova kafedranın qocaman müəllimi Akif Rüstəmovun BDU-da 55 illik fəaliyyətinin yaşlı jurnalistika fakültəsi ilə yaşıd olduğunu deyib. O qeyd edib ki, uzun illərdən bəri müəllim və tələbələrin sevimlisi olan Akif Rüstəmov 10 ilə yaxın müddətdə jurnalistika fakültəsinin dekanı vəzifəsində çalışıb, adını universitetin ən nüfuzlu pedaqoqları sırasına yazıb: “Ömrünü gənc jurnalistlərin peşə hazırlığına həsr etmiş Akif müəllim həm tələbələrin, həm də fakültə kollektivinin çox sevdiyi, hörmət etdiyi şəxslərdəndir. Onun tələbələrə münasibəti təkcə müəllim - tələbə münasibəti deyil, övlad münasibəti olub. Yüksək peşəkarlıq, sadəlik, xeyirxahlıq və dürüstlük Akif müəllimin pedaqoq kimi əsas cəhətləridir”.



Sonra tələbələrin Akif Rüstəmovun həyat yolu barədə hazırladıqları videoçarx nümayiş etdirilib.

Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli birgə çalışdıqları yarım əsrlik müddətdə Akif Rüstəmovu fakültənin böyük ustadları Nəsir İmanquliyev, Şirməmməd Hüseynov kimi ustad müəllimlərin yaratdığı demokratik və paklıq ənənəsinə daim sadiq qaldığını, minlərlə peşəkar jurnalist yetişdirdiyini söyləyib. O qeyd edib ki, jurnalistikanın nəzəriyyəsi ilə bağlı çoxsaylı araşdırmaların, elmi məqalələrin və kitabların müəllifi olan Akif Rüstəmov həm də ölkə mətbuatındakı aktual mövzulu çıxışları ilə də tələbələrə necə yazmaq örnəyini aşılayır: “Professorun saxta xəbərlərin aşkara çıxarılması, araşdırılması və mediada etik prinsiplərə riayət olunması ilə bağlı araşdırmaları bu gün də gənc jurnalistlərin maraq doğurduğu məsələlərdəndir. Ömrünün yarım əsrdən artıq bir dövrünü Azərbaycan jurnalistikasının inkişafına və bu sahədə peşəkar kadr hazırlığına həsr etmiş Akif müəllimə bundan sonrakı fəaliyyətində uğurlar arzulayıram”.

Ötən illərə Akif Rüstəmovun tələbələri olmuş jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli, Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin rəhbəri Tahir Aydınoğlu, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Alqış Musayev, Bakı Mühəndislik Universitetinin prorektoru Bayram Hüseynzadə, yazıçı-publisist İlqar Rəsul, Azərbaycan Mətbuat Şurası sədrinin müavini Səadət Məmmədova, BDU-nun ictimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri Kəmalə Quliyeva, fakültənin dekan müavini Sevinc Əliyeva, multimedia və elektron kommunikasiya kafedrasının professoru Allahverdi Məmmədli, yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının dosenti Zaur Babayev, fakültənin müəllimi, Əməkdar jurnalist Namiq Əhmədov, məzun Əsgər İsmayılov Akif Rüstəmovun elmi-pedaqoji fəaliyyətindən danışıblar, xatirələrini bölüşüblər.

***N.QƏDİMOĞLU***
***XQ***

İlin yubileyləri: Məhtimqulu Fəraqi – 300

# Türkmənin böyük şairi

**Məhtimqulu Fəraqi ümumtürk ədəbiyyatına şərəf və şan gətirən parlaq simalardan biridir. Dünyaca məşhur şairin poetik irsi və fəlsəfəsi bu gün də özünün təzə-tərliyi ilə seçilir, sabah da belə olacaq.**

2024-cü ildə görkəmli türkmən şairi və mütəfəkkiri Məhtimqulu Fəraqinin anadan olmasının 300 illiyi səbəbilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən 2024-cü ilin “Məhtimqulu İli” elan edilib. Bu kimi qərarlarla türk mədəniyyətinin görkəmli şəxsiyyətləri öz örnək həyatları və qoyub getdikləri ölməz əsərləri ilə yeni nəsillərə tanıdılır.

Məhtimqulu Fəraqi 1724-cü ildə Türkmənistanın Gürgən şəhəri ətrafındakı Hacı Qovşan kəndində ziyalı ailəsində anadan olub. Məşhur türkmən şairi Dövlətməmməd Azadinin (1700–1760) oğludur. Məhtimqulu gənclik illərində Şərqdə elm və mədəniyyət mərkəzləri kimi tanınan Buxara və Xivə mədrəsələrində mükəmməl təhsil alıb. Sonra Əfqanıstana və Hindistana, Özbəkistanın Margilan, Əndican, Səmərqənd şəhərlərinə gedib. Daim təhsilini təkmilləşdirib, gözəl şeirlər yazıb. Sözün qədrini bilib və söz xiridarı olmayanları məzəmmət edib:

**Süvar olub minər atın bilməyən,**
**Arif olub öz izzətin bilməyən,**
**Söhbət içrə söz, ləzzətin bilməyən**
**Duya bilməz məclis nədir, söz nədir.**

Məhtimqulu Fəraqi 83 yaşında Türkmənistan sərhədi yaxınlığındakı Mərəvə təpənin Aba Sarı adlı çeşməsinin ətrafında vəfat edib. Əsərlərinin əksəriyyətini türkmən alimləri əhalidən toplayıblar. Bu günə qədər 740-dan çox şeiri, 10 poeması məlumdur. Şairin əsərləri Azərbaycanda dəfələrlə nəşr olunub. 1913-cü ildə Buxara şəhərində daş basması üsulu ilə çap edilmiş və indiyədək naməlum qalan “Divan”ının yeganə nüsxəsi 2015-ci ildə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunda aşkar edilib və nəşr olunub.

Yeri gəlmişkən, hələ fevral ayında AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda “Məhtimqulu Fəraqi – dünya ədəbiyyatının görkəmli şairi” adlı Beynəlxalq elmi konfransı keçirilib. Konfransa Türkmənistan Elmlər Akademiyasının Məhtimqulu adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutundan gəlmiş alimlər də qatılıblar. Azərbaycan–Türkmənistan elmi-ədəbi əlaqələrinin inkişafında yeni bir mərhələnin həyata keçirildiyini deyən akademik İsa Həbibbəyli bu çərçivədə Fəraqinin həyat və yaradıcılığının öyrənilməsi baxımından əhəmiyyətli işlər görüldüyünü diqqətə çatdırıb. Şairin “Divan”ı qonaqlara hədiyyə edilib. Məruzələrdə onun yaradıcılığının müxtəlif istiqamətlərinə nəzər salınıb.

Onu da deyək ki, mərhum ədəbiyyatşünas alim Araz Dadaşzadənin “XVIII əsr Azərbaycan lirikası” adlı kitabında (Bakı, 1980) yazdığına görə, Məhtimqulu Azərbaycanda da olub və ölkəmizin gözəlliklərini tərənnüm edib. Akademik İsa Həbibbəyli isə onun “Divan”ına yazdığı ön sözdə şairin “Yaylaqları var” adlı şeirini meşələr və dağlarla əhatə olunmuş Nuxanın (Şəkinin) təbiətinə həsr etdiyini bildirib:

**Səfər edib getsək Nuxa mülkünə,**
**Könül istəyəntək yaylaqları var.**
**Seyran etsək qönçəsinə, gülünə,**
**Bağçasında bülbül oylaqları var.**

Şeirdə Məhtimqulu, eyni zamanda, Azərbaycan klassikləri Nizamini, Xaqanini, Nəsimini, Füzulinin də adlarını yada salıb, onlara hörmət və ehtiramını ifadə edib. Maraqlıdır ki, bu şeir şairin əsərlərinin Moskva nəşrində “Azərbaycan” adı ilə verilib.

Məhtimqulu yaradıcılığında Nəsimi, Xətai, Nəvai, Füzuli, Həbibi, Aşıq Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım və Molla Pənah Vaqiflə ruh yaxılığı və onların təsiri də hiss olunur. Məsələn, Füzuli yazıb:



**Bir inci saflığı varsa da suda,**
**Artıq içiləndə dərd verir o da.**

Məhtimqulu isə bu fikri belə qələmə alıb:

**Az yegil, az yatğıl, sözünü az et,**
**Nə var mənasız söz uzatmaq ilən?**

Onun sevgi şeirləri bizim klassiklərin yazdıqları qədər sadə, xoşagələndir:

**Gözüm düşdü, seyranımda qardaşlar,**
**Kükrəyir damu tək narı dilbərin.**
**Qıyılmış kaman tək üzündə qaşlar**
**Görüb-görməyənlər zarı dilbərin.**

Şairin “Göy kəbutər”, “Atlı ərənlər”, “Məhşərnamə”, “Kəsik baş”, “Suhud oğlan”, “Azğın işan”, “Qara yer”, “Sözüm var” kimi irili-xırdalı 13 pomasının olduğu qeyd edilir. Hamısı da özünün fəlsəfi-dini, əzlaqi-didaktik səciyyəsinə görə diqqət çəkir. Mövzuları klassik Şərq ədəbiyyatında yazılmış ənənəvi süjetlərdən, əfsanə və rəvayətlərdən alınsa da, onlara Fəraqi öz dövrünün ahəngini, məzmununu verib, öz dünyagörüşü, düşüncə və təcrübəsi süzgəcindən keçirib...

Bu ilin may ayında Aşqabadda, Kopetdağın ətəyində salınmış parkda Fəraqinin nəhəng abidəsi qoyulub. Bu, Orta Asiyada ən böyük abidədir.

***Ə.ƏLİYEV***
***XQ***

# BP-nin rəngkarlıq albomu

**Müxtəlif nəsilləri təmsil edən Azərbaycan təsviri sənəti nümayəndələrinin son 60 ildə yaratdıqları əsərlər BP şirkətinin təqdim etdiyi kitab-albomda əksini tapıb.**



Nəfis şəkildə hazırlanmış nəşrdə Azərbaycanın ecazkar sənət aləminin parlaq, rəngarəng və çoxşaxəli özəllikləri toplanıb. Bu layihə BP-nin zəngin mədəni irsimizin təbliğinə verdiyi davamlı dəstəyin bir hissəsidir.

Kitab-albomu Təşəbbüslər və Layihələr Mərkəzi Azərbaycan, ingilis və rus dillərində hazırlayıb. Nəşrdə təqdim olunan əsərlər Azərbaycan Dövlət Rəsm Qalereyasında sərgilənən rəngkarlıq, heykəltəraşlıq, qrafika, tətbiqi sənət və teatr dekorasiya sənətini əhatə edən 12000 əsərlik yaradıcılıq kolleksiyasından seçilib.

Misilsiz sənət toplusunda Azərbaycan milli rəssamlıq məktəbinin dünya şöhrətli korifeyləri ilə yeni, istedadlı rəngkarların əsərləri bir araya gətirilib. Sənət toplusu müvafiq incəsənət mərkəzlərinə, muzeylərə, qalereyalara və kitabxanalara, eləcə də bütün sənətsevərlərə bp-nin hədiyyəsidir.

***XQ***

# Azaflı mükafatının Türkiyə əks-sədası

**Ərzurumda nəşr edilən “Pusula” qəzeti Türkiyənin məşhur nəşrlərindəndir. Əsasən, Ərzurum, Qars, İqdır, Van bölgələrində yayılır. Gündəlik nəşr edilən qəzetin son sayında dərc edilən xəbər Azərbaycan Aşıqlar Birliyində keçirilən mərasim haqqındadır. Məqalədə deyilir:**

Ərzincan Binəli Yıldırım Universitetinin türk dili və ədəbiyyatı kafedrasının müdiri professor Ali Kafkasyalıya Azərbaycan Aşıqlar Birliyinin “Mikayıl Azaflı 100” medalı təqdim edilib.

Ali Kafkasyalı XX əsrin ustad sənətkarı təkcə Azərbaycanda deyil, Türkiyə və İranda da yaxşı tanınan və sevilən el sənətkarlarından olan Mikayıl Azaflının həyat və yaradıcılığına həsr olunmuş doktorluq işinin və Türkiyədə nəşr edilmiş “Mikayıl Azaflı: həyatı, sənəti, əsərləri” və “Qoca qartal Azaflı” kitablarının müəllifidir.

Azərbaycan Aşıqlar Birliyinin sədri professor Məhərrəm Qasımlı təqdimat mərasimindəki çıxışında dedi: Aşıqlar Birliyində Mikayıl Azaflının 100 illiyi münasibətilə "Mikayıl Azaflı 100" medalı hazırlanıb. Bu medal aşıq sənətinin inkişafında və təbliğində xidmətləri olan aşıqlara və alimlərə veriləcək. İlk olaraq medalı professor Ali Kafkasyalıya təqdim edirik. Ali Kafkasyalı bu medalı almağa halal haqqı olanlardandır. O, Azaflının əsərlərini doktorluq səviyyəsində tədqiq etməklə, Türk Dünyası aşıqlıq ənənəsinə böyük xidmətlər göstərmişdir.




Medalın təqdimetmə mərasimində rofessor Qazanfər Paşayev, Qazax İcra hakimiyyəti başçısının müavini Gülayə Həsənova, Ərzincan Universiteti Sosial Elmlər İnstitunun müdiri professor Necdət Tozlu, BDU-nun kafedra müdiri professor Məhərrəm Məmmədli, dosent Məti Osmanoğlu, AMEA-nın əməkdaşları İsmayıl Umudlu, İlhamə Gəsabova, əməkdar jurnalist Namiq Əhmədov, şair Rəfail İncəyurt, yazarlar Rəfael Tağızade, Vaqif Osmanlı, aşıqlar Altay Məmmədli, Ədalət Dəlidağlı, Mikayıl Azaflının qızı aşıq Gülarə Azaflı və nəvəsi aşıq Roman Azaflı, iş adamları İsaxan və Azatxan Abdulla iştirak etdilər.

Proqramın sonunda Azərbaycan Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı Ali Kafkasyalıya medalın pasportunu, təltif sertifikatını və Ozan-aşıq Ensiklopediyasını təqdim etdi.

***XQ***

# ABŞ “10 milyon dollarlıq” lideri bağışlayıb

## *Vaşinqton köhnə rəqiblə ilk təmasdan razıdır*



**ABŞ dövlət katibinin Yaxın Şərq məsələləri üzrə köməkçisi Barbara Lifın başçılıq etdiyi nümayəndə heyəti Suriyada hakimiyyətə gələn “Həyat Təhrir əş-Şam”ın (HTŞ) rəhbəri Əhməd əl-Şaraa ilə Dəməşqdə danışıqlar aparıb. “Axios” portalı əl-Şəraa ilə görüşün “yaxşı və məhsuldar” keçdiyini yazıb. Bundan başqa, Vaşinqton Əhməd əş-Şaraa haqqında məlumat üçün ayırdığı 10 milyon dollarlıq mükafatı ləğv edəcəyini də açıqlayıb.**

Dövlət Departamentinin mətbuat xidməti cümə günü səhər Amerika nümayəndə heyətinin Dəməşqə gəlməsini təsdiqləyib. Bir qrup diplomat, o cümlədən ABŞ dövlət katibinin Yaxın Şərq məsələləri üzrə köməkçisi Barbara Lif, girovlarla iş üzrə baş xüsusi elçi Rocer Karstens və Suriya üzrə sabiq xüsusi elçi Daniel Rubinşteyn HTS rəhbərliyi ilə birbaşa danışıqlar aparıb. Dövlət Departamenti “vətəndaş cəmiyyəti nümayəndələri, fəallar, icma üzvləri də daxil olmaqla, Suriya xalqı ilə birbaşa əlaqə qurmaq arzusunda olduğunu” bildirib. Amerika tərəfi münaqişədən sonrakı Suriyadan cəmiyyətin nə gözləntiləri olduğunu və “ABŞ-ın nə verə biləcəyini” anlamaq istəyir.

Xatırladaq ki, ABŞ-ın Dəməşqdəki səfirliyi 2012-ci ildə fəaliyyətini dayandırmışdı. Bununla belə, Ağ Evin indi məğlub olan sabiq prezident Bəşər Əsədlə əlaqədən yayındığını söyləmək olmaz. 2020-ci ildə ABŞ-nin 45-ci prezidenti Donald Tramp Dəməşqi Suriyada qalan amerikalıların taleyi ilə bağlı dialoq üçün kommunikasiya xətti yaratmağa çağırmışdı. Daha sonra Milli Təhlükəsizlik Şurasının Ağ evdəki nümayəndəsi Keş Patel Suriya paytaxtına səfərə getmişdi. Suriya müharibəsi başlayandan bəri ilk dəfə olaraq bu rütbəli Amerika dövlət xadimi Əsəd rəhbərliyi tərəfindən qəbul edilmişdi. Qeyd etmək yerinə düşər ki, Tramp administrasiyasında Patelin Federal Təhqiqatlar Bürosunun (FTB) rəhbəri olacağı bildirilir.

Xarici KİV yazır ki, Vaşinqton Suriyada saxlanılan, ən azı, iki vətəndaşının taleyi ilə maraqlanıb. Onlardan biri 2012-ci ilin avqustunda Dəməşq yaxınlığındakı keçid məntəqəsindən keçərkən yoxa çıxan Ostin Taysdır. “The Washington Post”, AFP, CBS və McClatchy ilə əməkdaşlıq edən bu amerikalının yerli kəşfiyyat orqanları tərəfindən saxlanıldığı güman olunurdu. Rəsmi Dəməşq Tays haqqında heç nə bilmədiyini iddia edirdi.

İkinci şəxs Suriya əsilli psixoterapevt Məcid Kamalmazdır. O, 2017-ci ildə qohumlarını ziyarət edərkən Dəməşqdə keçid məntəqəsini keçərkən yoxa çıxmışdı. Dövlət Departamenti bildirir ki, HTS ilə humanitar dialoqu hazırda cənab Taysın axtarışına yönəlib. Əsədin həbsxanalarında hələ də əhəmiyyətli sayda məhbus aşkarlanmayıb. Çoxları itkin hesab edilir.

Xanım Lif qeyd edib ki, Dəməşqdə əl-Şaraa ilə görüş zamanı Vaşinqtonun Suriyada siyasi keçid prosesində riayət olunmalı prinsipləri müzakirə ediblər. Bundan əlavə, görüşdə “terror qruplarının Suriyada və onun hüdudlarından kənarda, o cümlədən ABŞ və regiondakı tərəfdaşları üçün təhlükə yaratmasının qarşısının alınması” vacibliyi müzakirə edilib: “Əhməd əl-Şaraa bunu etməyə hazır olduğunu bildirdi və müzakirəmiz zamanı ona dedim ki, biz bir neçə ildir qüvvədə olan mükafat təklifindən imtina edəcəyik”. O, mükafatın ləğv olunmasını “HTŞ ilə qarşılıqlı əlaqənin başlaması ilə əlaqədar” qəbul edilən “siyasi qərar” adlandırıb.

Bundan başqa, mütəxəssislər ehtimal edirlər ki, Birləşmiş Ştatları Dəməşqin yeni hakimiyyətinin Suriyanın şimal-şərqində fəaliyyət göstərən kürd silahlı qruplaşmaları ilə bağlı planı da maraqlandırır. Həmin zonada Amerika qoşunları yerləşir. Dekabrın 20-nə keçən gecə Pentaqonun mətbuat xidməti bildirib ki, son hadisələr fonunda hərbi qulluqçuların sayı nəzərəçarpacaq dərəcədə artırılıb. Hərbi departamentin sözçüsü Patrik Rayder brifinqdə hazırda Suriyada 2 minə yaxın Amerika əsgərinin olduğunu açıqlayıb.

Son həftələrdə Dəməşqin yeni hakimiyyəti Suriyanın neft sərvətlərinin böyük hissəsinin cəmləşdiyi şimal-şərq bölgəsinə nəzarəti bərpa etmək niyyətini göstərir. Kürd qruplaşmaları gözləyirlər ki, Vaşinqton Dəməşqi bu fikrindən daşındırmağa çalışacaq. Ancaq Türkiyə rəhbərliyi Suriyada hər hansı bir terror qruplaşmasının qalmasına yol verməyəcəyini vurğulayır. Bir neçə gün əvvəl Suriya müxalifətinin lideri Əhməd əl-Şaraa da demişdi ki, PKK/YPG terror təşkilatları Suriyadakı kürd əhalinin maraqlarını təmsil etmir və buna görə də ölkə terrorçulardan tamamilə təmizlənəcək. Artıq Kurin kəndinin şimalında terrorçu PKK ilə Suriya Milli Ordusu arasında döyüşlərin getdiyi bildirilir.

***SE LAY***
***XQ***

# Gürcüstan öz yoluna davam edir

## *Qərbin Tbilisidən Azərbaycana təsir cəhdi isə baş tutmur*



**Gürcüstanda aktiv fəaliyyət göstərən 30 min qeyri-hökumət təşkilatı (QHT) var. Onların 90 faizi xaricdən maliyyələşir. Ölkənin 3,7 milyon əhalisi olduğunu nəzərə alsaq, bu, dünyada adambaşına düşən ən yüksək göstəricilərdən biridir. Yəni hər 123 Gürcüstan vətəndaşına demək olar ki, bir QHT düşür. Onlar uzun illərdir ki, Qərbin ruporu rolunu oynayırlar.**

“Xarici agentlər haqqında” Qanunun qəbul edilməsi, parlament seçkilərində “Gürcü Arzusu – Demokratik Gürcüstan” Partiyasının qalib gəlməsi və 28 noyabr tarixində Avropa İttifaqına (Aİ) üzvlüklə bağlı danışıqların 4 il müddətinə dayandırılması müxalifətin və qərbyönlü QHT-lərin pozucu fəaliyyətinə ağır zərbə vurdu. Bu, həm də Qərbin Zaqafqaziyadakı maraqlarına toxundu. Cavab isə gecikmədi. Aİ gürcü hökumətinə yardımı dondurdu. ABŞ isə bəzi Gürcüstan vətəndaşlarına qarşı sanksiyalar və viza məhdudiyyətləri tətbiq etdi.

Hazırda Qərb təsisatları Tbilisidə son kartlarını açıq şəkildə oynayır, QHT-lərə, mediaya, institutlara, gənclər təşkilatlarına milyonlar xərcləyənlər bu gün onun qarşılığını etirazçılardan tələb edir. Tələb isə hər kəsə aydındır: Meydana çıxın və qrantların haqqını verin, Konstitusiyaya salınan 78-ci maddəyə sahib çıxın.

Son hadisələr göstərir ki, müxalifət və QHT-lər Qərbdən aldığı layihə və tapşırıqlara uyğun davranırlar. Zurabişvilinin rəhbərlik etdiyi qərbyönlü partiya və QHT-lər küçələrdə qışqırmaqda davam edirlər. Seçkilərdən ötən bir ay ərzində onlar seçki “saxtakarlığı” ilə bağlı heç bir ciddi sübut təqdim edə bilməyiblər. Üstəlik, istintaqla əməkdaşlıqdan imtina edirlər.

Hələki etiraz aksiyalarının davam etməsinə Qərbin maliyyə dəstəyi imkan verir. Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Brüsseldə jurnalistlərə müsahibəsində QHT-lərin dəstəkləndiyini açıq şəkildə söyləyib: “Gürcüstana qarşı sanksiyalar mövzusu masadadır və biz əlavə tədbirləri müzakirə etməyə davam edəcəyik... Bu, Gürcüstan hakimiyyətinə açıq bir mesaj verir ki, onlar müxalifətin səsini boğmaq və ifadə azadlığını heç bir nəticə vermədən məhdudlaşdıra bilməzlər. Biz artıq siyasi əlaqələri azaltmışıq və hökumətdən maliyyəni gürcü xalqına, vətəndaş cəmiyyətinə və müstəqil mediaya yönəltmişik. Biz Avropa İttifaqına gedən yolda gürcü xalqının yanında olmağa davam edəcəyik. Gürcüstana qarşı sanksiyalar da masadadır və biz əlavə tədbirləri müzakirə etməyə davam edəcəyik”. Bu açıq şəkildə Gürcüstanın daxili işlərinə qarışmaqdır.

Bəli, bu gün Milli Hərəkat, ona yaxın olan partiyalar və QHT-lər çox təhlükəli oyun oynayırlar. Qərbin tapşırıqlarını yerinə yetirərək Gürcüstanda qarışıqlıq yaratmağa çalışırlar. Müxalifət ölkəni fəlakətə – müharibəyə sürükləyir, milli dəyərləri ayaq altına atmaq istəyir. Artıq bir dəfə Gürcüstan müharibənin acı nəticəsini yaşayıb, o LGBT kimi ailə dəyərləri sarsıdan yolla gedə bilməz. Tbilisi seçdiyi yoldan dönmək niyyətində deyil. Qərbin neqativ reaksiyasına baxmayaraq, yoluna davam edəcək.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev rusiyalı jurnalistə müsahibə verib və bu məsələlərə də yer verib: “Yenidən xarici təsir məsələsinə qayıtdıqda, məlum oldu ki, Gürcüstanda Qərbdən maliyyələşən on minlərlə qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlarda çalışan və ya əməkhaqqı alan insanların sayı isə yəqin ki, yüz minlərlə, hətta daha çoxdur. Biz bilirik ki, bu, nə deməkdir. Çünki burada, bizim ölkəmizdə qrantla qidalananların və qrant verənlərin özlərini ağa kimi apardıqları dövr var idi, amma biz bunun qarşısını aldıq. Ona görə də hər hansı qurumun, istər Azərbaycan və ya xarici olsun, verdiyi istənilən qrant qeydiyyatdan keçməlidir və müvafiq orqanlar icazə verib-verməməyi nəzərdən keçirməlidir”.

Prezident Rusiya nəşrinə müsahibəsində aydın şəkildə bildirib ki, Qərb dövlətləri müxtəlif strukturları ilə yerli təşkilatlara maliyyə yardımı ayırmaqla onları asılı vəziyyətə salmağa çalışır. Azərbaycanın dövlət başçısının bu açıqlaması Gürcüstanda böyük maraqla qarşılanıb. Gürcüstan parlamenti Özünüidarəetmə komitəsinin sədri İrakli Kadagişvili deyib ki, iki qonşu ölkə arasındakı münasibətlər strateji tərəfdaşlıq, dostluq əsasında inkişaf edir və bu əlaqələr gələcəkdə daha da güclənməlidir: “İki ölkə arasındakı əməkdaşlıq hərtərəfli inkişaf etməlidir. Azərbaycan və Gürcüstan, strateji tərəfdaşlar və dostlar olaraq bir-birini dəstəkləməlidirlər. Bizim məqsədimiz öz dövlətlərimizdə sabitlik və demokratiyanı qorumaqdır”.

O, həmçinin, xüsusən də seçkilər zamanı xarici müdaxilənin düzgün qiymətləndirilməsinin vacibliyini qeyd edərək bildirib ki, bu cür müdaxilələrə heç bir halda icazə verilməməlidir. İrakli Kadagişvili Prezident İlham Əliyevin Gürcüstandakı vəziyyətə dair bəyanatlarını obyektiv və real vəziyyətə uyğun hesab etdiyini qeyd edib: “Azərbaycan Prezidenti İlham Əliyev məlumatlıdır və Gürcüstandakı vəziyyəti yaxşı bilir. Onun qiymətləndirməsi, əlbəttə, real vəziyyətə uyğundur.

Ölkələr arasındakı əlaqələrin daha da inkişafı üçün qarşılıqlı dəstək əhəmiyyətlidir. Biz bir-birimizin inkişafına kömək etməliyik və bu münasibətləri hərtərəfli şəkildə gücləndirməliyik. Gələcəkdə bu əlaqələrin daha da möhkəmlənməsi tərəflər üçün faydalı olacaq və beynəlxalq məsələlərdə güclü tərəfdaşlıq əlaqələrinin inkişafına şərait yaradacaq”.

Xatırladaq ki, Qərb Zaqafqaziyada pozucu fəaliyyətini Gürcüstanla məhdudlaşdırmaq istəmir. Bakıdakı şəbəkəni Gürcüstan üzərindən maliyyələşdirmək cəhdlərini davam etdirir. “Meydan TV”, “Abzas Media” və “Toplum TV” ilə bağlı ortaya çıxan son faktlar Qərbin Azərbaycandakı şəbəkəsini yenə də Gürcüstan üzərindən maliyyələşdirməyə davam etdiyini təsdiqləyir. Araşdırmalar nəticəsində məlum olub ki, “Meydan TV”nin maliyyələşməsini həyata keçirən Almaniyada qeydiyyatdan keçirilmiş “Demokratiya Uğrunda Assosiasiya” adlı QHT-nin ABŞ vətəndaşı olan rəhbəri Metyu Kasper vəsaiti Gürcüstan banklarına transfer edir, daha sonra turist, yaxud müxtəlif məqsədlər adı altında Tbilisiyə gedən “Meydan TV” əməkdaşları həmin pulları nağdlaşdıraraq, ölkəyə gətirirlər. “Meydan TV” əməkdaşı Ramin (Deko) Cəbrayılzadənin saxlanılmamışdan bir neçə gün öncə Gürcüstanda səfərdə olması və ölkəyə qayıdarkən, üzərindən 38 min avronun çıxdığı faktı da bunu isbat edir.

“Toplum TV” vasitəsilə Azərbaycana qanunsuz olaraq yarım milyon manatdan çox vəsait gətirilib. “Abzas Media”, eləcə də “Meclis.info”nun əməkdaşları Gürcüstanın TBC Bank, Böyük Britaniyanın EML və Amerikanın “US Bank Reliacard” bankına məxsus adsız kartlardan istifadə ediblər. Bu faktların üstü açılmaqla qeyri-qanuni maliyyələşdirmənin qarşısı böyük ölçüdə alınıb. Amma gördüyümüz kimi, Qərb dairələri yenə də Gürcüstan vasitəsilə Azərbaycandakı şəbəkə üzvlərini maliyyələşdirməyə çalışırlar. Bu faktlar Qərbin Azərbaycandakı şəbəkəsinin maliyyələşməsində Gürcüstanın platforma kimi istifadə edilməsi cəhdlərinə hələ də son qoyulmadığını göstərir.

Amma onların istəyi baş tutmayacaq. Çünki uzun illər yerlərdəki emissarları vasitəsilə müxalifəti maliyyələşdirib hakimiyyətə qarşı çevirməyə çalışılsa da, bu cəhdlər nəticəsiz olub. Azərbaycan xalqı Prezidentinin yeritdiyi siasətı sadiqdir.

***P.ƏFƏNDİYEV***
***XQ***

# “Böyük manipulyator”

**Mark ENDEVELD**

***(əvvəli qəzetin 17, 18, 19, 20, 21 dekabr tarixli saylarında)***

Aralarındakı yaş fərqinə və baxmayaraq, Moris Qurdolt-Montayn ilə Emmanuel Makron bir-birini mükəmməl tanıyır. Xarici İşlər naziri Jan-Yv Lö Drianın ətrafı tərəddüd etmədən israr edir ki, Moris Qurdolt-Montaynın nazirliyin baş katibi təyin edilməsində, nazirin heç bir rolu yoxdur. Onu bu strateji posta dövlət başçısı şəxsən özü təyin edib. Onların ikisinə də yaxın olan bir diplomatın dediyinə görə, “Moris Qurdolt-Montayn və Emmanuel Makron çox intim dostdurlar. Onlar tez-tez zəngləşir və fikir mübadiləsi edirlər”. Düzdür, Moris Qurdolt-Montayn diplomat karyerasında Hüber Vedrin və Dominik dö Villpənt kimi şəxsiyyətlərlə də işləyib. Onu həmişə müdafiə edən bu iki güclü adam Makronun prezident kampaniyası zamanı nəinki gələcək hələ prezidentliyə namizəd olan Makron, iki gün ərzində – 2017-ci ilin fevralın 13-də və 14-də – Əlcəzairdə xeyli işlər görür. Makron çox yaxşı bilir ki, hər hansı bir seçkidə Əlcəzair mənşəli fransızlar böyük rol oynayır. Eyni zamanda, Əlcəzairdə yaşayan franko-əlcəzairlilər də onları səfərbər etməkdə böyük rol oynaya bilər. Yaxşı təcrübə mübadiləsidir.

Kampaniya zamanı büdcədə pulun az olduğu vaxt, bu təkandan istifadə etməmək axmaqlıq olar. Görünür, əlcəzairlilər də Makrona, onun əlcəzairlilərə yanaşdığı kimi yanaşırlar. O vaxt prezidentliyə namizəd, əsl dövlət başçısı kimi qarşılandı. Prezident olandan sonra da Makron, Əlcəzairin hökumət başçıları ilə görüşlərini davam etdirir: Baş nazir Abdelmalek Sellal, Təhsil naziri Nuria Benqebri, Dini İşlər naziri Mohamed Aïssa, Xarici İşlər naziri Ramtan Lamamra və Sənaye naziri Abdeslam Buşureb və sairə.




prezidentə dəstək olmuşdular və təbii ki, onun qulağına Moris Qurdolt-Montayn haqqında pıçıldamışdılar. Amma üçüncü bir adam da onun Xarici İşlər Nazirliyinin baş katibi təyin olunmasında böyük rol oynayıb – keçmiş diplomat, həm də Emmanuel Makronla çox yaxın münasibətdə olan Filip For. (Moris Forun oğlu) Dominik dö Villpəntin dostu olan bu adam bir vaxtlar Xarici İşlər Nazirliyinin katibi olanda, Moris Qurdolt-Montayn Yelisey sarayında Jak Şirakın məsləhətçisi idi. Mitteranın vaxtında, ələlxüsus da onun ikinci mandatı dövründə indi Makrona sitayiş edən bu adam, bütün çevrəsini və şəbəkələrini səfərbər etmişdi ki, onlar prezident seçkilərində Jak Şiraka yox, Eduard Balladürə səs versinlər. (Çünki onun rəsmi məsləhətçisi idi) Yelisey sarayında onun kontaktı Mişel Şarass idi.

Bütün bunlara görə – polemikaya baxmayaraq – Moris Qurdolt-Montayn rahat yata bilər. Düzdür, bir neçə həftə sonra mətbuatda xəbər yayılır ki, bu adam 2017-ci ilin sentyabrın axırlarında həyat yoldaşı Amanda Qalsvorti (Mitteran, Şirak və Sarkozi kimi prezidentlərin keçmiş tərcüməçisi) ilə Əlcəzairə şəxsi səfəri zamanı, El Orassi hotelində, Aleksandr Djuri ilə nahar edib. Sonra isə onlar bir yerdə, Tipasa adlanan məşhur arxeoloji bir regiona ekskursiyaya gediblər. Onun başqa bir dostu – Milli İnvestisiya Fondunun prezidenti, Əlcəzair müəssisələrinin maliyyələşdirilməsində əvəzsiz rol oynayan Asen Haddad da bu ekskursiyada iştirak edib. Ancaq bütün bu söz-söhbətə və skandala baxmayaraq, Moris Qurdolt-Montayn öz vəzifəsində qalır.

Bəzi keçmiş tanışlıqlar heç vaxt unudulmur. Makron necə bunu bilməyə bilər? Moris Qurdolt-Montayn diplomatik bacarığından necə istifadə edəcəyini yaxşı bilir. 2006-cı ilin aprelində bu diplomat, o vaxt Parisin prefekti Bernard Skorasininin məşhur Bristol restoranında təşkil etdiyi naharda da iştirak edib. Daxili İşlər Nazirliyi ilə Yelisey sarayının iki addımlığında yerləşən bu adlı-sanlı restoranda, ondan başqa, stol arxasında Nikola Sarkozi, Aleksandr Djuri və Clod Jan əyləşmişdilər. Prezident seçkilərinə bir neçə ay qalmış, bu adamlar Şirakın və Sarkozinin tərəfdarları arasında yaxın münasibət yaratmağa çalışırdı.

### Əsli Kabildən olan xaç atası işə başlayır

Aleksandr Benalla qonaqların siyahısını təşkil etsə də, Emmanuel Makronun 2017-ci ilin dekabr ayındakı Əlcəzairə ikinci səyahətində şəxsən iştirak etmir. Halbuki bir neçə ay əvvəl prezidentin seçki kampaniyasının qızğın çağında, Makronun Əlcəzairə birinci səfərində onun yanında idi. O, vaxt gələcək prezidentin “şillə vuranı” cibində xidməti pasport gəzdirirdi. Bu tip pasportlar, adətən, diplomatik passport almaq hüququ olmayan, ancaq hökumət adından xarici ölkələrə xüsusi missiyalara göndərilən məmurlara verilir. Aleksandr Benalla hansı xüsusi missiyalar üçün xarici ölkələrə gedirdi? Əlcəzairə ilk səfərində

Səfərin ikinci günü, fevralın 14-də – Əlcəzairin Echorouk News kanalına verdiyi müsahibəsində Emmanuel Makron Əlcəzairin Fransa tərəfindən müstəmləkəçiliyini “bəşəriyyətə qarşı cinayət” adlandırır və əlavə edir ki, bu müstəmləkə sözün əsl mənasında “barbarlıq” xarakteri daşıyıb. Bu sözlər çox ağır sözlərdir və ən başlıcası da odur ki, onun əvvəl dedikləri ilə ziddiyyət təşkil edir. 2016-cı ilin noyabrında, Le Point jurnalına verdiyi müsahibədə Makron müstəmləkəçiliyi tənqid etmişdi, ancaq onu da əlavə etmişdi ki, müstəmləkəçilik, müstəmləkə altında olan ölkələrə həm də sivilizasiya elementləri gətirib. Təbii ki, 2017-ci ilin fevral ayında onun Əlcəzairdə müstəmləkə haqqındakı bəyanatları yerli camaatın xoşuna gəlir. Onu da qeyd edək ki, bu məsələdə Əlcəzair və müstəmləkəçilik üzrə mütəxəssis, tarixçi Benjama Storanın da əməyi az deyil. Hollandın prezidentliyi dövründə Əlcəzairdə doğulan bu köhnə Trotskist dəridən-qabıqdan çıxmışdı ki, o, 1945-ci ilin mayında Əlcəzairin Setif şəhərindəki qırğını əlində əsas tutub Fransanın Əlcəzairi müstəmləkə altında saxlamasını tənqid etsin. O vaxt Fransız ordusu tərəfindən, təxminən 45000 əlcəzairli qətlə yetirilmişdi. Amma Sosialist Partiyasının keçmiş birinci katibi və ovaxtkı prezident, çıxışlarında hərdənbir bu mövzuya yüngülcə toxunsa da, heç vaxt ciddi şəkildə Fransanın bu qırğındakı cavabdehliyini etiraf etməmişdi.

Bu səfərdə onu müşayiət edəcək nümayəndə heyətini Makron özü seçmişdi: Diplomatik məsləhətçi Oreliyen Leşevalliye; (bir müddət sonar bu adam Yeliseydəki prezident kabinetinin üzvü olacaq). Fransua Hollandın keçmiş dostu, Əlcəzairi əlinin içi kimi tanıyan və Makrona bu ölkədə kimlərlə əlaqəyə girməyi məsləhət görən advokat Jan-Pyer Minard; İqtisadiyyat Nazirliyində işləyəndə onun kabinet direktoru olan Sofi Ferraççi; Raff aranın keçmiş naziri, Hollandın vaxtında Fransanın Əlcəzairdəki xüsusi nümayəndəsi olan Nikol Qedi və hətta onun mətbuat xidmətinin rəisi Silvan Fort. Əlcəzairə gedən nümayəndə heyətinin fotolarında Makronun cangüdəni kimi fəaliyyət göstərən Aleksandr Benalla da görünür. Bu adam hətt a Makronla birlikdə çox məxfi görüşlərdə də iştirak edəcək...

Amma bu yüksək riskli səfərin əsl təşkilatçısı keçmiş diplomat, Ardian investisiya qrupunun rəhbərlərindən biri Fransua-Ayssa Tuazidir. Bu məşhur investisiya şirkəti üçün Fransua-Ayssa Tuazi yaxın şərq və cənubi Asiya bölgələrində aktiv olan milyardlarla avro idarə edir.

Bir müddət sonra bu investisiya şirkətinin filiallarından biri – makler sığorta şirkəti – Emmanuel Makronun prezident kampaniyasının maliyyə təminatında həlledici rol oynayacaq. Seçki kampaniyasına pul toplayanlardan biri etiraf edir ki, “Tuazi gələcək prezident Makronun seçki kampaniyasında çox böyük rol oynadı”. Makronun bandasına qoşulmazdan əvvəl bu adam, solçular partiyasından olan Arno Montburqa və sağçılar partiyadan olan Brüno Lö Merə kömək etmişdi.

**(ardı var)**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 283 (30687) 22 dekabr 2024-cü il, bazar

# Ahıl "şagirdlər"in görüş dərsi

## Yarım əsrdən sonra doğma məktəbdə

**Tovuz şəhər Puşkin adına tam orta məktəbin həyəti. Yaşı 70-ə çatmış insanların bir-birini mehribancasına bağrına basması ötüb keçənlərin də diqqətini çəkir. Bunlar Şirin Ağayeva, Fatma Məmmədova, Rəna Bağırova, bu da Solmaz Cəfərovadır. Bəs Ceyran Sultanova hanı? Axı 10 il öncəki görüşdə o da aralarında idi.**




Fatma həkim vəziyyəti anladır: Ceyran şəkər xəstəsidir, oğlu hər ay gəlib dərmanlarını götürür. Məsləhətləşib qəlbi Teymura zəng edirlər. Məlum olur ki, Ceyran səhhəti ilə bağlı evdən çıxa bilməyib.

Şahin Qasımov, Ramiz Bağırov, Nurəddin Əliyev, Mübariz Zeynalov, bu sətirlərin müəllifi də Bakıdan gəlib. İllərdir Azərbaycandan uzaqda yaşayan Tofiq Ələkbərov isə ta Həştərxandan özünü görüşə çatdırıb. Rafiq İsmayılov isə yurddan çıxmayıb. Məktəbin qapısı açılır və direktor Adil Əsgərov görünür. O ömrün 70-ci baharını yaşayan bu görüş iştirakçılarını içəri dəvət edir. Xanımlar hər birinin əlində "oğlanların" hədiyyə etdiyi qızılgül buketi dəhlizə daxil olurlar. Gül dəstəsinin biri müəllim Sahibə Əliyevaya təqdim olunur. Yarım əsr öncə son zəngləri çalınan "şagirdlər" həmin günlərə qayıdırlar...

O vaxt girişdə dövrün rəhbərləri – Leninin və Stalinin heykəlləri vardı. X sinifdə soldakı kabinetdə dərs keçirdik. Pillələrdən yuxarıda, üzbəüz 1-ci sinif otağımızdakı divar sobası yerində durur, təmir vaxtı çıxarmayıblar. İlk sinif rəhbərimiz Müzəffər Ağayevi xatırladıq. Ruhu şad olsun. Qızı Şirin aramızdadır.

Dəhlizin o başında direktor Əli Abdullayevin kabineti vardı. Sol yanından pilləkənlə aşağı enib səssizcə, ehtiyatla həyətə keçərdik. İndi o qapı və pillələr yoxdur. Divar hörülüb. Daim qaşlarını çatan o zəhmli direktor da dünyasını dəyişib. Kabineti indi sinif otağıdır. Daxil oluruq. Otağın mistikası hamımızı kövrəldir...

Məktəbin direktoru yeni təyin olunub. Öncə Azaflı kənd məktəbində çalışıb. Aşıq Mikayıl Azaflının nəslindəndir, dediyinə görə, ataları əmiuşağıdır. Şair təbiətlidir. Söz şeirdən düşən kimi Rafiqin səsi eşidilir, qohumu Məmməd İsmayıldan deyir.

Bu addım direktoru da cəsarətləndirir. Adil müəllim Mikayıl Azaflıdan, Zəlimxan Yaqubdan, Nüsrət Kəsəmənlidən, Məmməd İsmayıldan könül oxşayan şeirlər söyləyir. Hamı diqqət kəsilib. Biz özümüzü şagird kimi hiss edirik. Müəllim danışanda dinləyərlər, bilirik. Biz belə görüb, belə öyrənmişik.

Şirin Ağayeva deyir:

– Bizim müəllimlər uşaqları öz fikirlərinə tabe etməyi bacarırdılar.

– O vaxt ədəbiyyata böyük maraq vardı,– deyir Adil müəllim.– Şagirdlər ədəbiyyat dərslərində həyatı, yaradıcılığı tədris edilən klassiklərin, müasir şair və yazıçıların əksər əsərini oxuyar, şeirlərini əzbərləyərdilər. İndi uşaqlar bir az kitabdan ayrı düşüb. Çalışacağıq ki, şagirdlərin bilik öyrənməyə istəyini artıraq.

Şahin Qasımov söhbətə qoşulur:

– Gəlin, yaxşı işlərdən danışaq. Yığışmışıq deyək ki, bu yaşa çatmışıq, sevinək. Tövsiyə edək ki, uşaqlara hər şeydən öncə təhsil verilsin. İndiki dövr bunu daha çox tələb edir. Biliklə dünyaya çıxışımız genişlənir.

Ramiz Bağırov isə bildirir:

– Tale elə gətirib ki, çoxumuz Tovuzdan kənarda yaşayırıq. İşimizlə, əməlimizlə rayonumuzun adını uca tutmuşuq. Mən həmişə fəxr etmişəm ki, tovuzluyam, bu məktəbi bitirmişəm. Tovuzlu olmaq – cəsur, sədaqətli, təmiz, vicdanlı, təmənnasız və ən əsası, ədalətli və savadlı olmaq deməkdir.

Ramiz doğru deyirdi. Bizim uşaqlar həqiqətən də hansı peşədə çalışmalarından asılı olmayaraq, hörmət-izzət sahibi olublar. Qeyd edim ki, rayonda direktorla görüşümüzü bizdən 1 həftə öncə Tovuza gedən, indi təqaüddə olan hüquqşünas Nurəddin Əliyev təşkil etmişdi. Xanımlarla – həkimlər Rəna və Fatma, təqaüddə olan müəllim Solmaz, mühəndis Şirinlə də o danışıb görüşə dəvət etmişdi. Sağ olsun, böyük iş görüb.

Sinif yoldaşımız, ailə vəziyyətinə görə görüşdə iştirak etməyən, amma ruhən, qəlbən aramızda olan Şaban Süleymanovun "Axınca çayı", "Görüşə gəlmişəm" şeir kitabları məktəb direktoruna, eyni zamanda, görüş iştirakçılarına təqdim olundu. Dəhlizdə bu məktəbdə vaxtilə şagirdlərə təhsil, tərbiyə vermiş, bilik və savadlı olmaları yolunda saç ağartmış, can qoymuş müəllimlərin portretləri asılıb. Bəzilərinin rəsmini görmürük. Ana qayğısı ilə bizə yanaşan ədəbiyyat müəllimimiz Gülsultan müəllim, fizikanı tədris edən Zərəngiz müəllim, canımızın sağlamlığı qeydinə qalan, idmançı Məmməd müəllim divardan bizə boylanmır. Direktordan xahiş edirik ki, gələn görüşümüzədək (qismət olsun) o müəllimlərin də fotoları əldə edilsin və Tahir müəllimin, Əli müəllimin, İskəndər müəllimin və digər müəllimlərin şəkillərinin yanından boy göstərsin.

O gün çox şeylər xatırladıq. Ötənlərə qayıtdıq... Biz sinifdə 16 oğlan, 9 qız çox mehriban idik. O vaxtlar hind kinoları dəbdə idi. Dəfələrlə dərsdən hamılıqla qaçıb "Kəşmirdə məhəbbət"ə getmişdik. Bir dəfə də dərsdən qaçıb kinoya gedəndə pulumuzu saydıq, azlıq edirdi. Artıq uşaqların çoxu həyətə çıxmışdı. Dəhlizdə dərs hissə müdiri Tahir müəllimlə qarşılaşdım. Özümü itirdim. "Komsorq, hara belə?" – soruşdu. Çaşıb düzünü dedim: "Müəllim kinoya gedirik. 1 manatımız çatmır". Tahir müəllim qeyri-ixtiyari əlini cibinə atıb 1 manat çıxarıb verdi. Gözüm bərələ qalmışdı. Pulu əlindən qapıb bayıra– uşaqların yanına tələsdim. Ertəsi gün dərsdən qaçmağımızla bağlı bizə heç nə deyən olmadı, çünki yaxşı oxuyurduq.

9-cu sinifdə oxuyanda bizim "A" sinfini 2-ci, "S" sinfini isə 1-ci növbəyə salmışdılar. 24 uşaq – hamımız yenə sözü bir yerə qoyub maarif şöbəsinə (o vaxt belə adlanırdı) şikayətə getdik ki, niyə biz 2-ci növbədə oxumalıyıq? Maarif şöbəsinin müdiri Qara Sultanov hamımızı otağa dəvət etdi. Dinlədi. Harasa zəng edib bizə "gözləyin"– dedi. Çox keçmədən direktorumuz Əli Abdullayev otağa girdi. Dilimiz qurudu. Qara müəllim bizi göstərib "smenu xotyat"(növbə istəyirlər), – dedi. Sinifkomu soruşdular. Tofiq 1 addım irəli çıxdı. "Komsorqunuz kimdir?" –dizlərim əsdi, amma nəkarə idim, qabağa addım atdım. Direktorumuz: "Heç utanırsınız? Bu nə həngamədir, siz kimsiniz, Qara müəllimi narahat edirsiniz, keçin yerinizə".

Qara müəllim dedi: "Uşaqlar, artıq dərslər bölünüb. İlin 2-ci yarısında növbənizi dəyişərik". Direktor üzünü Qara müəllimə tutub "Ay Qara müəllim, sən də məni bağışla, tfu üzünüzə, uşaqlar"– dediyi ilə özümüzü bayırda görməyimiz bir oldu. İtələşə-itələşə pillələrdən düşüb dəmiryolu istiqamətinə qaçdıq. Direktorun qorxusundan məktəbə gedə bilmirdik. 1 həftə sonra məktəbdən xəbər göndərdilər ki, dərsə gəlin, cəza verməyəcəyik...

Solmazgilin evi məktəbə yaxın idi. Dərsdən qaçanda çantalarımızı onların evinə yığıb sonra gəzməyə, kinoya gedirdik. Qazqulu kəndinə, Ceyrangilə yığışırdıq. Bizim evdə keçirdiyimiz bayram şənlikləri, daha nələr... nələr xatırlandı.

Məktəbin həyətində xatirə şəkli çəkildi. Görüşün rəsmi hissəsi başa çatandan sonra təntənə "Fəvvarələr" restoranında davam etdi. Rəqslər bir-birinə qarışdı. Hamı özünü gümrah hiss edirdi, elə bil, çantasında günlük 5–6 növ dərman gəzdirən biz deyildik. Tofiqin rəqslərimizi unutduğunu düşünmüşdüm. Amma hamıdan şux rəqs edən o idi. Musiqilər bir-birini əvəz etdikcə, ruhlar təzələnir, xatirələr dilə gəlirdi. Və biz hər il görüşməyə söz verdik. Mübariz dedi: sıralarımız seyrəlib, sözümüz sözdür, yayda görüşək. Sinif yoldaşlarımız Rzaqulu, Aynəddin, Vidadi, Sahib (iki Sahib vardı, hər ikisi), Üzeyir, Niyazi, Çingiz dünyasını dəyişib. Ruhları şad olsun. 10 il öncəki görüşdə Sahib də vardı, Niyazi də, Aynəddin də...

Amalya Qasımova səhhətindəki problemlə bağlı uzaq yola çıxmağa ehtiyat etmişdi. Riyaziyyat müəllimi Ceyranla mümkün olmasa da, Amalya ilə görüntülü danışdıq, kövrəldi: "Gələn dəfə görüşü Bakıda təşkil edin, mən də iştirak edə bilim". Söz verdik.

O gün bizim ömrümüzə qızıl hərflərlə yazıldı. Bakıya qayıdanda yolboyu görüşün təsirindən danışdıq. Qismət olsa yenə görüşəcəyik. Şahinin təklifi ilə devizimiz belə oldu: "Yaşayaq ki, görüşək!"

*Zərifə BƏŞİRQIZI*
*XQ*

Bakı–Tovuz–Bakı

## İdman

### "Qarabağ" Juninyonu itirəcəkmi?




**İspaniyanın "Sevilya" klubunun baş məşqçisi Xavyer Qarsiya Pimienta "Qarabağ"ın braziliyalı hücumçusu Juninyonun alına biləcəyi ehtimalına da toxunub:**

"Juninyo? Bu futbolçu, bildiyim kimi, "Qarabağ"ın çoxlu qol vuran hücumçusudur. Klubu ilə etibarlı müqaviləsi var. Çempionatda "Real" ilə çox vacib matçımız qalıb. Sonra tətilə gedəcəyik, heyəti gücləndirmək üçün tam bir ay vaxtımız olacaq. Bizim gücləndirmək istədiyimiz bir mövqe var, yəni hücumçuya ehtiyacımız var. Daha deməyə sözüm yoxdur".

Klub rəhbərliyinin son açıqlamalarına görə, hücumçunun transferi ilə bağlı danışıqlar davam edir.

### "Nürnberq" Emrelini buraxmaq istəmir

**Almaniyanın "Nürnberq" futbol klubu azərbaycanlı hücumçu Mahir Emreli ilə müqaviləni uzatmaq istəyir:**



Hücumçu ilə hazırkı müqavilə cari mövsümün sonuna qədər qüvvədədir və "Nürnberq" onu daha bir il, 2025/26 mövsümünün sonuna qədər uzatmağı təklif edir. Bildirilir ki, Emrelinin ən böyük üstünlüyü topla oynamasıdır. Yüksək texnikası hesabına kiçik yerdə dominant ola bilir. Özünün topa toxunuşu və onu yaxında saxlaması hesabına təzyiqli vəziyyətdən çıxmağı bacarır.

*XQ*

### Dəfnə – sağlıq gətirər sənə

**Hər dərman, yaxud, məlhəm müəyyən xəstəlikləri müalicə etmək üçün faydalıdır. Amma nəyin hansı xəstəlikdə və necə kömək etdiyini çoxumuz bilmirik. Rusiyanın təbii vasitələrlə müalicə mütəxəssisləri dəfnə yarpağının möcüzəvi köməyindən yazıblar. Onlar dəfnədən hazırlanmış bu və digər dəmləmənin necə hazırlandığı və istifadə edildiyi barədə fikirlərini bölüşüblər.**



Bildiriblər ki, yuxusuzluq, qeyri-sabit psixoemosional fon zamanı dəfnənin su dəmləməsi müalicə üçün uyğundur. 2 dəfnə yarpağı götürüb bir stəkan qaynar suda dəmləmək lazımdır. Hazırlanmış "çayı" gündə 2 dəfə – səhər yuxudan oyandıqdan sonra və yatmazdan əvvəl içmək tövsiyə olunur.

Dəfnə məlhəmi oynaq ağrılarını, şişkinliyi aradan qaldırmağa və hərəkət fəaliyyətini bərpa etməyə kömək edir. Daxilə olduğu kimi xarici istifadəsi də yaxşı nəticə verir.

8 dəfnə yarpağı 2 stəkan qaynar suda bir saat dəmlənib süzülür. 1 çay qaşığı bal əlavə edilir və gündə 3 dəfə içilir. Dərman kimi 10 gün yeməkdən sonra qəbul edilir.

Xaricə istifadə üçün 5 ədəd yarpağın üstünə 200 millilitr spirt və ya araq tökülüb soyuducuda 14 gün saxlanır. Hazır məlhəm gündə 3 dəfə ağrıyan yerə sürtülür.

*Z.HÜSEYNLİ*
*XQ*

## Hər yeni il gələndə...

# Paytaxtın bayram hazırlıqları



**Təqvimin son vərəqləri qopub düşdükcə ixtiyar çağlarını yaşayan qocalar həmişə deyirlər: "Ömrümüzdən bir il də keçdi...". Bəli, daha bir il başa çatır, yaşımızın üstünə daha bir yaş gəlir.**

İlin sona çatmağı həm də təqvim ilinin dəyişməyi, yenilənməyi deməkdir. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ölkəmizdə dalbadal qeyd olunur. Hazırda bu iki bayram münasibətilə şəhərdə böyük hazırlıq və coşqu var. Hamı yurdumuza yeni qədəm basan Yeni ili xoş və unudulmaz əhval-ruhiyyə ilə qarşılamağa hazırlaşır. Xüsusilə paytaxtın Fəvvarələr meydanında və Dənizkənarı bulvarda bayramı qarşılamaq üçün xeyli iş görülüb. Yeni il yolkalarından ən hündür olan ikisi məhz Bakı Bulvarı ərazisində bəzədilib. Onların hündürlüyü, təxminən, 20 metrə yaxındır.

Kukla Teatrının yaxınlığındakı hissədə Yeni il yarmarkasının fəaliyyəti nəzərdə tutulub. Həmin hissə də bu il xüsusi tərtibatla hazırlanıb və Dənizkənarı Milli Parkın ziyarətçilərinin xüsusi marağına səbəb olub. Burada hər şey bayrama köklənib: 2025-ci ilin gəlişini xəbər verən afişalar, müxtəlif yerlərdə quraşdırılmış ulduzcuqlu qüllələr, sayrışan işıqlar, xüsusi işıqlarla bəzədilmiş yolkalar, habelə rəngbərəng lampaların altında alışıb yanan müxtəlif fiqurlar, şamlar, əyləncəli yeni il qatarları, faytonlar, bəzəkli köklər, satış yarmarkaları...

Hər gün axın-axın insanlar, uşaqlar, valideynlər paytaxtın bayram libası geymiş həmin ərazilərinə gəlir, Şaxta baba, Qar qızla görüşür, şəkil çəkdirir, yeni il hədiyyələri alırlar. Hamı çalışır ki, builki bayram təəssüratı onların yaddaşında ən xoş hisslərlə yaşasın və hamı gələn ilin həyatımızda ən uğurlu illərdən biri olmasını arzulayır.

*Süleyman QARADAĞLI*

## Hava



# Yağmursuz və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 22-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 5-8°, gündüz 9-11° isti olacaq.**

Atmosfer təzyiqi 765 mm civə sütunundan 761 mm civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 9-14° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2855
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00